RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 116 (10136) 4 iyul 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# ALTERNATİVSİZ LİDER

## Tarixi Zəfərə, hərbi qüdrətə, iqtisadi gücə və sosial güvənliyə verilən qiymət

Xalqın Prezident İlham Əliyevə etibar və etimadının ən müqəddəs məqamı 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbəmiz, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsidir. 30 ilə yaxın davam edən işğala son qoyulması, Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan bayrağının ucaldılması xalqımızın çoxəsrlik tarixində bənzəri olmayan bir Zəfərdir. Dövlətimizin başçısı İlham Əliyev torpaqlarımızı işğaldan azad edən Lider və Müzəffər Ali Baş Komandan kimi adını tarixə əbədi yazıb. Tarixi ədalətin öz yerini tapması milli qürurumuzu da bərpa edib, xalqı öz rəhbərinin ətrafında daha sıx birləşdirib. Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması bu qələbənin möhtəşəm davamıdır.

Nəhayət, dünyada geosiyasi münaqişələrin, qanlı qarşıdurmaların və qeyri-sabitliyin artdığı, xaosun hökm sürdüyü bir dövrdə Azərbaycanda daxili sabitliyin və təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunması xalq üçün ən böyük nemətdir. Yaxın və uzaq regionlarda baş verən kataklizmlər fonunda Azərbaycanda əmin-amanlıq, sabitlik hökm sürür. Xalqımız bunu məhz dövlətimizin başçısının həyata keçirdiyi siyasətin nəticəsi kimi qəbul edir.

Nəticə etibarilə ictimai rəy sorğusunda əks olunanlar ölkəmizdəki sabitliyə, tarixi zəfərə, iqtisadi qüdrətə və xalq-iqtidar birliyinə verilən obyektiv və real qiymətdir. Şübhəsiz, xalqın öz liderinə bəslədiyi sarsılmaz inam, sadəcə, keçmişin və bu günün dəyərləndirilməsi deyil, eyni zamanda Azərbaycanın sabahkı uğurlarının böyük təminatıdır.

4

## Azərbaycan ilə Belarus arasında münasibətlər yüksək səviyyədə qarşılıqlı anlaşma, sıx qarşılıqlı fəaliyyət ilə xarakterizə olunur



### Belarus Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandr Lukaşenkoya

Hörmətli Aleksandr Qriqoryeviç!

Dövlət bayramı - Belarus Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Azərbaycan ilə Belarus arasında münasibətlər yüksək səviyyədə qarşılıqlı anlaşma, sıx qarşılıqlı fəaliyyət ilə xarakterizə olunur. Xalqlarımız arasında möhkəm dostluq və qarşılıqlı dəstək ənənələri, həmçinin yüksək səviyyədə razılaşmaların uğurla həyata keçirilməsi dövlətlərarası əlaqələrimizi keyfiyyətli məzmunla zənginləşdirir və istiqamətlərin bütün spektri üzrə ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə kömək edir.

Əminəm ki, birgə səylərlə Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında çoxplanlı qarşılıqlı fəaliyyət və strateji tərəfdaşlıq dost xalqlarımızın və ölkələrimizin rifahı naminə gələcəkdə də ardıcıl olaraq genişlənəcək və dərinləşəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifənizdə uğurlar, dost Belarus xalqına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

## Dövləti gücləndirən, həyatı asanlaşdıran rəqəmsal idarəetmə modeli

Bir çox ölkədə rəqəmsallaşma ayrıca nazirliklərin və ya dövlət qurumlarının fəaliyyət istiqaməti kimi qəbul olunur. Azərbaycanda isə bu prosesin ən yüksək siyasi səviyyədə koordinasiya edilməsi, Rəqəmsal İnkişaf Şurasına ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etməsi göstərir ki, söhbət təkcə informasiya texnologiyalarının inkişafından yox, dövlət idarəçiliyinin bütövlükdə yeni mərhələyə keçidindən gedir.

İclas zamanı Mehriban xanım Əliyeva şuranın əsas prioritetlərinin dövlət idarəçiliyində rəqəmsallaşmanın sürətləndirilməsi, süni intellekt texnologiyalarının tətbiqi, kibertəhlükəsizliyin gücləndirilməsi, innovasiya ekosisteminin inkişafı, startapların dəstəklənməsi və investisiyaların təşviqi ilə bağlı



olduğunu diqqətə çatdırdı. Eyni zamanda süni intellektdən istifadənin Azərbaycanın milli maraqlarına uyğun həyata keçirilməsinin vacibliyini xüsusi qeyd etdi. Bu da Azərbaycanın texnologiyaya məqsəddən çox güclü dövlət quruculuğunun və davamlı inkişafın mühüm aləti kimi yanaşdığını təsdiqləyir. "Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır", - deyə Birinci vitse-prezident Mehriban xanım Əliyeva çıxışında bildirib.

5

## Uşaqlar və yeniyetmələr sosial şəbəkələrin təhlükəsindən kənarda qalmalıdırlar




Yeni tənzimləməyə əsasən, 16 yaşadək uşaqların sosial şəbəkələrdə müstəqil hesab açmasına icazə verilmir, 16-18 yaş arası yeniyetmələr isə yalnız valideyn və ya qanuni nümayəndənin razılığı ilə qeydiyyatdan keçə biləcəklər. Təbii ki, bu yanaşma uşaqların rəqəmsal mühitdə iştirakını tam məhdudlaşdırmır, əksinə, onların yaşına uyğun şəkildə qorunmasını təmin edir. Məqsəd onların informasiya əldə etmək hüququnu məhdudlaşdırmaq yox, fiziki və psixoloji inkişafına mənfi təsirləri minimuma endirməkdir.

Uşaqların sosial şəbəkələrdə təhlükəsizliyinin təmin olunması bu gün yalnız Azərbaycanın deyil, bir çox ölkənin əsas gündəm mövzusudur.

8

## BTC-nin tarixində növbəti mühüm hadisə



BTC-nin tarixindəki növbəti yeniliklə bağlı BP-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli belə deyib: "Elan etdiyimiz mərhələ BTC layihəsi üçün əlamətdar bir hadisədir. Çox qürurluyuq ki, BTC-nin operatoru kimi onun uzun illərdir davam edən təhlükəsiz, etibarlı və yüksək səmərəli fəaliyyətinin icraçısı olmuşuq. İstər üç ildən artıq bir müddətdə boru kəmərinin üç tranzit ölkə ərazisində görünməmiş bir miqyasda və texniki baxımdan son dərəcə mürəkkəb tikinti prosesinə rəhbərlik etməyimiz olsun, istərsə də ondan sonrakı 20 ildən artıq bir müddətdə kəmərin səmərəli və təhlükəsiz istismarını təmin etməyimiz olsun. Bütün bu müddət ərzində BTC dünya bazarlarına etibarlı neft ixracı yolu kimi enerji təhlükəsizliyini gücləndirib".

6

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770, № 12 (II kitab), maddə 1338; 2025, № 4 (I kitab), maddə 315, № 7, maddələr 610, 631, № 8, maddələr 738, 744) 56-cı maddəsinin 2-ci hissəsinin dördüncü cümləsinə ikinci halda "verilməsi" sözündən sonra", "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq torpaq sahələri üzərində hüquqların özəl tərəfdaşa ötürülməsi məqsədilə həmin torpaq sahələrinin dövlət mülkiyyətinə və ya icarəsinə verilməsi" sözləri əlavə edilsin.

**Maddə 2.** "Torpaq icarəsi haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 154 (Cild I); 2024, № 11, maddə 1192, № 12 (II kitab), maddə 1338) 10-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci hissənin ikinci cümləsinə ikinci halda "verilməsi" sözündən sonra ", habelə "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq torpaq sahələri üzərində hüquqların özəl tərəfdaşa ötürülməsi məqsədilə həmin torpaq sahələrinin dövlət icarəsinə verilməsi" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda on birinci hissə əlavə edilsin:

"Dövlət-özəl tərəfdaşlığı layihəsini həyata keçirmək məqsədilə dövlət mülkiyyətində olan torpaq sahəsi özəl tərəfdaşa "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq səlahiyyətli orqanla özəl tərəfdaş arasında bağlanılan icarə müqaviləsinə əsasən icarəyə verilir.".

**Maddə 3.** "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390 (Cild I); 2024, № 12 (II kitab), maddə 1338; 2025, № 4 (I kitab), maddə 315, № 8, maddə 744) 8-ci maddəsinin birinci hissəsinin ikinci cümləsinə ikinci halda "verilməsi" sözündən sonra ","Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq torpaq sahələri üzərində hüquqların özəl tərəfdaşa ötürülməsi məqsədilə həmin torpaq sahələrinin dövlət mülkiyyətinə və ya icarəsinə verilməsi" sözləri əlavə edilsin.

**Maddə 4.** "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580 (Cild I); 2024, № 4, maddə 371; 2025, № 4 (I kitab), maddə 315) 4.0.4-cü maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.0.5-ci maddə əlavə edilsin:

"4.0.5. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi halları.".

**Maddə 5.** "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 520 (Cild I); 2025, № 4 (I kitab), maddə 315, № 7, maddə 618, № 8, maddə 738) 9.1-ci maddəsinə ikinci halda "halları" sözündən sonra", "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq torpaq sahələri üzərində hüquqların özəl tərəfdaşa ötürülməsi məqsədilə həmin torpaq sahələrinin dövlət mülkiyyətinə və ya icarəsinə verilməsi" sözləri əlavə edilsin.

**Maddə 6.** "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 536 (Cild I); 2025, № 4 (I kitab), maddə 318) aşağıdakı məzmunda 3.5-ci maddə əlavə edilsin:

"3.5. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müsabiqənin şərtlər toplusunda nəzərdə tutulduğu halda özəl tərəfdaşa tənzimlənən qiymətlərin səviyyəsinə dair təminat verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2026-cı il*

# "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 420-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 158 (Cild I); 2024, № 6 (I kitab), maddə 665, № 7, maddə 823, № 8, maddə 938, № 11, maddə 1202; 2026, № 4, maddə 304) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci və üçüncü abzaslar müvafiq olaraq 1.1-ci bənd və 1.1.1-ci yarımbənd hesab olunsun və aşağıdakı məzmunda 1.1.2-ci yarımbənd əlavə edilsin:

"1.1.2. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün dövlət mülkiyyətində olan torpaq sahəsinin özəl tərəfdaşa icarəyə verilməsi barəsində - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;".

2. Dördüncü - yeddinci abzaslar müvafiq olaraq 1.1.3 - 1.1.6-cı yarımbəndlər hesab edilsin.

3. Səkkizinci - on üçüncü abzaslar müvafiq olaraq 1.2- 1.7-ci bəndlər hesab olunsun və 1.7-ci bənddə aşağıdakı dəyişikliklər edilsin:

3.1. "1-ci hissəsində, 6-cı hissəsinin birinci abzasında və" və "66-cı maddəsinin 1-ci hissəsində" sözləri çıxarılsın;

3.2. "orqanları"nın" sözündən sonra ", 56-cı maddəsinin 1-ci hissəsində, 6-cı hissəsinin birinci abzasında və 66-cı maddəsinin 1-ci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının" sözləri əlavə edilsin.

4. Aşağıdakı məzmunda 1.8-ci bənd əlavə edilsin:

"1.8. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 46-cı maddəsinin 4-cü hissəsində, 51-ci maddəsinin 3-cü hissəsində, 55-ci maddəsinin ikinci abzasında və 56-cı maddəsinin 8-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının, 56-cı maddəsinin 1-ci hissəsində, 6-cı hissəsinin birinci abzasında və 66-cı maddəsinin 1-ci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün dövlət mülkiyyətində olan torpaq sahəsinin özəl tərəfdaşa icarəyə verilməsinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;".

5. On dördüncü - on doqquzuncu abzaslar müvafiq olaraq 1.9 - 1.14-cü bəndlər hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2026-cı il*

# "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245 (Cild I); 2024, № 2, maddə 147; 2025, № 11, maddə 1025) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.41-ci bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318 (Cild I); 2024, № 5 (I kitab), maddə 515; 2025, № 11, maddə 1020) ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.28-ci yarımbənddə "və qaz paylayıcısına" sözləri ", qaz nəqli sistem operatoruna, qazpaylayıcı sistem operatoruna, topdan və pərakəndə satıcıya" sözləri ilə əvəz edilsin;

2.2. 3.1.29-cu yarımbənddə "qaz paylayıcısından" sözləri "qaz nəqli sistem operatorundan, qazpaylayıcı sistem operatorundan, topdan və pərakəndə satıcıdan" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490 (Cild I); 2024, № 5 (I kitab), maddə 515; 2025, № 1, maddə 23, № 6, maddə 540) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.3.2. qazın nəqli, paylanması, saxlanması, satışı və idxalı fəaliyyətini həyata keçirən hüquqi şəxslər (bundan sonra - qaz təchizatı subyektləri), istehlakçılar, o cümlədən iri istehlakçılar.";

3.2. 3-cü hissə üzrə:

3.2.1. 3.1.1-ci yarımbənddə "sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin" sözləri "subyektlərinin" sözü ilə əvəz edilsin;

3.2.2. 3.2.2-ci yarımbənddə "sahəsində fəaliyyət göstərən dövlət müəssisələrində" sözləri "subyektlərində" sözü ilə əvəz edilsin;

3.2.3. 3.3.1-ci yarımbənddə "qaz paylayıcısının" sözləri "qaz nəqli sistem operatorunun və ya qazpaylayıcı sistem operatorunun" sözləri ilə əvəz edilsin;

3.2.4. 3.3.2-ci yarımbənddə "qaz paylayıcısı" sözləri "qaz nəqli sistem operatoru və qazpaylayıcı sistem operatoru" sözləri ilə əvəz edilsin;

3.2.5. 3.7-ci bənd üzrə:

3.2.5.1. birinci abzasda "sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin" sözləri "subyektlərinin" sözü ilə əvəz edilsin;

3.2.5.2. 3.7.1-ci yarımbənddə "qaz paylayıcısı" sözləri "qaz nəqli sistem operatoru və ya qazpaylayıcı sistem operatoru" sözləri ilə əvəz edilsin;

3.2.5.3. 3.7.4-cü yarımbənddə "istehsalı, emalı, saxlanması, nəqli" sözləri "nəqli, paylanması, saxlanması, satışı, idxalı" sözləri ilə əvəz edilsin;

3.2.5.4. 3.7.5-ci yarımbənddə "qaz paylayıcısı" sözləri "qaz nəqli sistem operatoru, qazın saxlanması sistem operatoru və qazpaylayıcı sistem operatoru" sözləri ilə əvəz edilsin.

4. "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 noyabr tarixli 865 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1713 (Cild I) 2.12 - 2.15-ci bəndləri ləğv edilsin.

5. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Antiinhisar fəaliyyəti haqqında", "Enerji resurslarından istifadə haqqında", "Yerin təki haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 337-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 27 aprel tarixli 701 nömrəli, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2000-ci il 6 mart tarixli 291 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziya və icazələrin siyahısının təsdiq edilməsi haqqında" 2020-ci il 1 iyul tarixli 1079 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 iyul tarixli 1394 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 728 (Cild I) 1.4-cü və 1.5-ci bəndləri ləğv edilsin.

6. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 fevral tarixli 2020 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 228 (Cild I) 1-ci hissəsinin birinci abzası, 1.1-ci, 1.3-cü və 1.4-cü bəndləri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2026-cı il*

# Altıncı "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsinə start verilib

**İyulun 3-də altıncı "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsinə start verilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev, Milli Məclis Sədrinin müavini, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Qarabağ Dirçəliş Fondunun sədri Rəhman Hacıyev, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə, eləcə də "Yüksəliş" müsabiqəsinin ötən illərdəki qalibləri iştirak ediblər.

Açılış mərasimində çıxış edən qonaqlar yarımfinal mərhələsinə qədər uğurla irəliləyən iştirakçıları təbrik edib, onlara qarşıdakı mərhələdə uğurlar arzulayıblar. Qeyd olunub ki, bu mərhələyə vəsiqə qazanmaq iştirakçıların bilik, bacarıq, hazırlıq və potensialının göstəricisi olmaqla yanaşı, artıq mühüm nailiyyətdir.

Bu il keçirilən müsabiqənin konsepti Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə elan olunmuş "Şəhərsalma və Memarlıq İli"nə həsr edilib.

Mərasimdə vurğulanıb ki, Azərbaycan yüksəlişinin memarları - Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən ölkəmizin inkişafı naminə həyata keçirilən uzaqgörən strateji qərarlar digər sahələrdə olduğu kimi, memarlıq, şəhərsalma, abadlıq, infrastruktur və quruculuq sahələrində də mühüm yeniliklərin əsasını qoyub, Azərbaycanın müasir və dinamik simasının formalaşmasına mühüm töhfə verib.

Yarımfinal mərhələsində iştirak etmək hüququ qazanan 331 namizəd idarəetmə bacarıqları üzrə keçirilən imtahanı müvəffəqiyyətlə tamamlayaraq bu mərhələyə yüksəlib. Bu mərhələdə iştirakçılar real iş mühitinə uyğun hazırlanmış situasiyalar və keys tapşırıqları əsasında öz bilik və bacarıqlarını nümayiş etdirəcəklər.

Üç gün davam edəcək yarımfinal mərhələsi çərçivəsində namizədlər 9 səriştə üzrə ekspertlər tərəfindən qiymətləndiriləcəklər. Bu səriştələr strateji düşüncə, effektiv liderlik, qərarvermə, nəticəyönümlülük, işin effektivliyinin idarə edilməsi, adaptivlik, innovativ düşüncə, komanda işi və əməkdaşlıq, etika və dürüstlük istiqamətlərini əhatə edir.

Qeyd edək ki, yarımfinal mərhələsinə hazırlıq çərçivəsində qiymətləndirici ekspertlər üçün üçgünlük təlim proqramı təşkil olunub. Təlimlərə 100-ə yaxın ekspert cəlb edilib. Ekspertlər real imtahan mühitinə yaxınlaşdırılmış simulyasiya olunmuş situasiyalar əsasında iştirakçıların bacarıqlarının qiymətləndirilməsi, qiymətləndirmə meyarları, qiymətləndirmə mərkəzlərinin fəaliyyəti və ekspertlərin funksiyaları barədə ətraflı məlumatlandırılıblar.

Qiymətləndirmə prosesi beynəlxalq təcrübəyə əsaslanan və obyektivliyi ilə seçilən "Qiymətləndirmə konfransı" - "Assessment Conference" metodu ilə həyata keçirilir. Bu metod hər bir iştirakçının performansına çoxşaxəli yanaşmanı təmin edir və yekun qərarların kollegial əsasda verilməsinə imkan yaradır.

Yarımfinal mərhələsi iyulun 5-də başa çatacaq. Bu mərhələni uğurla tamamlayan iştirakçılar iyulun 17-19-da keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanacaqlar.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə təsis olunub. Müsabiqənin qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.

Altıncı "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2025-ci il dekabrın 10-da sərəncam imzalanıb.



# Milli Məclisin Sədri Sahibə Qafarova Ayətullah Seyid Əli Xameneinin vida mərasimində iştirak edib







**Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti iyulun 3-də İran İslam Respublikasının sabiq Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin vida mərasimində iştirak etmək üçün bu ölkəyə səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Tehranın Mehrabad Beynəlxalq Hava Limanında nümayəndə heyətini İran İslam Şurası Məclisi Sədrinin müavini Əli Nikzad, ölkəmizin İrandakı səfiri Əli Əlizadə və protokol əməkdaşları qarşılayıblar.

Sonra spiker Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan Respublikasının nümayəndə heyəti Tehranın Mosallah kompleksində keçirilən vida mərasimində iştirak edib.

Tədbirdə Milli Məclisin Sədri İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian, İran İslam Respublikası İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf və digər rəsmilərlə görüşərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından başsağlığı ifadə edib, Azərbaycan xalqının dərin hüzn və ehtiramını İran xalqına çatdırıb.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin tərkibinə Baş nazirin müavini Şahin Mustafayev, Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, xarici işlər nazirinin müavini Samir Şərifov, Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev və digər rəsmilər daxildirlər.

***"Azərbaycan"***

## Gömrük komitəsinin sədri Qazaxda vətəndaşların müraciətlərini dinləyib



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşlarla görüş keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.**

İyulun 3-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov Qazax şəhərində - Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşlarla görüşüb.

DGK-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri görüşdən əvvəl Qazax şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

## Milli Məclisdə görüş

İyulun 3-də Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Beynəlxalq Səhiyyə Menecmenti Konqresində iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin səhiyyə naziri Hakan Dinçyürek və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin üzvü Ahmet Savaşan ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Cavanşir Feyziyev qonaqları Azərbaycan Parlamentində salamlamaqdan məmnunluğunu ifadə edərək, Azərbaycan ilə ŞKTC arasında münasibətlərin qarşılıqlı etimad, dostluq və qardaşlıq prinsipləri əsasında bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyini bildirib.

Görüşdə vurğulanıb ki, bu gün səhiyyə sahəsi iki ölkə arasında əməkdaşlıq üçün böyük potensiala malik istiqamətlərdən biridir. Bildirilib ki, tibb mütəxəssislərinin qarşılıqlı səfərləri, peşəkar təcrübə mübadiləsi, birgə elmi-tibbi layihələrin həyata keçirilməsi və müasir səhiyyə idarəçiliyi sahəsində əməkdaşlığın genişləndirilməsi hər iki tərəf üçün faydalı nəticələr verə bilər.

ŞKTC-nin səhiyyə naziri Hakan Dinçyürek göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək gələcəkdə həyata keçiriləcək qarşılıqlı təcrübə mübadiləsi və birgə təşəbbüslərin səhiyyə sahəsində əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyini söyləyib.

Görüşdə Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Musa Quliyev, Jalə Əliyeva, Hikmət Məmmədov və Azər Allahverənov, həmçinin Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin üzvü Ahmet Savaşan çıxış edərək Azərbaycan ilə ŞKTC arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

***"Azərbaycan"***




## "Türk Dünyası Həftəsi"nin iştirakçıları Xankəndi Bəyannaməsini qəbul ediblər

**Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində tədbir iştirakçıları elm, təhsil, dil, mədəniyyət və ortaq tarixi irsin qorunması sahələrində türk dövlətləri arasında əməkdaşlığın inkişaf istiqamətlərini özündə əks etdirən Xankəndi Bəyannaməsini hazırlayaraq yekdilliklə qəbul ediblər.**

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bəyannamədə Azərbaycan Prezidenti İlham Əliyevə yubiley tədbirlərinin keçirilməsi təşəbbüsünə, müvafiq sərəncamın imzalanmasına, türk dünyası əməkdaşlığının inkişafına göstərdiyi daimi diqqətə, eləcə də tədbirlərin Bakı və Xankəndi şəhərlərində yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlıq ifadə olunub.

Sənəddə həmçinin "Türk Dünyası Həftəsi"nin iştirakçılarına ünvanladıqları təbrik müraciətlərinə görə türk dövlətlərinin başçılarına təşəkkür bildirilib.

## Baş prokuror Xətai rayonunda vətəndaşlarla görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 3-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Xətai Rayon Prokurorluğunun inzibati binasında Xətai rayonundan olan vətəndaşları qəbul edib. Qəbulda iştirak edən 48 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə Apellyasiya Məhkəməsində təqsirləndirilən şəxslərin vəsatətlərinə baxılıb

**İyulun 3-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**





AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Məhkəmədə elan olunub ki, təqsirləndirilən Davit İşxanyanın yazılı qeydləri məhkəməyə təqdim olunub. Qeydlər qanunvericiliyin tələblərinə uyğun olaraq tərcümə edilib, onların surətləri məhkəməyə və proses iştirakçılarına təqdim olunaraq iş materiallarına əlavə edilib.

Ardınca çıxış edən dövlət ittihamını müdafiə edən prokurorlar bildirib ki, Cinayət Prosessual Məcəlləsinin 51.7-ci maddəsinə əsasən, məhkəmə iclası protokoluna verilmiş yazılı qeydlər məhkəmə tərəfindən araşdırılmalı, əsaslı hesab edildiyi halda təsdiqlənməli, əks halda isə onların rədd edilməsi barədə qərar qəbul olunmalıdır. İttiham tərəfi qeyd edib ki, müdafiə tərəfinin protokolla audioyazı arasında ziddiyyətə dair iddiası audioyazı ilə təsdiqini taparsa, qeydlər təsdiqlənməli, təsdiqlənmədiyi halda isə rədd edilməlidir. Bu əsasla məhkəmədən qanunvericiliyə uyğun qərar qəbul olunması xahiş edilib.

Zərərçəkmiş şəxslərin nümayəndələri məhkəmə iclası protokollarına verilmiş qeydlərlə bağlı ittiham tərəfinin mövqeyini dəstəklədiklərini və bu məsələdə eyni mövqedən çıxış etdiklərini bildiriblər.

Daha sonra məhkəmə kollegiyası məhkəmə iclası protokolları ilə bağlı məsələyə dair qərar qəbul etmək üçün müşavirəyə gedib.

Müşavirədən qayıdan məhkəmə kollegiyası sözügedən qeydlərin təsdiq olunmasını və iş materiallarına əlavə edilməsini qərara alıb. Qeyd olunub ki, protokolların məzmununda hər hansı uyğunsuzluq aşkar edilməyib.

Bu baxımdan da məhkəmə müdafiə tərəfinin qeydlərinin iş materiallarına əlavə edilməsini qanuni və əsaslı hesab edir.

Təqsirləndirilən Levon Mnatsakanyan məhkəməyə müraciət edərək vəsatət vermək istədiyini bildirib. Məhkəməyə sədrlik edən isə ona vəsatətlərin təqdim olunması üçün müvafiq imkanın yaradılacağını deyib.

Daha sonra çıxış edən Davit İşxanyan qəbul edilmiş qərara görə təşəkkürünü bildirib.

Ardınca o, çıxışını davam etdirərək ötən iclasda söylədiyi kimi bir daha özünü təqsirkar saymadığını qeyd edib.

Sonra David Babayanın müdafiəçisi məhkəmədə çıxış edərək təqsirləndirilən şəxsin təqdim etdiyi apellyasiya şikayətinin tam əsaslı olduğunu bildirib.

O, çıxışında D.Babayan barəsində çıxarılmış hökmün ləğv edilməsini və onun barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Fasilədən sonra təqsirləndirilən Davit İşxanyanın vəsatəti müdafiəçisi vasitəsilə tərcüməçiyə təqdim edilib.

Daha sonra çıxış edən təqsirləndirilən David Babayan ona qarşı irəli sürülmüş ittihamlar üzrə özünü təqsirli bilmədiyini deyib.

Məhkəmənin növbəti iclası iyulun 7-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.



# Alternativsiz Lider

## Tarixi Zəfərə, hərbi qüdrətə, iqtisadi gücə və sosial güvənliyə verilən qiymət

**Hər bir dövlətin gücü və gələcək taleyi xalq-lider vəhdətinin sarsılmazlığı və bu qarşılıqlı inamın yaratdığı strateji üstünlüklərlə birbaşa bağlıdır. Müstəqil dövlət modelinin formalaşmasında xalq etimadı və siyasi liderlik bir-birini tamamlayan ən fundamental amillərdir. Xüsusən qlobal və regional təhlükəsizlik çağırışlarının artdığı beynəlxalq münasibətlər sistemində bu iki amilin harmoniyası dövlətin daxili sabitliyinin və xarici siyasət uğurlarının əsas təminatçısı rolunda çıxış edir.**

Medianın İnkişafı Agentliyinin keçirdiyi ictimai rəy sorğusu da Azərbaycan xalqının öz Prezidentinə olan yüksək etimadını və yürüdülən strateji kursa verdiyi tam dəstəyi elmi-sosioloji baxımdan bir daha təsdiqləyir. Sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi ümumilikdə 87,7 faiz təşkil edib. Bu göstərici ölkədə hər 10 nəfərdən təxminən 9-nun Azərbaycan Prezidentinə etimad etdiyini təsdiqləyib. Rəy sorğusunda iştirak edənlərin 93,6 faizi Prezident İlham Əliyevin fəaliyyətini müsbət qiymətləndirib. Respondentlərin 81,9 faizi dövlətimizin başçısını alternativsiz siyasi lider kimi qəbul edir. Bu, Prezident İlham Əliyev tərəfindən yürüdülən strateji kursun xalq tərəfindən dəstəklənməsinin bariz sübutudur. Rəy sorğusunun nəticələri isə bu reallığın cəmiyyətdəki əks-sədasıdır.

Respondentlərin mütləq əksəriyyətinin Prezident İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirməsinin, dövlətimizin başçısını alternativsiz siyasi lider kimi qəbul etməsinin arxasında çoxşaxəli, qətiyyətli və milli maraqlara əsaslanan dövlətçilik fəaliyyəti dayanır. Dövlətimizin başçısına göstərilən yüksək etimad illərdir formalaşdırılan güclü dövlətçilik strategiyasına, xalqın iradəsinə söykənən uğurlu daxili-xarici siyasətə, sabitlik və tarixi zəfərlərlə taclanmış milli qürura söykənir.

Bu sarsılmaz etimadın mühüm təməllərindən biri Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasət yürütməsi və Azərbaycan xalqının maraqlarını uca tutmasıdır. Dövlətimizin başçısının daxili və xarici siyasətdə nümayiş etdirdiyi qətiyyətlilik və prinsipiallıq milli maraqlarımızın ən yüksək səviyyədə müdafiəsini təmin edir. Ölkəmizin müstəqil inkişaf xəttinin qorunması, beynəlxalq kürsülərdə Azərbaycanın haqlı mövqeyinin güzəştsiz şəkildə müdafiə edilməsi bu siyasətin əsas qayəsini təşkil edir. Böyük güclərin və siyasi dairələrin regionla bağlı qərəzli ssenarilərinə qarşı rəsmi Bakının nümayiş etdirdiyi qətiyyətli duruş və milli mənafelərinin layiqincə qorunması bu prinsipiallığın ən real nümunəsidir.

Dövlətin atdığı hər bir addım məhz xalqın rifahına, təhlükəsizliyinə və dövlətin daha da qüdrətlənməsinə hesablanıb. Liderliyin gücü və legitimliyi onun xalqla olan münasibətlərinin xarakteri ilə ölçülür. Azərbaycan Prezidenti İlham Əliyev öz siyasi gücünü birbaşa xalqdan alır, xalqa güvənir və hər bir qərarında xalqın iradəsini ifadə edir. Dövlətimizin başçısının Azərbaycanın regionlarına səfərləri, vətəndaşlarla birbaşa ünsiyyətdə olması, onların problemlərini dinləməsi cəmiyyətdə güclü birlik və inam hissi yaradır. Xalq liderin bu münasibətində bütün arzu və istəklərinin icraçısını görür.

Digər tərəfdən, Prezident İlham Əliyevin böyük şəxsiyyəti və qətiyyətli lider xüsusiyyətləri həm ölkə daxilində, həm də dünya miqyasında dövlətimizin başçısına çox böyük nüfuz qazandırıb. Müasir dünyada güclü, prinsipial, xarizmatik, sözü ilə əməli bir olan liderlərə ehtiyac olduqca çoxdur. Azərbaycan Prezidenti məhz bu cür liderdir. Dövlətimizin başçısının beynəlxalq platformalardakı rasional çıxışları, qlobal problemlərin həllinə yönəlmiş təşəbbüsləri dünya liderləri tərəfindən böyük hörmət və rəğbətlə qarşılanır. Ölkə vətəndaşı öz rəhbərinin qlobal arenadakı nüfuzunu, lider kimi ona göstərilən hörməti gördükcə qüruru artır, etimadı daha da möhkəmlənir.

Azərbaycanın müasir dövrdə keçdiyi inkişaf yolu ölkəmizin hərtərəfli yüksəlişi, güclü iqtisadiyyata və qüdrətli orduya malik olması ilə səciyyələnir. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsas şərtidir. Azərbaycan bu gün heç bir xarici maliyyə institutundan asılı deyil. Ölkəmizin enerji resurslarından səmərəli istifadə edilməsi, qeyri-neft sektorunun inkişafı, nəqliyyat və logistika mərkəzinə çevrilməsi iqtisadi dayanıqlığı təmin edib. Güclü iqtisadi təməl müasir silahlarla təchiz olunmuş, yüksək döyüş hazırlığına malik modern ordunun qurulmasına imkan verib. İnsanlar iqtisadi və hərbi qüdrətin real nəticələrini öz gündəlik həyatlarında və dövlətin ümumi təhlükəsizlik arxitekturasında aydın hiss edirlər.

Bu uğurların məntiqi nəticəsi olaraq, Azərbaycan Cənubi Qafqazın lideri, aparıcı ölkəsidir. Regionda Azərbaycanın iştirakı olmadan heç bir irimiqyaslı iqtisadi və enerji layihəsi reallaşdırılmır. Bundan əlavə, ölkəmiz qlobal səviyyədə öz sözünü deyən, prinsipial mövqeyə malik, tam müstəqil siyasət yürüdən bir dövlət statusu qazanıb. Qoşulmama Hərəkatına uğurlu sədrlik, regional və qlobal əhəmiyyətli forumların, sammitlərin Bakıda yüksək səviyyədə təşkili Azərbaycanın beynəlxalq nüfuzunu zirvəyə daşıyıb. Ölkəmiz beynəlxalq hüququn tərəfdarı kimi çıxış edərək ikili standartlara qarşı mübarizədə qlobal səviyyədə rəğbət qazanıb.

Xalqın Prezident İlham Əliyevə etibar və etimadının ən müqəddəs məqamı 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbəmiz, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsidir. 30 ilə yaxın davam edən işğala son qoyulması, Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan bayrağının ucaldılması xalqımızın çoxəsrlik tarixində bənzəri olmayan bir Zəfərdir. Dövlətimizin başçısı İlham Əliyev torpaqlarımızı işğaldan azad edən Lider və Müzəffər Ali Baş Komandan kimi adını tarixə əbədi yazıb. Tarixi ədalətin öz yerini tapması milli qürurumuzu da bərpa edib, xalqı öz rəhbərinin ətrafında daha sıx birləşdirib. Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması bu qələbənin möhtəşəm davamıdır.

Nəhayət, dünyada geosiyasi münaqişələrin, qanlı qarşıdurmaların və qeyri-sabitliyin artdığı, xaosun hökm sürdüyü bir dövrdə Azərbaycanda daxili sabitliyin və təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunması xalq üçün ən böyük nemətdir. Yaxın və uzaq regionlarda baş verən kataklizmlər fonunda Azərbaycanda əmin-amanlıq, sabitlik hökm sürür. Xalqımız bunu məhz dövlətimizin başçısının həyata keçirdiyi siyasətin nəticəsi kimi qəbul edir.

Nəticə etibarilə ictimai rəy sorğusunda əks olunanlar ölkəmizdəki sabitliyə, tarixi zəfərə, iqtisadi qüdrətə və xalq-iqtidar birliyinə verilən obyektiv və real qiymətdir. Şübhəsiz, xalqın öz liderinə bəslədiyi sarsılmaz inam, sadəcə, keçmişin və bu günün dəyərləndirilməsi deyil, eyni zamanda Azərbaycanın sabahkı uğurlarının böyük təminatıdır.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Tarixi xidmətlərə və gələcəyə yönəlmiş aydın baxış

## Sorğunun nəticələri İlham Əliyev dövlətçilik məktəbinin xalq tərəfindən qəbul edildiyini növbəti dəfə göstərdi

**Müasir qlobal siyasi arxitekturanın fundamental böhranlar, beynəlxalq hüququn deqradasiyası və güc mərkəzlərinin amansız qarşıdurmaları ilə xarakterizə olunduğu bir dövrdə sabitlik, inkişaf və suverenlik adası kimi çıxış edən dövlətlərin uğur formulu xüsusi elmi-nəzəri və praktiki maraq doğurur. Dünyanın geosiyasi xəritəsində baş verən tektonik dəyişikliklər fonunda Azərbaycanın qazandığı tarixi zəfərlər, ərazi bütövlüyünün və tam suverenliyinin bərpa edilməsi prosesi təkcə regionun deyil, bütövlükdə qlobal siyasətin trayektoriyasını dəyişdirib.**

Məhz buna görə böyük tarixi və siyasi reallığın memarı, Azərbaycan xalqının mütləq etimadını qazanmış Prezident İlham Əliyevin Ulu Öndərin siyasi irsinə əsaslanan dövlətçilik strategiyası bu gün hüquqi, siyasi və tarixi kontekstdə dərindən təhlil edilməli olan ən aktual mövzulardan biridir. **Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, son ictimai rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin 87,7 faizinin dövlət başçısına mütləq etimad nümayiş etdirməsi, 93,6 faizinin onun fəaliyyətini müsbət qiymətləndirməsi və 81,9 faizinin İlham Əliyevi alternativsiz siyasi lider kimi qəbul etməsi riyazi-statistik göstərici yox, sosioloji, hüquqi və siyasi fəlsəfə baxımından dərin məna kəsb edir. Bu rəqəmlər Azərbaycan cəmiyyətindəki monolit birliyin, dövlət-xalq həmrəyliyinin və milli iradənin ali təzahürüdür. "Hüquq elminin və dövlət nəzəriyyəsinin ən fundamental prinsiplərindən biri hakimiyyətin mənbəyi və legitimliyi məsələsidir. Azərbaycan Respublikası Konstitusiyasının ilk maddəsində təsbit olunduğu kimi, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Prezident İlham Əliyevin yürütdüyü siyasətin fəlsəfəsi məhz bu konstitusion prinsipə və milli maraqların ali müdafiəsinə əsaslanır. Məlumdur ki, siyasi nəzəriyyədə legitimlik konsepsiyası hüquqi-rasional, ənənəvi və xarizmatik əsaslara bölünür. İlham Əliyevin liderlik modeli bu tipologiyaların hər birini özündə birləşdirən bənzərsiz bir sintez təşkil edir. Azad, demokratik və şəffaf seçkilərdə xalqın verdiyi səslər hüquqi müstəvini, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik məktəbinin varisliyi tarixi kökləri, böhran idarəçiliyi, misilsiz qətiyyət və xalqa verilən vədlərin tam icrası isə xarizmatik legitimliyi tarixin heç bir dövründə heç bir liderə müyəssər olmadığı qədər mütləq şəkildə təmin edir", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, dövlət başçısının öz gücünü birbaşa xalqdan alması, xalqın iradəsini beynəlxalq tribunalarda ən yüksək səviyyədə ifadə etməsi hüquqi dövlətin dialektik vəhdətini yaradır. Hüquqi baxımdan etimad və dəstək göstəricilərinin bu qədər yüksək olması cəmiyyətdə dövlət təsisatlarına və şəxsən liderə qarşı heç bir yadlaşmanın olmadığının sübutudur. Bu, xalqla hakimiyyət arasında ictimai müqavilənin ən yüksək konsensus mərhələsidir. Aydındır ki, Prezident İlham Əliyevin xarici və daxili siyasət kursunun əsasını milli maraqların qorunması təşkil edir. Müasir beynəlxalq münasibətlər sisteminin iflic olduğu, güc amilinin ön plana çıxdığı indiki dövrdə tam müstəqil siyasət yürütmək böyük cəsarət, dərin strateji zəka və sarsılmaz iradə tələb edir.



Azərbaycanın xarici siyasəti heç bir güc mərkəzinin diktəsini qəbul etməyən, tamamilə bərabərhüquqlu tərəfdaşlığa və milli təhlükəsizliyin təmin edilməsinə yönəlmiş bir xətt üzrə inkişaf edir. Bu barədə danışan B.Məhərrəmov deyib ki, Prezident İlham Əliyev beynəlxalq münasibətlər sistemində prinsipial və qətiyyətli lider kimi tanınır: "Qoşulmama Hərəkatına uğurlu sədrlik dövründə Azərbaycanın neokolonializmə qarşı apardığı qlobal mübarizə, kiçik ada dövlətlərinin hüquqlarının müdafiəsi ölkəmizi qlobal ədalətin səsinə çevirib. Hüquqi diplomatiya müstəvisində Prezident İlham Əliyev hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə istinad edib. Lakin digər tərəfdən, beynəlxalq təşkilatların və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin ikili standartlar ucbatından kağız üzərində qaldığını görən cənab İlham Əliyev real siyasət kontekstində güclü dövlət və güclü ordu konsepsiyasını reallaşdırdı. Dövlət başçısının özünün də qeyd etdiyi kimi, "biz beynəlxalq hüququ bərpa etdik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini özümüz icra etdik". Bu yanaşma beynəlxalq hüquq presedentləri tarixində qızıl hərflərlə yazılmış yeni bir səhifədir. Aydındır ki, siyasi müstəqilliyin fundamental əsasını iqtisadi müstəqillik təşkil edir. Xarici yardımlardan, beynəlxalq maliyyə institutlarının diktə etdiyi şərtlərdən asılı olan dövlətlərin suverenliyi həmişə manipulyasiyaya açıq olur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların əsas hədəfi Azərbaycanı özü-özünü tam təmin edən qüdrətli dövlətə çevirmək idi və bu hədəfə tam nail olundu. Milli iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişafı, nəqliyyat-logistika layihələrinin, o cümlədən "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin reallaşdırılması Azərbaycanı Avrasiyanın mühüm tranzit və geosiyasi qovşağına çevirməklə ümumi iqtisadi tendensiyanı birmənalı şəkildə lehimizə dəyişən konfiqurasiya formalaşdırdı".

Deputat bildirib ki, Prezident İlham Əliyevin qətiyyəti ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və nəhayət, "Cənub qaz dəhlizi" kimi meqalayihələr təkcə Azərbaycanın deyil, bütövlükdə Avropanın enerji təhlükəsizliyinin təminatçısı rolunu oynayır: "Məhz bu iqtisadi güc dövlətə imkan verdi ki, tamamilə müstəqil xarici siyasət yürütsün, müasir, ən son texnologiyalarla təchiz olunmuş qüdrətli ordu quruculuğunu başa çatdırsın və işğaldan azad edilmiş ərazilərdə heç bir xarici maliyyə yardımı almadan, milyardlarla dollar dəyərində olan "Böyük qayıdış" proqramını öz daxili resursları hesabına icra etsin. Cəmiyyətin rəy sorğularında dövlət başçısının fəaliyyətinə verdiyi yüksək qiymətin arxasında həm də bu sosial-iqtisadi sabitlik, makroiqtisadi dayanıqlılıq və vətəndaşların rifahının qorunması faktoru dayanır".

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində 44 günlük Vətən müharibəsi və keçirilmiş antiterror əməliyyatları dövlət suverenliyimizin və ərazi bütövlüyümüzün, beləliklə də, milli qürurumuzun, hərbi qüdrətimizin və tarixi ədalətin tam bərqərar olduğu zirvə nöqtəsidir. B.Məhərrəmov bildirib ki, 30 ilə yaxın müddətdə beynəlxalq aktorlar münaqişəni dondurulmuş vəziyyətdə saxlamağa, Azərbaycan xalqını torpaqlarının itirilməsi reallığı ilə barışmağa çalışırdılar: "Lakin milli iradənin yeganə təmsilçisi və milli maraqların barışmaz müdafiəçisi olaraq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev sülhə və dialoqa inamını uzun müddət qorumaqla reallığı doğru qiymətləndirib həm hərbi, həm diplomatik, həm də informasiya cəbhəsində təkbaşına beynəlxalq erməni lobbisinə və onun arxasında duran qlobal güclərə qarşı mübarizə apardı. Xalqın mütləq əksəriyyətinin onu alternativsiz siyasi lider hesab etməsinin ən böyük səbəblərindən biri məhz onun bu titanik tarixi missiyanı uğurla tamamlaması, Şuşada, Xankəndidə, Xocalıda Azərbaycan bayrağını ucaltmasıdır".

Vətən müharibəsi dövründə İlham Əliyevin xarici media resurslarına verdiyi çoxsaylı müsahibələr isə bu mübarizənin vacib bir hissəsi, dünya informasiya məkanında Azərbaycanın haqq səsini yayan müstəqil və çox uğurlu bir diplomatik hücum taktikası kimi tarixə düşdü. B.Məhərrəmovun sözlərinə görə, beynəlxalq hüququ dərindən bilən, tarixi faktlara əsaslanan Lider qarşısındakı qərəzli jurnalistləri və siyasətçiləri arqumentlərlə tərk-silah etdi: "Bu, hüquqi təfəkkürün və milli zəkanın informasiya müharibəsindəki parlaq qələbəsi idi. Həmin zəfərlə 30 illik işğala son qoyuldu, bir milyondan çox qaçqın və məcburi köçkünün fundamental hüquqları bərpa edildi və Cənubi Qafqazda güc balansı Azərbaycanın xeyrinə dəyişdi. Prezident İlham Əliyevin qətiyyəti ilə Bakı məğlub subyektdən qlobal səviyyədə söz sahibi olan regional gücə çevrildi. Nəticə etibarilə bu gün Azərbaycan təkcə Cənubi Qafqazın yalnız şəksiz və mütləq lideri deyil, eyni zamanda qlobal miqyasda qərarların qəbul edilməsinə təsir göstərən strateji subyektdir. Bu mənada ölkəmizin evsahibliyi etdiyi irimiqyaslı beynəlxalq tədbirlər, humanitar forumlar və ən əsası qlobal iqlim diplomatiyasının zirvəsi olan mötəbər beynəlxalq konfransların Azərbaycanda keçirilməsi məhz qeyd edilən uğur və zəfərlər fonunda cənab İlham Əliyev şəxsiyyətinə və onun apardığı "yaşıl enerji", qlobal həmrəylik siyasətinə dünya birliyinin etimadının göstəricisidir".

B.Məhərrəmov vurğulayıb ki, çoxşaxəli fəaliyyəti təhlil edilərkən Prezident İlham Əliyevin nəhəng dövlətçilik strategiyasının şah əsəri və müasir urbanistika tarixinə qızıl hərflərlə yazılmış bəşəri miqyaslı bir missiyalarından biri olan "Böyük qayıdış" proqramından danışmamaq mümkün deyil: "Dövlət başçısının qətiyyəti sayəsində tamamilə daxili resurslar hesabına icra edilən bu nəhəng layihə otuz ilə yaxın müddətdə fundamental hüquqlarından məhrum edilmiş bir milyondan çox insanın öz doğma yurduna təhlükəsiz və ləyaqətli dönüşünü təmin edir. İşğaldan azad edilmiş ərazilərdə tətbiq olunan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, eləcə də sıfır emissiyalı "yaşıl enerji" zonalarının yaradılması qlobal iqlim dəyişikliyi ilə mübarizəyə statuslu bir töhfədir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə tam səsləşən bu proses minalanmış ərazilərin sürətli bərpası və yenidən qurulması baxımından dünya hərb və mülki idarəçilik tarixində analoqu olmayan sülh quruculuğu modelidir. Azərbaycan xalqı da dövlətin bu titanik quruculuq missiyasını, yurd həsrətinə son qoyan milli dirçəliş hərəkatını sonsuz minnətdarlıq hissi ilə izləyir və ən yüksək səviyyədə qiymətləndirir. Unutmamalıyıq ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun yenidən sözün əsl mənasında var edilməsi təkcə regional sabitliyin bərqərar olması deyil, həm də qlobal miqyasda xalq-iqtidar birliyinin və tarixi ədalətin təntənəsidir. Nəticə etibarilə "Böyük qayıdış" sadəcə, bir köç prosesi deyil, dağıdılmış şəhərlərin küllərindən xalqın monolit dəstəyi ilə yeni və modern bir sivilizasiya mərkəzi ucaldan bəşəri dirçəliş manifestidir".

Sorğuda iştirak edənlərin mütləq əksəriyyətinin İlham Əliyevi alternativsiz lider olaraq görməsi də cəmiyyətin məhz populist vədlərə deyil, real nəticələrə, tarixi xidmətlərə və gələcəyə yönəlmiş aydın baxışa səs verdiyini göstərir. Deputat bildirib ki, bu alternativsizlik siyasi rəqabətin yoxluğundan deyil, Prezident İlham Əliyevin ortaya qoyduğu miqyasın, xalq qarşısındakı tarixi xidmətlərinin və dövlətçilik dühasının əzəmətindən qaynaqlanır. Tarixin qanunauyğunluğudur ki, inkişaf, tərəqqi və rifah arzulayan xalqlar öz taleyüklü mərhələlərində yalnız və yalnız daxili və xarici təhdidləri neytrallaşdırmağı bacaran, milli ideyanı zəfərə daşıyan liderlərin ətrafında monolit şəkildə birləşməyə məhkumdurlar. Azərbaycan xalqı da öz Liderinin ətrafında məhz bu tarixi reallıqlar və faktlara əsaslanan inam fövqündə sıx birləşib. "Prezident İlham Əliyevin liderlik modeli - hüququn aliliyinə əsaslanan, güclü iqtisadiyyatla dəstəklənən, milli iradəyə güvənən və tarixi ədaləti zəfərlə taclandıran müasir dövlətçilik məktəbidir. Rəy sorğularının analitik mənzərəsi bir daha təsdiq edir ki, xalqımız səmimi şəkildə və haqlı olaraq öz Lideri ilə fəxr edir, onun daxili və xarici siyasətini tam dəstəkləyir. Çox sevindirici haldır ki, dəyişən tendensiyalar və mürəkkəbləşən qlobal gedişatda dövlətimizin parlaq gələcəyini istisnasız olaraq yalnız onun uzaqgörən rəhbərliyində görür. Çünki böyükdən uşağa bu bölgədə hər bir insana bəllidir ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji təməllər ölkəmizi qoruyub saxladı və gücləndirdisə, Prezident İlham Əliyevin dövlətçilik fəlsəfəsi bu təməlləri XXI əsrin ən qabaqcıl qlobal çağırışlarına uyğunlaşdıraraq respublikamızı postmünaqişə dövrünün və IV Sənaye İnqilabının yaratdığı tamamilə yeni bir inkişaf mərhələsinə daşıyıb. Müasir dünyada güc mərkəzlərinin amansız rəqabəti fonunda sabitlik adası kimi çıxış edən Azərbaycanın gələcək taleyi və davamlı tərəqqisi məhz bu və digər çoxsaylı amillər zəminində cənab İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə bilavasitə bağlıdır", - deyə o bildirib.

B.Məhərrəmovun sözlərinə görə, bu gün ölkəmizin uzunmüddətli inkişafının qarantı olmasını şərtləndirən ən mühüm amillərdən biri rəqəmsal transformasiyaya və intellektual kapitala qoyulan investisiyadır: "Dövlət başçısının yürütdüyü siyasət milli iqtisadiyyatı "innovasiya və bilik iqtisadiyyatı" modelinə keçirir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, idarəçilikdə rəqəmsallaşma və süni intellekt texnologiyalarının tətbiqi Azərbaycanı regional texnoloji mərkəzə çevirməklə, gələcək nəsillərin qlobal rəqabətə davamlılığını təmin edir. Eyni zamanda dünya iqtisadiyyatının istiqamətini dəyişdiyi bir dövrdə Azərbaycan planetar miqyasda alternativ və bərpaolunan enerji mərkəzlərindən biri kimi yenidən mövqeləndirilir. Xəzər dənizinin və işğaldan azad edilmiş ərazilərin nəhəng "yaşıl enerji" potensialının işə salınması, Avropaya yeni enerji dəhlizlərinin çəkilməsi ölkəmizin gələcək onilliklərdə də qlobal sistemin əvəzolunmaz tərəfdaşı olaraq qalacağını tam sığortalayır. Dövlətin gələcək dayanıqlığı həm də idarəetmə aparatının çevikliyi və kadr islahatları ilə birbaşa mütənasibdir. Prezidentin rəhbərliyi ilə həyata keçirilən institusional varislik siyasəti, gənc və peşəkar kadrların irəli çəkilməsi, meritokratiya və şəffaflıq prinsiplərinin hakim qılınması dövlət institutlarını hər cür daxili və xarici böhranlara qarşı hazırlıqlı edir. Üstəlik, "ASAN xidmət" kimi milli brendlərimizin dünyaya ixrac edilməsi və uğurlu humanitar diplomatiya ölkəmizin qlobal nüfuzunu qoruyan güclü bir "yumşaq güc" qalxanı formalaşdırıb".

B.Məhərrəmov vurğulayıb ki, Heydər Əliyev kursu Azərbaycan dövlətinin mövcudluğunun və xilasının fundamental düsturu idisə, İlham Əliyev strategiyası bu dövlətin gələcək əsrlərdə də rəqabətədavamlı, modern və sarsılmaz qalmasının əsas təminatıdır. Azərbaycan xalqının öz Liderinin ətrafında sıx birləşməsi və gələcəyə olan sarsılmaz inamı məhz bu praqmatik, uzaqgörən və hər bir vətəndaşın rifahına yönəlmiş təkamül fəlsəfəsinə söykənir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Dövləti gücləndirən, həyatı asanlaşdıran rəqəmsal idarəetmə modeli

**Tarix boyu dövlətlərin gücü hər dövrdə fərqli amillərlə müəyyənləşib. Bir zamanlar geniş ərazilər və təbii sərvətlər üstünlük hesab olunurdusa, sənaye inqilabı dövründə istehsal imkanları, XX əsrdə enerji resursları və hərbi potensial ön plana çıxdı. XXI əsrdə isə dünyanın inkişaf yönünü müəyyən edən əsas amil rəqəmsal texnologiyalar, məlumat (data), süni intellekt və innovasiya potensialıdır.**

Bu gün artıq dövlətlər arasında rəqabət iqtisadi göstəricilərlə yanaşı, həm də rəqəmsal idarəetmə, kibertəhlükəsizlik, süni intellektdən istifadə imkanları və vətəndaşa göstərilən elektron xidmətlərin keyfiyyəti üzərində qurulur. Məhz buna görə də dünyanın aparıcı dövlətləri rəqəmsal transformasiyanı ayrıca texnologiya layihəsi kimi deyil, milli inkişaf strategiyasının əsas sütunlarından biri kimi qəbul edirlər.

Ölkəmiz də bu qlobal prosesin fəal iştirakçılarındandır. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən islahatlar göstərir ki, dövlətimiz enerji resurslarına əsaslanan inkişaf modelini qorumaqla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, innovasiya, yüksək texnologiyalar və insan kapitalı üzərində formalaşan yeni inkişaf mərhələsinə keçidi də prioritet elan edib. Bunun nümunəsi kimi Rəqəmsal İnkişaf Şurasının iyunun 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən ilk iclası ölkəmizin rəqəmsal gələcəyinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. İclasda "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası, rəqəmsal inkişaf sahəsində qanunvericilik islahatları və təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər müzakirə olunub.

## Rəqəmsal inkişaf dövlət siyasətinin mərkəzindədir

Bir çox ölkədə rəqəmsallaşma ayrıca nazirliklərin və ya dövlət qurumlarının fəaliyyət istiqaməti kimi qəbul olunur. Azərbaycanda isə bu prosesin ən yüksək siyasi səviyyədə koordinasiya edilməsi, Rəqəmsal İnkişaf Şurasına ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etməsi göstərir ki, söhbət təkcə informasiya texnologiyalarının inkişafından yox, dövlət idarəçiliyinin bütövlükdə yeni mərhələyə keçidindən gedir.

İclas zamanı Mehriban xanım Əliyeva şuranın əsas prioritetlərinin dövlət idarəçiliyində rəqəmsallaşmanın sürətləndirilməsi, süni intellekt texnologiyalarının tətbiqi, kibertəhlükəsizliyin gücləndirilməsi, innovasiya ekosisteminin inkişafı, startapların dəstəklənməsi və investisiyaların təşviqi ilə bağlı olduğunu diqqətə çatdırdı. Eyni zamanda süni intellektdən istifadənin Azərbaycanın milli maraqlarına uyğun həyata keçirilməsinin vacibliyini xüsusi qeyd etdi. Bu da Azərbaycanın texnologiyaya məqsəddən çox güclü dövlət quruculuğunun və davamlı inkişafın mühüm aləti kimi yanaşdığını təsdiqləyir. "Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır", - deyə Birinci vitse-prezident Mehriban xanım Əliyeva çıxışında bildirib.

Azərbaycanda rəqəmsal transformasiya prosesi, əslində, yeni başlamayıb. Onun əsası illər əvvəl "ASAN xidmət" modeli ilə qoyulub. Həmin model dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin və məmnunluğun təmin edilməsində beynəlxalq nümunəyə çevrilib. İndi isə qarşıda daha böyük məqsəd dayanır. Əgər "ASAN xidmət" vətəndaşı dövlət xidmətinə yaxınlaşdırmışdısa, yeni mərhələdə dövlət xidmətlərinin özünün vətəndaşın bir toxunuş qədər yaxınlığına, mobil telefonuna qədər gəlməsi hədəflənir. Bu, sadəcə, elektron xidmətlərin sayının artırılması hesab edilməməlidir, məqsəd dövlətin iş prinsiplərini tamamilə dəyişməkdir. İclasda bildirilib ki, dövlət qurumları üzrə Yol xəritələrinin hazırlanması, Milli Məlumat Hövzəsinin yaradılması, dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası, "mygov" platformasının genişləndirilməsi, süni intellekt həllərinin tətbiqi və milli kibertəhlükəsizlik infrastrukturunun formalaşdırılması istiqamətində işlər davam edir. Eyni zamanda xüsusi vurğulanıb ki, "mygov" platformasından istifadənin sürətlə artdığı müşahidə olunur. Son üç ayda istifadəçi sayı 2,7 milyondan 3,5 milyona yüksələrək 30 faiz artıb.

Bu gün bir çox vətəndaşımız müxtəlif dövlət xidmətlərindən istifadə etmək üçün bir neçə mobil tətbiq yükləməli olur. Hər qurumun ayrıca portalı, ayrıca tətbiqi və ayrıca giriş sistemi mövcuddur. Bu isə həm vaxt itkisinə, həm də çətinliklərə səbəb olur. Yeni yanaşmaya əsasən, bütün dövlət xidmətləri vahid ekosistemdə birləşəcək. Vətəndaşlar üçün "mygov", sahibkarlar üçün isə "mygov Biznes" əsas rəqəmsal platformaya çevriləcək. Artıq "e-Sosial", "e-Təbib" və "e-Su" platformaya inteqrasiya olunub, digər tətbiqlərin də mərhələli şəkildə qoşulması nəzərdə tutulur. Bu dəyişiklik ilk baxışdan texniki mahiyyətdə görünə bilər. Əslində isə o, dövlət xidmətlərinin fəlsəfəsini dəyişir. Vətəndaş artıq hansı qurumun hansı xidməti göstərdiyini düşünməyəcək. O, sadəcə, ehtiyac duyduğu xidməti bir platformadan əldə edəcək. Dövlət lazımi məlumatı vətəndaşdan deyil, aidiyyəti qurumlardan istəyəcək.

İclasda səsləndirilən ən mühüm prinsiplərdən biri "Yalnız bir dəfə" yanaşmasıdır. Bu prinsipin də mahiyyəti sadədir: vətəndaş eyni sənədi müxtəlif dövlət qurumlarına dəfələrlə təqdim etməyəcək. Lazımi məlumatlar dövlət informasiya sistemləri arasında avtomatik mübadilə ediləcək. Belə bir yanaşma bürokratiyanın azalması, insan faktorunun minimuma enməsi və şəffaflığın artması deməkdir. Dövlət idarəçiliyində rəqəmsallaşmanın əsas üstünlüklərindən biri də məhz budur.

## Gələcəyin dövlət modeli

Azərbaycanda bu sahədə ən mühüm yeniliklərdən biri proaktiv xidmətlərin genişləndirilməsidir. Əgər əvvəl vətəndaş hansısa müvafiq xidmətlərdən istifadə üçün ayrı-ayrı dövlət qurumlarına müraciət edirdisə, gələcəkdə dövlət özü vətəndaşın hüququ yaranan kimi lazımi xidməti göstərəcək. Artıq yaşa görə əmək pensiyasının avtomatik təyin olunması bunun uğurlu nümunəsidir. Eyni yanaşmanın uşağın doğulmasına görə birdəfəlik müavinətə də tətbiq olunacağı, şəxsiyyət vəsiqəsinin, pasportun və sürücülük vəsiqəsinin müddəti başa çatmamış vətəndaşların avtomatik məlumatlandırılacağı, səfərbərlik üzrə tibbi müayinəyə çağırışların rəqəmsal formada həyata keçiriləcəyi gözlənilir. Müvafiq şəxslər dövlət informasiya sistemləri vasitəsilə vaxtında məlumatlandırılacaq, çağırış prosesi daha operativ və şəffaf şəkildə təşkil olunacaq. Bütün bunlar sənədlərin vaxtında yenilənməsini asanlaşdıracaq və əlavə inzibati çətinliklərin qarşısını alacaq. Beləliklə, dövlət yalnız müraciətlərə cavab verən institut deyil, vətəndaşın ehtiyacını əvvəlcədən müəyyən edən xidmət modelinə keçir.

İclasın xüsusi diqqəti çəkən mövzularından biri də süni intellekt oldu. Bu gün süni intellekt təkcə texnologiya şirkətlərinin deyil, ümumilikdə dövlətlərin strateji alətinə çevrilib. Dünyanın inkişaf etmiş ölkələri səhiyyədən vergi sisteminə, təhsildən nəqliyyata qədər bütün sahələrdə süni intellektdən istifadə edirlər. Azərbaycanda da bu istiqamətdə sistemli addımlar atılır. Dövlət informasiya sistemlərinin vahid məlumat hövzəsində birləşdirilməsi, analitik imkanların genişləndirilməsi və süni intellekt həllərinin tətbiqi məhz bu məqsədə xidmət edir. Burada ən vacib məqamsa texnologiyanın milli maraqlara xidmət etməsidir. Məhz buna görə də Rəqəmsal İnkişaf Şurası səviyyəsində süni intellektdən istifadənin strateji prinsipləri müəyyənləşdirilir və onların mərhələli icrasına başlanılır. Belə ki, 2026-cı il ərzində "mygov" platformasında 4, digər dövlət qurumlarında isə 9 süni intellekt həllinin həyata keçirilməsi planlıaşdırılır.

Müasir iqtisadiyyatda ən qiymətli resurs məlumatdır. Dövlət qurumlarında müxtəlif formatlarda saxlanılan məlumatların vahid platformada toplanması həm idarəetmənin səmərəliliyini artıracaq, həm də vətəndaşlara fərdiləşdirilmiş xidmətlərin göstərilməsinə imkan yaradacaq. Bu məqsədlə Milli Məlumat Hövzəsinin yaradılması istiqamətində işlər davam edir. Belə bir sistem gələcəkdə dövlətin daha düzgün qərarlar qəbul etməsinə, iqtisadi planlaşdırmanın dəqiqləşdirilməsinə və resurslardan maksimum səmərəli istifadəyə imkan verəcək.

İnsan kapitalı olmadan isə rəqəmsal gələcək mümkün deyil. Rəqəmsal iqtisadiyyatın əsas sərvəti məhz insanlardır. Bu baxımdan ölkəmizdə təhsil sisteminin rəqəmsallaşdırılması xüsusi əhəmiyyət daşıyır. "Rəqəmsal məktəb", elektron təhsil xidmətləri, "STEAM Azərbaycan" və "Rəqəmsal bacarıqlar" layihələri yeni nəslin texnologiya əsrinin tələblərinə uyğun hazırlanmasına xidmət edir. Bu gün məktəbdə proqramlaşdırmanı öyrənən şagird sabah süni intellekt sistemlərini hazırlayan mühəndis, yeni texnologiyalar yaradan alim və ya innovativ şirkətin təsisçisi ola bilər. Ona görə də təhsilin rəqəmsallaşdırılması iqtisadi inkişaf strategiyasının ayrılmaz hissəsidir.

Bir məqamı da nəzərə almaq lazımdır ki, rəqəmsal iqtisadiyyat yalnız texnologiya ilə inkişaf etmir. Bunun üçün müasir qanunvericilik bazası lazımdır. İclasda vurğulandığı kimi, hazırda ölkəmizdə innovasiyanı və rəqəmsal iqtisadiyyatı dəstəkləyən genişmiqyaslı qanunvericilik islahatları hazırlanır və bu islahatlar qabaqcıl beynəlxalq təcrübə əsasında formalaşdırılır. Bu, investorların, startapların və texnologiya şirkətlərinin fəaliyyəti üçün daha əlverişli hüquqi mühit yaradacaq.

## Azərbaycan regionun aparıcı rəqəmsal platformasına çevriləcək

Azərbaycan artıq enerji, logistika və nəqliyyat sahəsində regionun əsas mərkəzlərindən biridir. Qarşıdakı illərdə bu üstünlüklərə rəqəmsal iqtisadiyyatın əlavə olunması ölkənin geosiyasi və geoiqtisadi əhəmiyyətini daha da artıracaq.

Fiber-optik infrastrukturun genişlənməsi, beynəlxalq data marşrutları, rəqəmsal xidmətlərin inkişafı, innovasiya ekosisteminin gücləndirilməsi və süni intellekt həllərinin tətbiqi Azərbaycanı Cənubi Qafqazın aparıcı rəqəmsal platformasına çevirəcək. Bu baxımdan Rəqəmsal İnkişaf Şurasının Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən ilk iclası dövlətimizin gələcək inkişaf modelinin konturlarını müəyyənləşdirən mühüm siyasi hadisə kimi qiymətləndirilməlidir. Bu gün qəbul edilən qərarlar sabah vətəndaşın dövlət xidmətlərinə daha rahat çıxışını, sahibkarların işinin asanlaşmasını, təhsilin müasirləşməsini, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsini və dövlət idarəçiliyinin daha səmərəli olmasını təmin edəcək.

Azərbaycan rəqəmsallaşmanı texnoloji yenilikdən daha çox milli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi kimi görür. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurasının fəaliyyətinin və dövlət qurumlarının koordinasiyalı işinin nəticəsi olaraq ölkəmiz rəqəmsal transformasiya sahəsində yeni mərhələyə qədəm qoyur. Bu mərhələnin əsas məqsədi sadədir: vətəndaşa daha keyfiyyətli xidmət göstərən, çevik qərarlar qəbul edən, süni intellekt və müasir texnologiyaların imkanlarından səmərəli yararlanan, milli maraqlara söykənən müasir Azərbaycan dövlətini güclü və daha qüdrətli etmək!

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Avropa Komissiyası emosiyalar və saxta siyasi stereotiplərə deyil, strateji maraqlara üstünlük verir"

Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayenin Bakıya səfəri və Prezident İlham Əliyevlə keçirdiyi görüşlər son illər müəyyən enişli-yoxuşlu mərhələlərdən keçən Azərbaycan-Avropa İttifaqı münasibətlərinin mahiyyətini anlamaq baxımından mühüm siyasi və geosiyasi əhəmiyyətə malikdir. Bakıda səsləndirilən fikirlər göstərdi ki, Cənubi Qafqazda formalaşmış yeni reallıqlar artıq Brüsselin siyasi qərarlarına və strateji yanaşmalarına da təsir göstərməkdədir.

**Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ** qəzetimizə açıqlamasında deyib ki, müasir beynəlxalq münasibətlər sistemində bir sıra subyektiv və görüntü xarakterli ideoloji yanaşmaların yerini getdikcə daha çox soyuq və qarşılıqlı faydalı maraqların yer aldığı praqmatizm tutur: "Ukrayna müharibəsi, enerji təhlükəsizliyi böhranı, qlobal nəqliyyat marşrutlarının transformasiyası, Yaxın Şərqdə və Qırmızı dəniz hövzəsində yaranmış yeni risklər Avropa İttifaqını tərəfdaş seçimində daha realist davranmağa məcbur edir. Bu kontekstdə Azərbaycanın əhəmiyyəti yalnız enerji ixracatçısı kimi deyil, Avrasiya məkanının əsas geosiyasi və geoiqtisadi qovşaqlarından biri kimi daha aydın görünür".



Deputat qeyd edib ki, Bakıda keçirilən görüşlər və mətbuata verilən bəyanatlar da məhz bu reallığın təsdiqi kimi qiymətləndirilə bilər: "Məlumdur ki, son illər Avropa İttifaqının bəzi institutlarında Azərbaycana münasibətdə müşahidə olunan qərəzli yanaşmalar, Avropa Parlamentinin qəbul etdiyi ədalətsiz qətnamələr və Ermənistanın maraqlarını əsassız və birtərəfli qaydada müdafiə edən bəzi siyasi qrupların fəaliyyəti Bakı ilə Brüssel arasında ikincinin subyektiv mülahizələri diqqətə alması, həmçinin kənardan stimullaşdırılan qərəzli və yayındırıcı davranışlara lazımi reaksiyanın verilməməsi müəyyən etimad problemlərinin meydana gəlməsinə zəmin yaratmışdır. Lakin Ursula fon der Lyayenin səfəri göstərdi ki, Avropa Komissiyası emosiyalar və saxta siyasi stereotiplərə deyil, strateji maraqlara üstünlük verir. Bu isə ilk növbədə ittifaqın maraqlarına uyğun mövqe kimi dəyərləndirilə bilər".

E.Mirzəbəyli vurğulayıb ki, bu gün Avropa İttifaqı üçün Azərbaycan alternativ deyil, mühüm və əvəzolunmaz strateji tərəfdaşdır. "Əgər bir neçə il əvvəl Avropanın siyasi dairələrində Azərbaycanla münasibətlərə daha çox təzyiq və siyasi manipulyasiyalardan ibarət qondarma "dəyərlər diplomatiyası" prizmasından yanaşılırdısa, hazırda vəziyyət reallıq dəyişdiyindən fərqlidir. Reallıq isə ondan ibarətdir ki, enerji təhlükəsizliyindən tutmuş nəqliyyat-kommunikasiya marşrutlarına qədər bir çox istiqamət üzrə Avropanın Azərbaycanla əməkdaşlığa böyük ehtiyacı var. Azərbaycanın müstəqil, qarşılıqlı hörmətə, etimada və obyektiv qiymətləndirməyə söykənən siyasəti, əslində, strateji tərəfdaşlıq üçün ən doğru və proqnozlaşdırılan seçimdir. Prezident İlham Əliyevin mətbuata bəyanatı zamanı səsləndirdiyi fikirlər də məhz bu baxımdan xüsusi diqqət çəkir. Dövlətimizin başçısı Azərbaycanla Avropa Komissiyası arasında münasibətlərin qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslandığını vurğulamaqla yanaşı, əməkdaşlığın enerji sektorundan daha geniş sahələri əhatə etməsi də Azərbaycanın uzun illərdir müdafiə etdiyi siyasi xəttin davamıdır", - deyə o əlavə edib.

Deputat bildirib ki, Azərbaycan heç vaxt xarici siyasətində asılılıq münasibətlərini qəbul etməyib: "Rəsmi Bakı əməkdaşlığı diktə və təzyiq üzərində deyil, qarşılıqlı maraqlar üzərində qurmağa üstünlük verir. Məhz bu səbəbdən də Azərbaycanın beynəlxalq nüfuzu artdıqca onun tərəfdaşları ilə münasibətləri daha dayanıqlı xarakter alır".

Bakıda aparılan müzakirələrin mühüm istiqamətlərindən birinin enerji məsələsi olduğunu diqqətə çatdıran E.Mirzəbəyli əlavə edib ki, bu dəfə söhbət yalnız təbii qazdan getmirdi: "Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkə kimi öz mövqeyini möhkəmləndirib. "Cənub qaz dəhlizi" vasitəsilə Avropa bazarlarına çatdırılan Azərbaycan qazı bir çox dövlətin enerji balansında mühüm yer tutur. Lakin yeni mərhələdə əməkdaşlığın əsas istiqamətlərindən biri "yaşıl enerji" sahəsi olacaq. Xəzər dənizinin nəhəng külək enerjisi potensialı, Qara dəniz enerji kabeli layihəsi və gələcəkdə "yaşıl hidrogen" ixracı imkanları ölkəmizin enerji xəritəsindəki mövqeyini daha da gücləndirir. Bu baxımdan Ursula fon der Lyayenin Azərbaycanı regionun təmiz enerji mərkəzlərindən biri kimi qiymətləndirməsi təsadüfi deyil. Bu, Avropa İttifaqının uzunmüddətli enerji strategiyasında Azərbaycanın roluna verilən siyasi qiymətdir".

Deputat deyib ki, səfərin digər mühüm nəticəsi nəqliyyat və logistika məsələləri ilə bağlıdır: "Dünyada geosiyasi gərginliklərin artdığı, ənənəvi ticarət marşrutlarının müxtəlif risklərlə üzləşdiyi bir dövrdə Orta dəhlizin əhəmiyyəti sürətlə artır. Azərbaycan isə bu marşrutun əsas halqasıdır. Bu gün Azərbaycan təkcə tranzit imkanları təqdim edən ölkə deyil. Azərbaycan həm də Avropa ilə Asiyanı birləşdirən yeni geoiqtisadi arxitekturanın formalaşmasında aktiv iştirak edən və açar rola malik olan dövlətə çevrilib. Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin ərazisindən keçən yükdaşımaların həcmi bütün istiqamətlər üzrə artır. Bu isə Azərbaycanın nəqliyyat strategiyasının uğurunun göstəricisidir".

E.Mirzəbəyli Bakıda aparılan danışıqların mühüm aspektlərindən birinin də regional təhlükəsizlik və sülh gündəliyi ilə bağlı olduğunu söyləyib: "Diqqətçəkən məqamlardan biri Avropa Komissiyası prezidentinin çıxışında regional əməkdaşlıq, kommunikasiyaların açılması və davamlı sülh məsələlərinə xüsusi diqqət ayırmasıdır. Bu yanaşma Azərbaycanın uzun illərdir müdafiə etdiyi mövqeyə yaxındır. Çünki rəsmi Bakı hesab edir ki, Cənubi Qafqazın gələcəyi qarşıdurma, bloklaşma, süni maneələrlə deyil, əməkdaşlıq, inteqrasiya, açıq, şəffaf və dürüst kommunikasiyalarla qurulmalıdır. Əslində, Avropa İttifaqının da regiona münasibətində tədricən müşahidə olunan dəyişikliklər bu reallığın qəbul edilməsindən qaynaqlanır. Bugünkü Azərbaycan təkcə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş dövlət deyil, həm də regional təhlükəsizlik, enerji və nəqliyyat təhlükəsizliyi ilə bağlı proseslərin mühüm iştirakçısıdır. Avropa İttifaqı həm də bu səbəbdən Bakı ilə münasibətlərə daha strateji prizmadan yanaşmağa başlayır".

Deputat vurğulayıb ki, Ursula fon der Lyayenin Bakıya səfərinin mahiyyəti, verilən bəyanatlar, Azərbaycanın bölgədəki rolunun düzgün qiymətləndirilməsi Avropa İttifaqının Cənubi Qafqazın yeni reallıqlarını nəzərə almağa başladığını və regional liderlik rolunu praktik siyasətdə qəbul etdiyini göstərir. "Bu səfər göstərdi ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin gələcəyi qarşılıqlı maraqlar üzərində qurulacaq. Enerji, "yaşıl transformasiya", nəqliyyat-kommunikasiya layihələri, rəqəmsal bağlantılar və regional təhlükəsizlik məsələləri əməkdaşlığın əsas istiqamətlərini təşkil edəcək. Səfər sübuta yetirdi ki, bu gün Avropa İttifaqı Azərbaycanla münasibətlərə ehtiyac duyur. Azərbaycan isə bu münasibətləri öz milli maraqları, suverenliyi və müstəqil siyasəti əsasında formalaşdırır. Məhz buna görə də Ursula fon der Lyayenin Bakıya səfəri dəyişən geosiyasi balansın, formalaşan yeni tərəfdaşlıq modelinin və Azərbaycanın beynəlxalq sistemdə artan rolunun növbəti təsdiqi kimi qiymətləndirilə bilər", - deyə E.Mirzəbəyli əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycandan tranzit keçməklə Ermənistana növbəti tədarük həyata keçirilib

**İyulun 3-də Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə növbəti tədarük həyata keçirilib.**



AZƏRTAC xəbər verir ki, 14 vaqondan ibarət, çəkisi 976 ton olan buğda Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 35 min tondan çox taxıl, 8 min tona yaxın gübrə, 133 ton alüminium, 68 ton qarabaşaq və 414 ton antrasit göndərilib. Eyni zamanda indiyədək Azərbaycandan Ermənistana 14 min tondan çox dizel, 5 min tona yaxın Aİ-92 və Aİ-95 benzini ixrac olunub.

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin onlayn iclası keçirilib

**İyulun 3-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib. İclasda iki məsələ - "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirəyə təqdim edilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə komitənin sədri Musa Quliyev qanun layihələrinin mahiyyəti barədə danışıb. Bildirib ki, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanun layihəsi ölkəmizdə sığorta sisteminin daha da təkmilləşdirilməsinə xidmət edir. Layihədə təklif olunan dəyişikliklər əlilliyi olan şəxslərin, o cümlədən istehsalat təcrübəsi keçən tələbə və şagirdlərin, könüllü fəaliyyətlə məşğul olan könüllülərin, istehsalat zamanı hər hansı xəsarət hadisəsi baş verərsə, sığortasının müəyyənləşdirilməsi ilə əlaqədardır. Sənəddə həmçinin birdəfəlik sığorta ödənişinin sığorta hadisəsi nəticəsində zərərçəkmiş sığortaolunanın əlilliyinin müəyyən edilməsi ilə deyil, peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi ilə əlaqələndirilməsi təklif olunur.

"Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda nəzərdə tutulan dəyişikliklərin isə icbari tibbi sığortanın elektron hökumət çərçivəsində daha da təkmilləşdirilməsinə yönəldiyi söylənilib. Qeyd edilib ki, layihədə habelə əlilliyi olan şəxslərin reabilitasiya imkanlarının qiymətləndirilməsi ilə bağlı hüquqi tənzimləmə reabilitasiya xidmətlərinin göstərilməsi ilə bağlı məsələlər ehtiva olunur.

Sonra onlayn iclasda parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihələri barədə fikirlərini açıqlayıb. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunda nəzərdə tutulan dəyişikliklərlə bağlı bildirilib ki, sığorta hadisəsinə görə sığorta ödənişinin verilməsinin vahid meyar üzrə dəyərləndirilməsi məqsədilə birdəfəlik sığorta ödənişinin peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi ilə əlaqələndirilməsi təklif olunur. Bu dəyişikliyin Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyasının 4-cü maddəsinin tələblərinə uyğun olduğu qeyd edilib. Habelə diqqətə çatdırılıb ki, qanunda könüllü fəaliyyətin iştirakçısı olan könüllülərə, istehsalat təcrübəsi keçən tələbə və şagirdlərə münasibətdə sığorta haqqının ödənilməsi mexanizmi müəyyən edilir. Qeyd olunub ki, layihədə sığorta ödənişinin həddinin tənzimlənməsi ilə bağlı təklif olunan dəyişiklik isə risklərin həcmini, həmçinin sığortaçının məsuliyyət dairəsini müəyyənləşdirməyə imkan yaradacaq.

Bildirilib ki, "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi Prezidentin 2026-cı il 19 mart tarixli "Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" fərmanının icrası məqsədilə hazırlanıb. Sənəddə icbari tibbi sığorta fondu anlayışının əlavə edilməsi, icbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsinin hüquqi əsaslarının müəyyən edilməsi təklif olunur. Eyni zamanda sığortaolunanlara ambulator şəraitdə istifadə olunan dərman vasitələrinin aptek təşkilatları tərəfindən elektron resept əsasında buraxılması, icbari tibbi sığorta şəhadətnaməsinin elektron formada həmin informasiya sistemində yaradılması nəzərdə tutulur. Layihədə habelə əlilliyi olan şəxslərin reabilitasiya imkanlarının qiymətləndirilməsi ilə bağlı dəyişikliklər də öz əksini tapıb.

Məsələlər ətrafında aparılan müzakirələrdə komitənin üzvləri Vüqar Bayramov, Soltan Məmmədov, Jalə Əliyeva, Sevinc Hüseynova, Nigar Məmmədova, Göydəniz Qəhrəmanov çıxış edərək öz qeyd və təkliflərini bildiriblər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri Elnur Abbasov, Hüquq şöbəsinin müdiri Gülnar İsgəndərova qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin yekununda hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin iclasında baxılmaq üçün tövsiyə olunub.

Onlayn iclasda komitənin sədr müavini Elşad Musayev, üzvləri Bədəl Bədəlov, Əziz Ələkbərov, Səttar Möhbalıyev, Ziyad Səmədzadə və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# BTC-nin tarixində növbəti mühüm hadisə

## Kəmərin operatorluğunun SOCAR-a ötürülməsi bu şirkətin dünya səviyyəli enerji infrastrukturunun idarə edilməsində artan təcrübəsini əks etdirir

**Bir neçə gündən sonra Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin tam sistem kimi işə salınmasının 20 ili tamam olacaq. Təkcə ötən iki onillikdə deyil, ümumiyyətlə, çəkilişinə aid həlledici sənədlərin imzalandığı 1998-1999-cu illərdən üzü bəri bu qlobal layihənin salnaməsində yaddaqalan bir çox mühüm hadisə baş verib.**



Belə hadisələrdən biri də bu günlərdə baş verib. Belə ki, kəmərin operatorluğu BP şirkətindən SOCAR-a məxsus törəmə müəssisə olan "SOCAR Midstream Operations" MMC-yə (SMO) keçib. Operatorluğun ötürülməsi BTC-nin hər üç hissəsini - Azərbaycan, Gürcüstan və Türkiyə hissələrini əhatə edir. Bundan əlavə, BTC ilə bağlı bütün fəaliyyətlərin idarə edilməsi, habelə həm BTC, həm də Cənubi Qafqaz Boru Kəməri (CQBK) sistemləri ilə əlaqədar hazırda BP tərəfindən icra olunan ümumi fəaliyyətlərin operatorluğu da SMO şirkətinə keçir. Operatorluğun ötürülməsi BTC layihəsinin əsasını təşkil edən və yekun hazırlıq qərarının bir hissəsi kimi qəbul olunmuş müvafiq sazişlərə əsaslanır.

Ötürülmə Səngəçal terminalının ərazisində yerləşən obyektlər istisna olmaqla hər üç ölkədəki bütün ayrıca BTC obyektlərini və fəaliyyətləri, eləcə də BTC-yə və CQBK-ya aid ümumi fəaliyyətləri əhatə edir. Bununla belə Səngəçal terminalının operatorluğu dəyişməz qalır. Bu obyektin operatorluğunu yenə də BP icra edəcək. BTC Co. şirkətinin səhmdarlıq strukturu da dəyişməyib. Onu da bildirək ki, BP şirkəti "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının, eləcə də Xəzər dənizindəki digər apstrim layihələrinin, o cümlədən "Qarabağ" yatağının işlənməsi, "Əşrəfi-Dan Ulduzu-Aypara" və "Şəfəq-Asiman" geoloji kəşfiyyat layihələrinin operatoru olaraq qalır.

BTC-nin tarixindəki növbəti yeniliklə bağlı BP-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli belə deyib: "Elan etdiyimiz mərhələ BTC layihəsi üçün əlamətdar bir hadisədir. Çox qürurluyuq ki, BTC-nin operatoru kimi onun uzun illərdir davam edən təhlükəsiz, etibarlı və yüksək səmərəli fəaliyyətinin icraçısı olmuşuq. İstər üç ildən artıq bir müddətdə boru kəmərinin üç tranzit ölkə ərazisində görünməmiş bir miqyasda və texniki baxımdan son dərəcə mürəkkəb tikinti prosesinə rəhbərlik etməyimiz olsun, istərsə də ondan sonrakı 20 ildən artıq bir müddətdə kəmərin səmərəli və təhlükəsiz istismarını təmin etməyimiz olsun. Bütün bu müddət ərzində BTC dünya bazarlarına etibarlı neft ixracı yolu kimi enerji təhlükəsizliyini gücləndirib".

BP-nin regional prezidenti əmin olduğunu bildirib ki, SOCAR da BTC əməliyyatlarının təhlükəsiz, etibarlı və mükəmməl icrasını davam etdirərək eyni dərəcədə yüksək standartları qoruyub saxlayacaq: "Biz də BTC və CQBK layihələrinin səhmdarı kimi SOCAR və digər tərəfdaşlarımızla sıx və uzunmüddətli tərəfdaşlığımızı davam etdirəcəyik. Həmçinin BTC sisteminin BP tərəfindən idarə olunduğu müddət ərzində göstərdikləri davamlı dəstək, əməkdaşlıq və etimada görə BTC Co. İdarə Heyətinə və bütün tərəfdaşlarımıza təşəkkürümüzü bildiririk".

SOCAR-ın prezidenti Rövşən Nəcəf də sözügedən hadisə ilə bağlı fikirlərini bölüşüb: "Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycanın uzaqgörən enerji strategiyasının, möhkəm beynəlxalq tərəfdaşlıqların və uzunmüddətli əməkdaşlıq öhdəliyinə birgə sadiqliyinin davamlı göstəricisidir. Ötən iyirmi il ərzində BTC Azərbaycanın davamlı inkişafına mühüm töhfə vermiş, regional əməkdaşlığı gücləndirmiş və qlobal enerji təhlükəsizliyini artırmışdır. BTC-nin operatorluğunun BTC və CQBK sistemlərinin ümumi operatorluğu ilə birgə SOCAR-a ötürülməsi şirkətin dünya səviyyəli enerji infrastrukturunun idarə edilməsində artan təcrübəsini əks etdirən mühüm bir mərhələdir. SOCAR bu strateji enerji dəhlizinin təhlükəsiz, etibarlı və səmərəli fəaliyyətini təmin etmək öhdəliyinə tam sadiq qalaraq onun regional və qlobal enerji təhlükəsizliyinə töhfəsini daha da gücləndirəcək".

Xatırladaq ki, bu il iyunun 8-dən müvafiq sazişlərə uyğun şəkildə Qərb İxrac Boru Kəmərinin (QİBK) Azərbaycan və Gürcüstan ərazilərindəki obyektləri müvafiq olaraq Azərbaycan (SMO) və Gürcüstan (Gürcüstan Neft və Qaz Korporasiyası - GOGC) hökumətləri adından çıxış edən qurumlara geri təhvil verilmişdir.

"SOCAR Midstream Gas Operations" MMC (SOCAR MGO) 2015-ci ildən CQBK-nın kommersiya operatoru, 2021-ci ildən isə texniki operatorudur. Bu müddət ərzində BTC və CQBK üzrə ümumi fəaliyyətlərin idarə edilməsi SOCAR və BP arasında möhkəm əməkdaşlığa söykənib. Bu iki şirkət sıx işləyərək operatorluğun ötürülməsinin əhatə etdiyi bütün obyektlərin və əlaqədar fəaliyyətlərin təhlükəsiz və nizamlı şəkildə ötürülməsini, bu müddət ərzində boru kəməri əməliyyatlarının etibarlı və fasiləsiz davamını təmin etmişdir.

Onu da deyək ki, hazırda BTC əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur. İndiyədək bu boru kəməri ilə ümumilikdə 4,7 milyard bareldən çox (təxminən 630 milyon ton) xam neft nəql edilib, 6271 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# NATO-nun Ankara sammitindən nələr gözlənilir

**Qlobal geosiyasi nizam son onilliklərin ən dinamik və həlledici transformasiya dövrünü yaşayır. Bu transformasiyanın ən mühüm dayanacağı isə yaxın günlərdə - iyulun 7-8-də Ankarada reallaşacaq NATO sammiti olacaq.**



Keçən il Haaqada qəbul olunan tarixi qərarlar bu sammitdə həyata keçiriləcək. Bununla da hərbi və siyasi aləmdə "NATO 3.0" adlandırılan tamamilə yeni bir dövr başlayır. Masa üzərindəki genişmiqyaslı mövzular Ukraynaya davamlı dəstəkdən tutmuş Avropanın müdafiə sənayesinin gücləndirilməsinə və yeni maliyyə sistemlərinin qurulmasına qədər böyük bir sahəni əhatə edir.

Ankara sammiti Türkiyə üçün də rəmzi və tarixi əhəmiyyət kəsb edir. Bu, 2004-cü ildə keçirilən və Alyansın qlobal böhranların idarə edilməsi modelinə ("NATO 2.0") keçidini rəsmiləşdirən İstanbul sammitindən tam 22 il sonra ölkədə keçirilən ikinci ən böyük NATO tədbiridir. Əgər İstanbulda diqqət mərkəzində Əfqanıstan və İraq missiyaları, eləcə də Yaxın Şərqlə tərəfdaşlıq idisə, Ankara tamamilə yeni reallıqların - Rusiya-Ukrayna münaqişəsinin, Çinin hərbi yüksəlişinin, kiberhücumların və hibrid təhdidlərin doğurduğu çağırışların müzakirə platforması olacaq.

Bu təkamülün ana xəttini, yəni "NATO 3.0"-a keçidi şərtləndirən əsas amil isə transatlantik yük bölgüsünün kökündən dəyişməsidir. Donald Trampın yenidən ABŞ Prezidenti seçilməsindən sonra Vaşinqtonun Avropanın müdafiə xərclərinə dair tələbləri daha da sərtləşib. ABŞ öz strateji resurslarını Asiya-Sakit okean bölgəsinə yönəltməyə və Çinə qarşı durmağa fokuslandığı üçün Avropa artıq öz təhlükəsizliyinin əsas maliyyə yükünü öz üzərinə götürməlidir. Haaqa Zirvə görüşündə qəbul edilmiş və üzv dövlətlərin 2035-ci ilə qədər hərbi xərclərini ÜDM-in 5 faizinə çatdırmağı hədəfləyən yol xəritəsi məhz bu məcburiyyətin nəticəsidir.

Ev sahibi qismində çıxış edən Türkiyə sammitin gündəliyinə həm regional, həm də qlobal təhlükəsizlik prizmasından yanaşır. İstanbulda başa çatan NATO Parlament Zirvə görüşündə Prezident Rəcəb Tayyib Ərdoğanın vurğuladığı "hərtərəfli yanaşma" prinsipi Ankaranın bu sammitdəki əsas kompası olacaq. Türkiyə İran, Fars körfəzi və Fələstindəki prosesləri diqqətdə saxlamaqla yanaşı, Pakistan və Qətərlə birgə ABŞ və İran arasında davamlı atəşkəsin təmin olunması istiqamətində diplomatik səylərini davam etdirir.

Lakin Ankaranın müttəfiqlərindən gözləntiləri də az deyil. Türkiyə terrorizmlə mübarizədə konkret dəstək istəyir və müttəfiqləri tərəfindən tətbiq olunan silah qadağaları ilə ixrac məhdudiyyətlərinin tamamilə aradan qaldırılmasını israrla müdafiə edir. Prezident R.T.Ərdoğanın da qeyd etdiyi kimi, çətinliklərə qalib gəlmək üçün müttəfiqlər həm xərcləri ədalətli bölüşməli, həm də hərbi ticarətdəki maneələri aradan qaldırmalıdırlar.

Ankara sammitini digərlərindən fərqləndirəcək ən böyük sürprizlərdən biri isə okeanın o tayından - Kanadadan gəlir. Baş nazir Mark Karninin təşəbbüsü ilə Kanada sammitdə yeni "Müdafiə, Təhlükəsizlik və Dayanıqlılıq Bankı"nın yaradılmasını elan etməyə hazırlaşır. Ankarada bu layihəyə qoşulacaq ilkin 10 ölkənin adı məlum olacaq.

Təxminən 100 milyard funt-sterlinq (133 milyard dollar) həcmində maliyyə vəsaiti toplamağı hədəfləyən bu bank ABŞ-nin rəhbərlik etdiyi ənənəvi dünya nizamının zəiflədiyi bir vaxtda "orta güclər"in özünümüdafiə ittifaqı kimi qiymətləndirilir. Bankın Avropa bazasına Lüksemburq evsahibliyi edəcək. Türkiyə, İtaliya, İspaniya, Belçika və Ukrayna bu təklifi ciddi nəzərdən keçirir, Almaniya isə prosesi müşahidəçi qismində izləyir. Layihə artıq "JPMorgan", "Deutsche Bank" və "RBC" kimi qlobal maliyyə nəhənglərinin dəstəyini qazanıb. Maraqlıdır ki, Böyük Britaniya, Niderland və Finlandiya bu təşəbbüsə qoşulmaqdansa, öz birgə layihələrini inkişaf etdirməyə üstünlük verirlər ki, bu da Avropa daxilində fərqli maliyyə axtarışlarının göstəricisidir.

Göründüyü kimi, NATO-nun Ankara sammiti, sadəcə, hərbi strategiyaların müzakirə edildiyi bir tədbir olmayacaq, o həm də müdafiə sənayesində ticarət maneələrini aradan qaldırmaq istəyən Türkiyənin, yeni qlobal maliyyə sistemi təklif edən Kanadanın və öz taleyini özü həll etməyə çalışan Avropanın ortaq gələcək axtarışı olacaq. NATO-nun Ankara sammitində qəbul ediləcək tarixi qərarlar həm Alyansın daxili strukturunu, həm də gələcək onilliklərdə qlobal təhlükəsizlik xəritəsini yenidən cızacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Orta dəhlizə yalnız iqtisadi dividend gətirən deyil, həm də siyasi zəmanət qazandıran layihə kimi yanaşmaq lazımdır

**"Azərbaycanın tranzit imkanları Orta dəhlizə yalnız iqtisadi dividend gətirən deyil, həm də siyasi zəmanət qazandıran layihə kimi yanaşmağı tələb edir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Çin Tədqiqatçıları Assosiasiyasının sədri, qazaxıstanlı politoloq Kazbek Maigeldinov deyib.

O bildirib ki, Çin iqtisadiyyatının inkişafı müxtəlif sahələrdə istehsalın həddən artıq artımı ilə müşahidə olunur. Bu səbəbdən də Çinin olduqca böyük ixrac potensialı yaranıb. Çinin illik ixrac həcmi təxminən 3,77 trilyon ABŞ dolları təşkil edir. Qlobal ticarət profisiti 1,19 trilyon dollara çatan ölkə elektrik avtomobilləri, texnologiya, "yaşıl enerji" komponentləri, minerallar və istehlak malları başda olmaqla dünyanın ən nəhəng istehsal və ixrac gücünə sahibdir. Bunun üçün isə Çinə dünyanın müxtəlif regionlarına o cümlədən Avropa istiqamətində nəqliyyat dəhlizlərinin açılması olduqca zəruridir. Bu baxımdan Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Çin üçün həyati əhəmiyyət daşıyan bir marşrutdur: "Çinin müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın nəqliyyat infrastrukturuna sərmayə yatırması təsadüfi xarakter daşımır. Çin Orta dəhlizə Avropaya yüklərin təkcə tez çatdırılması üçün yol kimi deyil, eyni zamanda strateji xüsusiyyətə malik olan tranzit marşrutu kimi baxır. Şimalda və Cənubda baş verən hərbi münaqişələr Çin üçün Orta dəhlizi mühüm nəqliyyat marşrutuna çevirib. İlk növbədə Çindən Avropaya uzanan Orta dəhliz Qazaxıstan və Azərbaycandan keçir. Hər iki dövlət dinamik inkişaf edərək dünya trendindən nəinki geridə qalmırlar, əksinə, bir çox sahədə üstələyirlər".

Politoloq deyib ki, Azərbaycan tranzit ölkə olaraq üzərinə düşən bütün öhdəlikləri yüksək səviyyədə yerinə yetirib. Bakı limanının yükaşırma imkanının artırılmasından başlayaraq. Avtomobil və dəmir yollarını yenidən qurub. Ən başlıcası isə Azərbaycan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunu modernləşdirib. 2024-cü ildə Orta dəhlizin mühüm seqmentlərindən olan BTQ-nin imkanlarının artırılması məqsədilə xəttin Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsində modernləşdirmə işləri aparılıb. Görülmüş işlər nəticəsində BTQ-nin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb və Çin ilə Mərkəzi Asiyadan Avropaya doğru daha funksional quru marşrutlardan birinə çevrilib.

"Qazaxıstana gəldikdə isə demək lazımdır ki, ölkənin illik ixrac potensialı təxminən 79-81 milyard ABŞ dolları həcmində qiymətləndirilir. İxracın 50 faizdən çoxunu xam neft və neft məhsulları təşkil edir. Qazaxıstanın ixrac potensialının əsas komponentlərini radioaktiv kimyəvi elementlər (uran), emal edilmiş mis, mis filizi və ferroərintilər təşkil edir. Aqrar sektorun ixrac gəlirləri isə 7 milyard dollara çatıb. Ölkə taxıl ixracını son 10 ilin rekordunu qıraraq 11 milyon tona çatdırıb. Qazaxıstanın əsas ticarət tərəfdaşları İtaliya, Türkiyə, Niderlandır ki, bu ölkələrlə ticarət əlaqəsi yalnız Orta dəhlizlə mümkündür", - deyə o əlavə edib.

Kazbek Maigeldinov vurğulayıb ki, hər iki ölkənin ixrac potensialı və Azərbaycanın tranzit imkanları Orta dəhlizə yalnız iqtisadi dividend gətirən deyil, həm də siyasi zəmanət qazandıran layihə kimi yanaşmağı tələb edir. Azərbaycan Prezidenti İlham Əliyevin regionda sülhün əsasını yaradaraq Mərkəzi Asiya respublikaları ilə sıx iqtisadi əməkdaşlıq əlaqələrini genişləndirərək strateji müttəfiqlik səviyyəsinə çatdırıb. Regionda sabitliyin bərpası nə Çinin, nə də Avropanın nəzərindən qaçmır və qlobal siyasətdə fəal olan bu güc mərkəzləri dəhliz üzərindəki dövlətlərə obyektiv dəstək verəcəklər ki, bu, onların həm də siyasi qüvvəsini artıracaq.

# UNEC Zaqatala filialı: 10 il regionun inkişafına xidmət edən ali təhsil ocağı

**Azərbaycanın dayanıqlı inkişaf strategiyasında insan kapitalının formalaşdırılması əsas prioritetlərdən biridir. Müasir dünyada dövlətlərin iqtisadi gücü artıq təkcə təbii sərvətlərlə deyil, ilk növbədə keyfiyyətli təhsil, elmi potensial, innovasiya imkanları və rəqabətqabiliyyətli insan resursları ilə müəyyən edilir. Məhz buna görə də son illər ölkəmizdə təhsil sisteminin müasirləşdirilməsi, ali təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və regionlarda güclü universitet mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən islahatlar Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrilmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətində regionların davamlı inkişafı xüsusi yer tutur. Bu siyasətin əsas istiqamətlərindən biri regionlarda ali təhsil imkanlarının genişləndirilməsi, gənclərə yaşadıqları ərazilərdə keyfiyyətli ali təhsil almaları üçün əlverişli şəraitin yaradılması, müasir əmək bazarının tələblərinə cavab verən peşəkar mütəxəssislərin hazırlanması və elmi potensialın regionlarda cəmləşdirilməsidir. Çünki güclü universitet yalnız təhsil verən müəssisə deyil, həm də regionun iqtisadi, sosial və intellektual inkişafının aparıcı qüvvəsidir.

Azərbaycan Dövlət İqtisad Universiteti olaraq biz də bu dövlət siyasətinin həyata keçirilməsinə öz töhfəmizi verməyə çalışırıq. Son illər UNEC yalnız paytaxt universiteti kimi deyil, ölkənin bütün regionlarını əhatə edən milli ali təhsil brendi kimi inkişaf etmişdir. Universitetimizin əsas məqsədlərindən biri keyfiyyətli ali təhsili regionlara daşımaq, gənclərə yaşadıqları bölgələrdə beynəlxalq standartlara uyğun təhsil almaq imkanı yaratmaq və regionların inkişafına xidmət edən insan kapitalı formalaşdırmaqdır.

Bu baxımdan UNEC Zaqatala filialının yaradılması strateji əhəmiyyət daşıyan qərarlardan biri olmuşdur. Filial fəaliyyət göstərdiyi 10 il ərzində sübut edib ki, region universiteti anlayışı yalnız coğrafi məkan deyil. Düzgün idarəetmə, müasir təhsil texnologiyaları, peşəkar müəllim heyəti, güclü infrastruktur və beynəlxalq əməkdaşlıq sayəsində region universiteti də ölkənin qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilə bilər.

2026-cı ildə UNEC Zaqatala filialının fəaliyyətə başlamasının 10 ili tamam olur. 10 il tarix baxımından böyük görünməsə də, universitet həyatında bütöv bir inkişaf mərhələsini ifadə edir. Bu müddət ərzində filial təkcə yeni auditoriyalar, laboratoriyalar və müasir binalar qazanmamışdır. Ən böyük uğur region gənclərinin etimadını qazanmaq, keyfiyyətli təhsil mühiti formalaşdırmaq, əmək bazarının ehtiyaclarına uyğun mütəxəssislər yetişdirmək və bölgədə elm, innovasiya və inkişaf mərkəzinə çevrilmək olmuşdur.

Əslində, UNEC Zaqatala filialının tarixi 2016-cı ildən başlamır. Bu ali təhsil müəssisəsinin arxasında bir əsrdən artıq dövrü əhatə edən zəngin təhsil ənənələri dayanır. 1920-ci ildə əsası qoyulan Pedaqoji Texnikum, sonrakı illərdə fəaliyyət göstərən Zaqatala Politexnik Texnikumu və daha sonra Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialı bölgədə ali və orta ixtisas təhsilinin inkişafında mühüm rol oynamışdır. Məhz bu tarixi irs 2016-cı ildə yeni mərhələyə qədəm qoyaraq UNEC ailəsinin ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Zaqatala filialının bazasında UNEC Zaqatala filialının yaradılması regionun ali təhsil tarixində yeni mərhələnin başlanğıcı oldu. Bu qərar yalnız universitetin adının dəyişdirilməsi deyil, bütövlükdə yeni inkişaf fəlsəfəsinin tətbiqi demək idi. Filialın qarşısında duran əsas məqsəd müasir iqtisadiyyatın tələblərinə uyğun mütəxəssis hazırlamaq, tədris prosesini beynəlxalq standartlara uyğun təşkil etmək, rəqəmsal universitet modelini tətbiq etmək və regionun sosial-iqtisadi inkişafına töhfə vermək idi.

Bu gün geriyə nəzər saldıqda görürük ki, qarşıya qoyulan məqsədlərin böyük hissəsi uğurla reallaşdırılmışdır. 10 ildə filial davamlı inkişaf yolu keçərək regionun ən nüfuzlu ali təhsil müəssisələrindən birinə çevrilmişdir. Qəbul göstəricilərində müşahidə olunan davamlı artım, təhsil proqramlarının genişlənməsi, beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafı, rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, elmi fəaliyyətin gücləndirilməsi və maddi-texniki bazanın müasirləşdirilməsi bu inkişafın ən mühüm göstəriciləridir.

Filialın fəaliyyətinin ilk ilində cəmi 113 tələbə qəbul olunmuşdu. Bu gün isə burada 1600-dən çox tələbə təhsil alır. Qəbul göstəricilərinin hər il artması bir daha təsdiq edir ki, region gəncləri keyfiyyətli ali təhsil üçün UNEC Zaqatala filialını etibarlı seçim hesab edirlər. Bu etimad bizim üçün həm böyük uğur, həm də daha yüksək məsuliyyət deməkdir.











UNEC-in inkişaf strategiyasında əsas məqsəd yalnız tələbə sayını artırmaq deyil. Bizim üçün əsas göstərici məzunlarımızın bilik və bacarıqları, onların əmək bazarında rəqabət qabiliyyəti, sahib olduqları müasir kompetensiyalar və cəmiyyətə verdikləri töhfədir. Çünki universitetin həqiqi uğuru auditoriyalarda deyil, onun məzunlarının fəaliyyətində ölçülür.

Bu baxımdan UNEC Zaqatala filialı ötən 10 ildə mühüm nəticələr əldə etmişdir. Filialın ilk məzunları artıq dövlət idarəçiliyində, bank sektorunda, biznes qurumlarında, turizm müəssisələrində, informasiya texnologiyaları sahəsində, təhsil sistemində və digər istiqamətlərdə uğurla çalışırlar. Onların peşəkar fəaliyyəti universitetdə verilən təhsilin keyfiyyətinin ən obyektiv göstəricilərindən biridir.

Bu gün UNEC Zaqatala filialı təkcə Zaqatalanın deyil, bütövlükdə Şimal-Qərb bölgəsinin ali təhsil mərkəzinə çevrilmişdir. Burada Zaqataladan savayı, Balakən, Qax, Şəki, Oğuz, Qəbələ, eləcə də Azərbaycanın digər şəhər və rayonlarından gələn gənclər təhsil alırlar. Son illərdə xarici tələbələrin də filiala maraq göstərməsi universitetin beynəlxalq nüfuzunun artmasının göstəricisidir.

Universitetlərin missiyası yalnız diplom verməklə məhdudlaşmır. Müasir universitet cəmiyyətin inkişafına istiqamət verən, innovasiyalar yaradan, yeni ideyalar formalaşdıran, sahibkarlığı təşviq edən və regionun sosial-iqtisadi inkişafına birbaşa təsir göstərən intellektual mərkəz olmalıdır. UNEC Zaqatala filialı da fəaliyyətini məhz bu fəlsəfə üzərində qurmuşdur.

Bu 10 ildə görülən işlər göstərir ki, düzgün müəyyən edilmiş inkişaf strategiyası, peşəkar idarəetmə, kollektivin fədakar əməyi və dövlətin ali təhsilə göstərdiyi diqqət nəticəsində region universiteti qısa müddətdə böyük uğurlar qazana bilər. Qarşıdakı illərdə isə əsas məqsəd bu nailiyyətləri qorumaqla yanaşı, filialı beynəlxalq təhsil məkanında daha tanınan, elmi fəaliyyəti daha güclü və innovasiya imkanları daha geniş olan ali təhsil müəssisəsinə çevirməkdir.

UNEC Zaqatala filialının ilk on ili artıq tarixdir. Qarşıdakı onillik isə yeni hədəflər, daha böyük layihələr və daha iddialı məqsədlər dövrü olacaq. İnanıram ki, bu inkişaf yolu universitetimizin bütün kollektivinin, tələbələrinin, məzunlarının və tərəfdaşlarının birgə səyi nəticəsində daha böyük uğurlarla davam edəcək.

Müasir universitetlərin inkişaf səviyyəsini müəyyən edən əsas amillərdən biri təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılmasıdır. Əmək bazarının dinamik dəyişdiyi şəraitdə universitetlər də çevik davranmalı, yeni ixtisaslar yaratmalı və mövcud proqramları müasir çağırışlara uyğun yeniləməlidirlər. UNEC Zaqatala filialı da bu istiqamətdə mühüm addımlar atmışdır.

Fəaliyyətə başladığı ilk illərdə cəmi 4 ixtisas üzrə mütəxəssis hazırlayan filial bu gün əyani və qiyabi təhsil formasında 9 ixtisas üzrə bakalavr hazırlığını həyata keçirir. Biznesin idarə edilməsi, Maliyyə, Mühasibat, İqtisadiyyat, Menecment, Marketinq, İnformasiya texnologiyaları, Turizm işinin təşkili, Dövlət və bələdiyyə idarəetməsi kimi istiqamətlər müasir iqtisadiyyatın ən çox tələb olunan sahələrini əhatə edir.

Lakin inkişaf bununla məhdudlaşmır. Qarşıdakı dövr üçün hazırlanmış akademik inkişaf planına əsasən, bakalavr səviyyəsində "Beynəlxalq ticarət və logistika", "Kompüter mühəndisliyi" və "Sosial iş", magistratura səviyyəsində isə "Biznesin təşkili və idarə edilməsi" və "Maliyyə" ixtisaslarının açılması nəzərdə tutulur. Bu addımlar regionun iqtisadi inkişaf perspektivləri və əmək bazarının gələcək ehtiyacları nəzərə alınmaqla planlaşdırılmışdır.

Son illər universitetlərin rəqabət qabiliyyətini müəyyən edən əsas göstəricilərdən biri rəqəmsal transformasiyadır. Dünyanın aparıcı universitetləri artıq klassik idarəetmə modelindən rəqəmsal universitet modelinə keçid edirlər. UNEC bu istiqamətdə Azərbaycanda qabaqcıl ali təhsil müəssisələrindən biridir və Zaqatala filialı da bu transformasiyanın uğurlu iştirakçılarındandır.

Filialda tətbiq olunan EDUMAN Elektron Universitet Modeli təhsil prosesinin bütün mərhələlərini vahid rəqəmsal platformada birləşdirir. Tələbələr şəxsi elektron kabinetləri vasitəsilə dərs cədvəllərinə, sillabuslara, mühazirə materiallarına, qiymətləndirmə nəticələrinə, fərdi tədris planlarına və universitetin təqdim etdiyi digər elektron xidmətlərə operativ şəkildə çıxış əldə edirlər. Bu sistem yalnız rahatlıq yaratmır, eyni zamanda şəffaflığın, operativliyin və akademik məsuliyyətin artırılmasına xidmət edir.

Qiymətləndirmə prosesinin tam elektronlaşdırılması UNEC-in əsas üstünlüklərindən biridir. Müasir texnologiyalarla təchiz olunmuş 65 yerlik elektron imtahan zalı imtahanların tam obyektiv, şəffaf və insan amilindən minimum asılı şəkildə keçirilməsini təmin edir. Elektron apellyasiya sistemi, elektron jurnal, elektron sənəd dövriyyəsi və "Bir pəncərə" xidməti universitet idarəçiliyində rəqəmsal yanaşmanın uğurlu nümunələridir.

Maddi-texniki bazanın gücləndirilməsi də son 10 ilin mühüm nailiyyətlərindəndir. Tədris auditoriyaları müasir elektron kürsülər, proyektorlar və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmişdir. Yeni Oxu zalının istifadəyə verilməsi, kitabxananın elektron resurslarla zənginləşdirilməsi, tələbələr üçün "Coffee Corner" guşəsinin yaradılması və universitet ərazisində ödənişsiz "Wi-Fi" xidmətinin təşkili müasir universitet mühitinin formalaşdırılmasına xidmət edir.

Ali təhsildə sosial infrastruktur da ən az akademik göstəricilər qədər vacibdir. Tələbənin rahat yaşayışı, sağlamlığı, asudə vaxtının səmərəli təşkili və sosial rifahı onun akademik nəticələrinə birbaşa təsir göstərir. Bu baxımdan UNEC Zaqatala filialında istifadəyə verilən müasir Tələbə Evi mühüm əhəmiyyət daşıyır. Burada tələbələrin təhlükəsiz və rahat yaşayışı üçün bütün zəruri şərait yaradılmış, sağlamlıq imkanları məhdud tələbələr üçün xüsusi otaqlar ayrılmış, elektron giriş sistemi və yüksəksürətli internet infrastrukturu qurulmuşdur.

Universitet həyatının ayrılmaz hissəsi olan idman infrastrukturu da diqqətdən kənarda qalmamışdır. Müasir standartlara cavab verən idman zalı tələbələrin fiziki hazırlığının gücləndirilməsi, sağlam həyat tərzinin təşviqi və müxtəlif idman yarışlarının keçirilməsi üçün geniş imkanlar yaradır. Universitet yalnız peşəkar mütəxəssis deyil, həm də sağlam, fəal və sosial məsuliyyətli vətəndaş yetişdirməyi qarşısına məqsəd qoymuşdur.

Filialın elmi fəaliyyətində də keyfiyyətcə yeni mərhələ başlamışdır. Elmi məqalələrin "Scopus" bazasında indekslənən nüfuzlu beynəlxalq jurnallarda dərc olunması, beynəlxalq tədqiqat layihələrində iştirak, xarici elmi seminarlar və təlim proqramlarında təmsilçilik universitetin elmi potensialının yüksəldiyini göstərir. Sevindirici haldır ki, əməkdaşlarımızın elmi tədqiqatlarının nəticələri artıq beynəlxalq elmi ictimaiyyət tərəfindən də qəbul olunur və istinad edilir.

Universitetin beynəlxalq nüfuzunun artmasının digər mühüm göstəricisi xarici ali təhsil müəssisələri ilə əməkdaşlığın genişlənməsidir. Türkiyənin aparıcı universitetləri ilə qurulan tərəfdaşlıqlar müəllim və tələbə mobilliyini artırmış, birgə elmi layihələrin həyata keçirilməsi üçün yeni imkanlar yaratmışdır. Orhun Mübadilə Proqramı çərçivəsində müəllim və tələbələrimizin beynəlxalq akademik mühitdə iştirak etməsi onların peşəkar inkişafına mühüm töhfə verir.

Xüsusi diqqətəlayiq məqamlardan biri odur ki, artıq xarici ölkələrdən olan tələbələr də təhsil almaq üçün UNEC Zaqatala filialını seçirlər. Bu, universitetimizin beynəlxalq tanınmasının artdığını və region universiteti anlayışının artıq beynəlxalq ölçü qazandığını göstərir.

2026-cı ildə keçirilən 10 illik yubiley tədbirləri isə təkcə ötən dövrün uğurlarının qeyd olunması deyil, həm də gələcəyə baxışın ifadəsidir. "Rəqəmsallaşma dövründə regional universitet modeli" mövzusunda təşkil olunan beynəlxalq elmi-praktiki konfrans müxtəlif ölkələrdən alimləri, tədqiqatçıları və universitet rəhbərlərini bir araya gətirməklə UNEC Zaqatala filialının beynəlxalq akademik platformada artan nüfuzunu nümayiş etdirmişdir. Belə tədbirlər region universitetlərinin inkişaf perspektivlərinin müzakirəsi və yeni əməkdaşlıq imkanlarının yaradılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Yubiley münasibətilə istifadəyə verilən yeni Turizm otağı, Azərbaycanın Əməkdar elm xadimi professor Məsud Əfəndiyevin adını daşıyan auditoriya və Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun xatirəsinə yaradılmış müasir İKT otağı filialın yalnız maddi-texniki bazasının deyil, həm də mənəvi dəyərlər sisteminin inkişafına verilən önəmin göstəricisidir. Universitet keçmişinə hörmət etməklə yanaşı, gələcəyin universitetini qurmağa çalışır.

Bu gün UNEC Zaqatala filialı regionun sosial-iqtisadi inkişafında fəal iştirak edən, əmək bazarının tələblərinə cavab verən mütəxəssislər hazırlayan, rəqəmsal texnologiyaları uğurla tətbiq edən, beynəlxalq əməkdaşlığa açıq və innovativ ali təhsil müəssisəsi kimi formalaşmışdır. Lakin biz əldə olunan nəticələri son məqsəd kimi deyil, daha böyük hədəflərə aparan mərhələ kimi qiymətləndiririk.

Qarşıdakı illərdə əsas məqsədimiz filialın akademik potensialını daha da gücləndirmək, elmi tədqiqatların keyfiyyətini artırmaq, beynəlxalq reytinqlərdə mövqeyimizi yaxşılaşdırmaq, yeni təhsil proqramları yaratmaq, xarici tələbələrin sayını artırmaq və regionun iqtisadi inkişafına daha böyük töhfələr verməkdir. Biz inanırıq ki, universitet yalnız bu günü deyil, gələcəyi də formalaşdırmalıdır. Bu baxımdan UNEC Zaqatala filialının qarşısında duran vəzifələr kifayət qədər böyük və məsuliyyətlidir.

10 il əvvəl böyük ümidlərlə əsası qoyulan UNEC Zaqatala filialı bu gün həmin ümidləri doğruldan, etimadı qazanan və uğurları ilə seçilən ali təhsil müəssisəsidir. Bu uğurlar ilk növbədə dövlətimizin təhsilə göstərdiyi yüksək diqqətin, UNEC kollektivinin peşəkarlığının, filial rəhbərliyinin məqsədyönlü fəaliyyətinin, professor-müəllim heyətinin fədakar əməyinin və tələbələrimizin əzmkarlığının nəticəsidir.

Əminəm ki, qarşıdakı illərdə UNEC Zaqatala filialı regionun deyil, bütövlükdə Azərbaycanın nümunəvi ali təhsil müəssisələrindən biri kimi öz mövqeyini daha da möhkəmləndirəcək, elm, təhsil və innovasiya sahəsində yeni uğurlara imza atacaq. Universitetimizin qarşısında duran əsas missiya dəyişməz qalır: yüksəkkeyfiyyətli təhsil vermək, milli iqtisadiyyatın inkişafına xidmət edən rəqabətqabiliyyətli mütəxəssislər yetişdirmək, cəmiyyətə faydalı və məsuliyyətli vətəndaşlar formalaşdırmaq.

UNEC Zaqatala filialının ilk 10 ili böyük uğurların tarixidir. Qarşıdakı illərin isə daha böyük nailiyyətlərin, daha iddialı layihələrin və yeni inkişaf mərhələsinin başlanğıcı olacağına inanırıq. Bu inamın əsasında ən böyük sərvətimiz dayanır – biliyə inanan gənclərimiz, onları yetişdirən müəllimlərimiz və Azərbaycanın gələcəyinə xidmət edən güclü universitetimiz.

***Ədalət MURADOV,***
***UNEC-in rektoru, professor***

# Uşaqlar və yeniyetmələr sosial şəbəkələrin təhlükəsindən kənarda qalmalıdırlar

**Rəqəmsal texnologiyaların və sosial şəbəkələrin gündəlik həyatın ayrılmaz hissəsinə çevrildiyi indiki zamanda uşaqların informasiya mühitində təhlükəsizliyinin təmin edilməsi dünya dövlətlərinin qarşısında duran ən mühüm vəzifələrdəndir. Çünki sosial media platformaları uşaqlar və yeniyetmələr üçün psixoloji, mənəvi və davranışla bağlı müxtəlif risklər formalaşdırır.**

Doğrudur, sosial şəbəkələr xüsusən yeniyetmələrin ünsiyyət qurması, informasiya əldə etməsi, təhsil resurslarından istifadəsi, yaradıcılıq imkanlarının nümayişi və ictimai proseslərdə iştirakı üçün vacib platformadır. Amma onların sürətlə genişlənməsi, xüsusilə uşaqların bu platformalara erkən yaşlardan nəzarətsiz çıxış imkanlarının artması yeni riskləri gündəmə gətirib. Məhz buna görə də indi dünyanın əksər ölkələrində qarşıda duran əsas məsələ uşaqları sosial şəbəkələrdən tamamilə uzaqlaşdırmaq yox, onların rəqəmsal mühitə təhlükəsiz inteqrasiyasını təmin etməkdir. Başqa sözlə, əsas məqsəd uşağın inkişaf dövründə onu zərərli təsirlərdən qorumaq, sağlam psixoloji mühitdə böyüməsinə şərait yaratmaq və gələcəkdə rəqəmsal platformalardan məsuliyyətli istifadə bacarıqlarını formalaşdırmaqdır. Bu baxımdan uşaqların müdafiəsi yalnız ailənin deyil, eyni zamanda dövlətin, təhsil sisteminin, cəmiyyətin və rəqəmsal platformaların da ortaq məsuliyyəti hesab olunur.

Milli Məclisdə qanunvericilikdə üçüncü oxunuşda qəbul edilən dəyişikliklərin əsas məqsədi də uşaqların sosial şəbəkələrdə zərərli təsirlərdən daha etibarlı şəkildə qorunmasını təmin etməkdir. Dəyişikliklər sosial şəbəkələrdən istifadənin qadağan olunmasına deyil, bu platformalarda qeydiyyat zamanı yaşın yoxlanılması mexanizminin tətbiqinə və uşaqlar üçün əlavə müdafiə tədbirlərinin yaradılmasına yönəlib.

Yeni tənzimləməyə əsasən, 16 yaşadək uşaqların sosial şəbəkələrdə müstəqil hesab açmasına icazə verilmir, 16-18 yaş arası yeniyetmələr isə yalnız valideyn və ya qanuni nümayəndənin razılığı ilə qeydiyyatdan keçə biləcəklər. Təbii ki, bu yanaşma uşaqların rəqəmsal mühitdə iştirakını tam məhdudlaşdırmır, əksinə, onların yaşına uyğun şəkildə qorunmasını təmin edir. Məqsəd onların informasiya əldə etmək hüququnu məhdudlaşdırmaq yox, fiziki və psixoloji inkişafına mənfi təsirləri minimuma endirməkdir.

Uşaqların sosial şəbəkələrdə təhlükəsizliyinin təmin olunması bu gün yalnız Azərbaycanın deyil, bir çox ölkənin əsas gündəm mövzusudur. Avstraliya, Fransa, Norveç, İspaniya, Böyük Britaniya, ABŞ, Kanada və digər ölkələrdə bu sahədə müxtəlif tənzimləmələr həyata keçirilir. Azərbaycan da həmin prosesdə beynəlxalq təcrübəni nəzərə alaraq müasir və uyğun hüquqi mexanizmlər formalaşdırır.

Bu istiqamətdə qəbul olunan yanaşmanın ciddiliyi və qlobal miqyasda artan diqqət xarici ölkə liderlərinin mövzu ilə bağlı səsləndirdiyi fikirlərdə də öz əksini tapır. Onların açıqlamaları göstərir ki, uşaqların rəqəmsal mühitdə qorunması artıq beynəlxalq siyasi gündəmin vacib hissəsinə çevrilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrin nəzarətsiz istifadəsinin uşaqlara mənfi təsir göstərdiyini, bəzi platformaların isə "zibilxanaya çevrildiyini" qeyd edir və alqoritmlərin təsirini xüsusi vurğulayır. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen isə əsas məsələnin yeniyetmələrin sosial mediaya çıxışı deyil, sosial medianın onlara çıxışının necə tənzimlənməsi olduğunu bildirir. Norveçin Baş naziri uşaqların ekranlardan və alqoritmlərdən qorunmasının vacibliyini, İspaniyanın Baş naziri isə real həyatda qanunsuz olanın virtual mühitdə də qanunsuz sayılmalı olduğunu vurğulayır. Yunanıstanın Baş naziri də 15 yaşdan aşağı uşaqlar üçün sosial şəbəkələrə girişin mərhələli şəkildə məhdudlaşdırılacağını deyir.

Ümumilikdə bu yanaşmalar göstərir ki, sosial şəbəkələrdə uşaqların təhlükəsizliyi artıq qlobal miqyasda ciddi narahatlıq doğuran və vahid istiqamətdə həll yolları axtarılan məsələdir. Dövlətlər bu sahədə qadağa deyil, daha çox yaşa uyğun tənzimləmə və müdafiə mexanizmlərinin tətbiqinə üstünlük verirlər. Məqsəd uşaqları rəqəmsal dünyadan uzaqlaşdırmaq yox, onları həmin mühitdə daha təhlükəsiz və sağlam yetişdirməkdir.




*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Yayın sevimli ləzzəti nə vaxt təhlükəyə çevrilir

## "Dondurma kababı" və ya "qızardılmış dondurma"nın aşırı qəbulu xərçəng riskini artırır

**Yay mövsümünün əvəzolunmaz qidalarından biri olan dondurma həm uşaqların, həm də böyüklərin ən çox istehlak etdiyi məhsullar sırasındadır. Tərkibində süd, zülal, yağ, karbohidrat, vitamin və mineralların olması onu qida dəyəri yüksək məhsullardan birinə çevirir. Lakin bu üstünlüklər yalnız məhsul düzgün istehsal edildikdə, daşındıqda və saxlanıldıqda öz əhəmiyyətini qoruyur. Əks halda dondurma qida zəhərlənməsinə səbəb ola biləcək riskli məhsullardan birinə çevrilə bilər.**



Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **qida mütəxəssisi Ağa SALAMOV** bildirdi ki, dondurma süd məhsulundan hazırlandığı üçün qida təhlükəsizliyi baxımından xüsusi diqqət tələb edən məhsullar kateqoriyasına daxildir. Onun sözlərinə görə, təhlükəsiz dondurmanın əsas şərti qida zəncirinin istehsaldan istehlakçıya qədər bütün mərhələlərində qorunmasıdır: "Təhlükəsizlik istehsal prosesindən başlayır. Südün keyfiyyətli seçilməsi, yağlılıq dərəcələrinin standartlara uyğun olması, süd və digər xammalın düzgün saxlanılması, emal zamanı sanitar-gigiyenik normalara ciddi əməl edilməsi son məhsulun təhlükəsizliyini şərtləndirən əsas amillərdəndir. Xüsusilə istehsalatda istifadə olunan avadanlıqların hər iş günündən sonra tam yuyulması və dezinfeksiya olunması vacibdir. Əgər avadanlıqlarda qida qalıqları qalarsa, növbəti istehsal zamanı çarpaz çirklənmə baş verir. Bu isə müxtəlif mikroorqanizmlərin məhsula keçməsinə və son nəticədə qida zəhərlənməsinə səbəb ola bilər. İstehsal mərhələsində yol verilən gigiyenik pozuntular sonradan nə daşınma, nə də marketlər tərəfindən aradan qaldırıla bilir. Buna görə də qida təhlükəsizliyinin əsası məhz istehsal müəssisələrində qoyulur və burada sanitariya qaydalarına maksimum səviyyədə riayət olunmalıdır".

İstehsaldan sonra soyuq qida zəncirinin qırılmaması ən vacib məsələlərdən biridir. Mütəxəssis qeyd edib ki, dondurmalar yalnız mənfi 18 dərəcə temperaturu təmin edən xüsusi soyuducu sistemlə təchiz edilmiş nəqliyyat vasitələri ilə daşınmalıdır. Məhsul mağazalara çatdırıldıqdan sonra isə qəbul prosesi mümkün qədər qısa müddətdə həyata keçirilməlidir. Əgər dondurma uzun müddət açıq havada və ya otaq temperaturunda qalarsa, ərimə prosesi başlayır və bu da məhsulu ciddi şəkildə təhlükə altına salır. Mağazalarda da dondurmaların saxlanması xüsusi nəzarət tələb edir. Soyuducuların temperaturu daim mənfi 18 dərəcədə saxlanılmalı, məhsullar soyuducuya həddindən artıq yığılmamalıdır. Çünki dondurmalar üst-üstə sıx yerləşdirildikdə içəridə hava sirkulyasiyası pozulur, soyuq hava bütün məhsullara bərabər paylanmır və bəzi dondurmalar tam donmur. Bu zaman onların yumşaq qalması mikroorqanizmlərin inkişafı üçün əlverişli şərait yaradır.

"İstehlakçıların özləri də bəzən bilmədən bu prosesə mənfi təsir göstərirlər. Marketdə istədiyi məhsulu seçərkən dondurucunun qapağını uzun müddət açıq saxlayan və ya ümumiyyətlə bağlamayan alıcılar digər məhsulların üst qatının əriməsinə səbəb olurlar. Sonradan qapaq bağlandıqda həmin məhsullar yenidən donur. Dondurmanın dəfələrlə əriməsi və yenidən donması isə onun keyfiyyətini kəskin şəkildə aşağı salır və mikrobioloji risk yaradır. Bir dəfə əriyib yenidən donmuş dondurmaların da istehlakı sağlamlıq üçün təhlükəlidir. Belə məhsullarda bağırsaq çöplərinin və digər mikroorqanizmlərin çoxalma ehtimalı artır. Bu isə qida zəhərlənmələri, ürəkbulanma, qusma, ishal və digər sağlamlıq problemlərinə səbəb ola bilər. İstehlakçılar dondurma alarkən ilk növbədə onun xarici görünüşünə diqqət yetirməlidirlər. Əgər məhsul öz formasını itiribsə, deformasiyaya uğrayıbsa, bu, onun əvvəlcə əridiyini, daha sonra yenidən dondurulduğunu göstərə bilər. Həmçinin dondurma yeyilərkən ağızda buz kristallarının hiss olunması da eyni problemin göstəricisidir. Belə məhsulların alınması və istehlakı tövsiyə edilmir", - deyə Ağa Salamov vurğulayıb.

Mütəxəssisin fikrincə, saxlanma müddəti dondurmanın növündən asılı olaraq dəyişir. Adi südlü dondurmalar təxminən bir ay, meyvəli-giləmeyvəli, qaymaqlı və ətirli növlər bir ay yarım, plombir dondurmaları isə iki aya qədər saxlanıla bilər. Temperaturun tez-tez dəyişməsi məhsulun keyfiyyətinə ciddi təsir göstərir. Ərimə və yenidən donma prosesi zamanı dondurmanın strukturunda dəyişikliklər baş verir, mikrobioloji proseslər aktivləşir və məhsul sağlamlıq üçün təhlükəli hala gələ bilir. Buna görə də istehlakçılar alış-veriş zamanı dondurmanı ən sonda götürməli, evə çatdırılmasını gecikdirməməli və mümkün qədər tez dondurucuya yerləşdirməlidirlər.

Bütün bu risklərə baxmayaraq, keyfiyyətli və düzgün saxlanılmış dondurma faydalı qida məhsuludur. Qida mütəxəssisi xatırladıb ki, bu şirin təamın tərkibində protein, karbohidrat, yağlarla yanaşı, A, D, E, C və B qrupu vitaminləri mövcuddur. Bundan əlavə, maqnezium, fosfor, natrium, kalium, dəmir və sink kimi minerallar da orqanizmin normal fəaliyyəti üçün mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən sağlam şəraitdə istehsal olunan və düzgün saxlanılan dondurma balanslı qidalanmanın tərkib hissəsi ola bilər.

Son illər sosial şəbəkələrdə müxtəlif dondurma təqdimatları və hazırlanma üsulları geniş yayılıb. Bunlardan biri də "dondurma kababı" və ya "qızardılmış dondurma"dır. Ağa Salamov bildirib ki, bu cür yanaşmalar daha çox reklam və marketinq məqsədi daşıyır və sağlam qidalanma prinsipləri ilə uyğun gəlmir. Onun sözlərinə görə, bu proses zamanı əsas təhlükə dondurmanın özündən deyil, onun üzərində istifadə edilən vafli və digər un məmulatlarının yüksək temperaturda yandırılmasından qaynaqlanır: "Belə hallarda akrilamid adlı kimyəvi maddə əmələ gəlir. Elmi araşdırmalarda bu maddənin uzunmüddətli və yüksək miqdarda qəbulunun xərçəng riskini artıra biləcəyi göstərilir. Buna görə də sosial şəbəkələrdə populyarlıq qazanan bu cür qidaların sağlam seçim hesab edilməsi düzgün deyil".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Marsda tarixi kəşf



NASA-nın Marsdakı "Perseverance" roveri qədim çay yatağı olan Neretva Vallis bölgəsində həyatın əsas tikinti blokları hesab edilən mürəkkəb üzvi molekullar aşkar edib. İlk dəfə bu maddələr qayanın bütövlüyü pozulmadan, təbii səthdə qeydə alınıb. Kəşf Marsın keçmişdə mikrob həyatına evsahibliyi etmiş ola biləcəyi ehtimalını yenidən gündəmə gətirib.

Roverin SHERLOC cihazı qaya formasında makromolekulyar karbon müəyyən edib. "Cheyava Falls" palçıq daşında aşkarlanan üzvi maddələr karbonatlar, sulfatlar və fosfatlarla birlikdə qeydə alınıb. NASA-nın astrobioloqu Kayl Ukert bildirib ki, bu, Mars səthində indiyədək aşkarlanan ən dayaz üzvi maddədir. Bu ya maddənin nisbətən yaxın dövrdə səthə çıxmasını, ya da qoruyucu minerallar sayəsində radiasiyadan mühafizə olunmasını göstərə bilər.

Diqqətçəkən məqamlardan biri də Jezero kraterindəki bu tapıntının, "Curiosity" roverinin Gale kraterində aşkar etdiyi üzvi maddələrdən təxminən 3500 kilometr uzaqda yerləşməsidir. Bu isə milyardlarla il əvvəl Marsda üzvi materialların geniş yayılmış ola biləcəyinə işarə edir. Alimlər karbonun həm bioloji, həm də qeyri-bioloji proseslər nəticəsində yarana biləcəyini vurğulayırlar. Mövcud avadanlıq onun mənşəyini dəqiq müəyyən edə bilmir. Qəti nəticə yalnız Marsdan Yerə gətiriləcək nümunələrin laboratoriya analizindən sonra mümkün olacaq.

## Sintetik biologiyada yeni mərhələ

**ABŞ-li tədqiqatçılar cansız kimyəvi komponentlərdən qidalana, böyüyə və bölünə bilən "SpudCell" adlı sintetik hüceyrə prototipi hazırlayıblar. Layihəyə rəhbərlik edən Minnesota Universitetinin professoru Keyt Adamalanın sözlərinə görə, məqsəd mövcud hüceyrəni dəyişdirmək deyil, onu sıfırdan quraraq həyatın yaranma mexanizmini anlamaqdır.**

"SpudCell" quruluşca sadə bakteriyanı xatırlatsa da, cəmi 150-200 molekuldan ibarətdir. Təbii hüceyrələr isə milyonlarla molekul ehtiva edir. Buna görə də alimlər onu tam həyat forması deyil, həyatın bəzi xüsusiyyətlərini nümayiş etdirən model kimi qiymətləndirirlər. Prototip xaricdən verilən komponentlərlə qidalanır və təxminən hər 12 saatdan bir bölünür. Lakin ribosomları özü istehsal edə bilmədiyi üçün laboratoriyada E.coli bakteriyasından alınan ribosomlardan istifadə edilir.



Mütəxəssislər bildirirlər ki, bu nailiyyət laboratoriyada həyatın yaradılması demək deyil. Hazırda "SpudCell" laboratoriyadan kənarda yaşaya və çoxala bilmir, buna görə də insanlar və ətraf mühit üçün təhlükə hesab edilmir. Alimlərin fikrincə, gələcəkdə sintetik hüceyrələr xərçəng müalicəsi, karbonun tutulması və yeni biotexnologiyaların inkişafında istifadə oluna bilər. Bunun üçün isə hələ uzunmüddətli tədqiqatlara ehtiyac var.

## Dünya olduğu kimi

### 1800 il öncəyə aid Roma sikkələri tapılıb



Fransanın Senon şəhərində aparılan arxeoloji qazıntılar zamanı eramızın III əsrinə aid təxminən 25 min Roma sikkəsi olan üç keramika küp aşkar edilib.

1500 kvadratmetrlik qazıntılar yaşayış məntəqəsinin Kelt kəndindən Roma şəhərinə çevrilməsini və sonradan yanğın nəticəsində tərk edilməsini üzə çıxarıb. Ərazidə yaşayış evləri, emalatxanalar, zirzəmilər və hipokast isitmə sistemi qalıqları da aşkarlanıb.

Alimlərin fikrincə, sikkələr eramızın 280-310-cu illəri arasında qeyri-sabit dövrdə gizlədilib. Onların üzərində Qalliya imperiyasının hökmdarları Viktorun, I Tetrik və II Tetrikin təsvirləri yer alır. Tapıntı Roma imperiyasının son dövrlərində insanların sərvətlərini necə qoruduqlarını öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır.

### 400 minillik mağara

İsrailin şimalında aşkarlanan mağaranın təxminən 400 min il əvvəl neandertallardan əvvəl yaşamış hominidlər tərəfindən istifadə edildiyi müəyyən olunub.

Arxeoloqlar burada Aşeulo-Yabrudian mədəniyyətinə aid əl baltaları, qırıntılar və digər daş alətlər aşkar ediblər. Tapıntılar həmin dövrdə insanların mağaralarda birlikdə yaşadıqlarını, ov etdiklərini və oddan istifadə etdiklərini göstərir.

Tədqiqatçılar bildirirlər ki, bu dövrə aid mağaralar olduqca nadirdir və erkən insan davranışını öyrənmək üçün mühüm mənbədir. Hələlik insan qalıqları tapılmasa da, qazıntılar davam etdiriləcək.

Mütəxəssislər ümid edirlər ki, gələcək araşdırmalar neandertallardan əvvəl yaşamış hominidlərin qalıqlarını üzə çıxaracaq və insan təkamülü haqqında yeni məlumatlar verəcək.

## 11 milyard işıq ili uzaqlığında

Alimlər Antarktidada qeydə alınan yüksək enerjili neytrinonun mənbəyini qravitasiya linzası effekti sayəsində təxminən 11 milyard işıq ili uzaqlıqdakı qalaktikada müəyyən ediblər.

2021-ci ildə "IceCube" rəsədxanası "IC 210922A" adlı nadir neytrino siqnalını qeydə almışdı. Sonradan Havay və Çilidəki teleskoplarla aparılan müşahidələr zamanı "JCMT0402-0424" adlı infraqırmızı qalaktika aşkar edilib. Güclü kosmik toz səbəbindən görünən işıqda seçilməyən bu obyekt "Kölgə partlayıcısı" adlandırılıb.

Qalaktikanın görünməsi onun qarşısında yerləşən başqa bir qalaktikanın yaratdığı qravitasiya linzası effekti sayəsində mümkün olub. Alimlərin fikrincə, erkən kainatda intensiv ulduz yaranması və supernovalar yüksək enerjili neytrinoların əmələ gəlməsinə səbəb olub.




Tədqiqatçılar hesab edirlər ki, bu tip tozlu qalaktikalar kainatdakı ümumi neytrino axınının təxminən 20 faizini yarada bilər. Kəşf erkən kainatın və kosmik şüaların öyrənilməsi üçün mühüm imkan açır.

## İtaliyada Tunc dövrünə aid kənd aşkar edilib

İtaliyanın Sulmona şəhəri yaxınlığındakı Case Pente ərazisində aparılan qazıntılar zamanı Tunc dövrünə aid böyük yaşayış məskəni, qədim qəbiristanlıq və Roma hamamı kompleksi aşkar edilib.

2023-cü ilin martında Snam qaz kompressor stansiyasının tikintisi öncəsi başlanan profilaktik arxeoloji tədqiqatlar çərçivəsində indiyədək 12 hektar ərazi araşdırılıb. Arxeoloqlar Eneolit dövrünün sonu və Erkən Tunc dövrünə aid 52 daxmanın izini, həmçinin həmin icmaya məxsus nekropol aşkar ediblər.

Qazıntılar zamanı qədim yolun kənarında yerləşən Roma dövrünə aid bina və qızdırılan otaqları olan hamam kompleksi də üzə çıxıb. Tarixi əhəmiyyətinə görə bu tikililər yerində qorunacaq və gələcəkdə ziyarətçilər üçün yaradılacaq marşrutun bir hissəsinə çevriləcək.

Layihə çərçivəsində artefaktların bərpası, insan qalıqlarının DNT, radiokarbon, arxeobotanik və arxeozooloji analizləri aparılır. Alimlər tədqiqat nəticələrini elmi nəşrlərdə dərc etməyi və layihə başa çatdıqdan sonra ictimai sərgidə nümayiş etdirməyi planlaşdırırlar. Mütəxəssislərin fikrincə, Case Pente qazıntıları Peligna vadisinin qədim məskunlaşma tarixi haqqında mövcud təsəvvürləri əhəmiyyətli dərəcədə genişləndirə bilər.



*Hazırladı:*
*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 3 iyul (Cümə axşamı günü) tarixli 215-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 4 şəvvalül-mükərrəm sənə 1337. 3 təmmuz 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## MÜSƏLMAN MÜƏLLİMƏ VƏ MÜƏLLİMLƏRİ ÜÇÜN İKİ AYLIQ KURSLAR

İyulun 5-dən etibarən Bakıda müsəlman müəllimə və müəllimləri üçün 100 nəfərlik kurs açılır. Kursa daxil olanlar: 60 müəllimə və müəllimlər Şamaxı və Göyçay uyezdlərindən, 18 müəllimə və müəllimlər Bakı uyezdindən, 32 sentyabr ayından müəllimə və müəllimlik etmək istəyənlər. Kursda oxuyanlara yövmiyyə və xərci-rahı [gündəlik xərclik və yolpulu] veriləcək, bunlar üçün "Svyataya Nina" məktəbində mənzil hazırlanır. Kursda oxuyanlar bir ildən əskik olmayaraq müəllimlik etməyə məcburdurlar. Xahiş edənlər Bakı və həvalisi [ətrafı] məktəb müdirinin dəftərxanasına rücu [müraciət] etsinlər.

Pozenovski küçə, nömrə 15.

Qeyd: Müəllimələr üçün kurs əlahiddə mənzildə olacaqdır.

*10263*

## HACIAĞA İSGƏNDƏROVUN XALÇA VƏ MANUFAKTURA MAĞAZASINDA

Təzə alınmış hazır Amerika kişi ayaqqabısı (çəkmələri) məşhur Amerika fabrikası "Helios" malı 150 cift [cüt], 40 nömrədən 44 nömrəyədək. Hər cütünün qiyməti 1200 manat. Mağaza Baryatinski küçə, Lalayevin pasajında (sabiq Kafiyevin) telefon nömrə 19-14.

*10267*

## ZAVOD YOLDAŞLIĞI "AMİZ"

Hər cür mədən və paroxod işlərini qəbul edir, bu cümlədən slesar [çilingər] işi, tokar [dülgər] işi, kuzneçni [dəmirçi] işi, xarrat işi, çuqun və bürünc işləri. Adres: Bakinski dokun yanında, 3-cü pristanda, Leonovun həyətində, telefon nömrələri: 42-10 və 18-42. Müdir: Süleyman Abdullayev.

*10269*

## ELAN

Açılıb tənbəki və papiros fabrikası Ağazeynal Zeynalov. Voronsovski küçədə 26 nömrəli evdə, telefon nömrə 20-07.

*10265*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

***Azərbaycan Cümhuriyyətinin Maarif Nəzarətindən***

*Əmrnamə sayı 201*

Hökumət qəzetəsi "Azərbaycan" mətbəəsi xəzinədarı Seyid Hüseyn Sadıqov bu il mayıs ayının 31-dən kəndi ərizəsinə binaən vəzifəsindən kənar edilir.

*Maarif naziri: Qaplanov*
*24 həziran 1919*

*Əmrnamə sayı 199*

Bakı sakini Cavad Quliyev bu həziran ayının 1-dən 1919-cu ildən hökumət qəzetəsi "Azərbaycan" mətbəəsində xəzinədar təyin olunur.

*Maarif naziri: Qaplanov*

**Posta-Teleqraf Nəzarətindən**

*Əmrnamə nömrə 70*

Quba posta-teleqrafxanası 5-ci dərəcəli məmuru Abdulla bəy Axundov həziranın 1-ci günündən həman posta və teleqrafxana müdiri təyin olunur.

*Posta və Teleqraf naziri: Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

*Əmrnamə nömrə 71*

Bakı Mərkəzi posta-teleqrafxanası 5-ci dərəcəli məmuru Musa bəy Qaragözov həziranın 28-ci günündən Xaçmaz posta və teleqrafxanasının müdiri təyin olunur.

*Posta və Teleqraf naziri: Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

*Əmrnamə nömrə 72*

Qusar posta və teleqrafxanası 5-ci dərəcəli məmuru Nüsrətulla Butayev həziranın 28-ci günündən həman posta və teleqrafxananın müdiri təyin olunur.

*Posta və Teleqraf naziri: Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

*Əmrnamə nömrə 74*

Məmuriyyət mövcibincə [səbəbindən] getdiyim Tiflis səfərindən qayıdıb, bu tarixdən Nəzarəti idarə etməyə şüru etdim [başladım]. Bütün təhti-nəzarətimdə [tabeçiliyimdə] bulunan idarələrə elan edirəm.

*Posta və Teleqraf naziri: Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*
*Kargüzar: İbrahimbəyli*

**Əxzi-Əsgər İdarəsindən**

Bakı uyezdnı [qəza] Əxzi-Əsgəriyyə [Hərbi Çağırış] İdarəsi təyin edibdir əsgərlik vəzifəsini ifa etməkdən ötrü 1894, 1895, 1896, 1897, 1898, 1899-cu sənələrdə təvəllüd tapan [anadan olan] müsəlman cavanlarından ötrü zeyldə [aşağıda] yazan vaxtları:

Balaxanı və Sabunçu Polis müdiriyyəti üçün
1, 2 və 3-cü polis uçastokları – 2 iyul
4 və 5-ci polis uçastokları – 3 iyul
7-ci polis uçastoku 5 və 6 iyul
6-cı polis uçastoku – 7 iyul
Bakı şəhəri üçün
1, 5, 7, 8, 9 və 10-cu polis uçastokları – 10 iyul
2-ci polis uçastoku
Məhəmmədyar məscidi – 12 iyul
Gilək məscidi – 13 iyul
Cümə məscidi – 14 iyul
3-cü polis uçstoku
Təzəpir məscidi – 15 iyul
Qasımbəy məscidi – 16 və 17 iyul
4-cü polis uçastoku
Hüseynqulu və Hacı Hüseyn və Məhəmmədi məscidləri – 19, 20, 21 iyul
6-cı polis uçastoku
Təzə, Hacı Ağababa və Hacı Pirverdi məscidləri – 22, 23 və 24 iyul

1) Əsgərliyə dəvət olunur yerli əhali və kənar yerlərdən gələn, Bakıda sükunət edən [yaşayan] Azərbaycan vətəndaşları hərçənd siyahıda yazılmamış olsalar da və habelə metrik dəftərində yazılmamış olsalar da. Əsgəriyyə qulluğundan azad olmaq külfət qərarı üzrə və naxoşluğa görə və ya qeyri səbəblərə görə mümkün olar Əxzi-Əsgəriyyə İdarəsinin qətitəyyinə [qəti qərarına] görə. Ona görə, hərgah bir evdə əsgərlik yaşında bir nəfər və ya neçə nəfər adam varsa, hamısının borclarıdır gəlsinlər.

2) Əxzi-Əsgəriyyə İdarəsinə gəlmək vacibdir, həm çətin padşahlıq qulluğunda olan adamlar üçün də və dəmiryollarında və kanvoynı sotnidə [mühafizə dəstəsində] və ya çastnı [xüsusi] qulluqlarda olan adam üçün biqeyriəz-vayenni qulluqçular [hərbi qulluqçulardan başqa].

3) Qeyri yerlərdə olan əsgərlik yaşında olan adamlara, onların ataları və qeyri əqvamları [qohumları] məlumat verməlidirlər.

4) Çağırılan adamlar borcludurlar gələlər Əxzi-Əsgəriyyə İdarəsinə, Persidski və Qubernski küçələrin küncündə olan Şaqidanovun evində, camaat vəkilləri ilə bərabər, hansı ki, siyahı yazmaqda iştirak edibdirlər, sübh saat 9-un yarısında.

İdarə özünü borclu bilir xəbərdar etməyə ki, bu ikinci prizıvdır [çağırışdır], ona görə hərgah gələcəkdə əsgərliyə düşən adam tapılsa, hansı ki, vaxtında gəlməyiblər, bu gunə [bu cür] adamlar əsgərlikdən qaçan hesab olunacaqdırlar; onların ana və ataları və evlərin böyükləri onların qaçmaqlarına kömək edən hesab olunacaqdırlar.

*İdarənin sədri: Talışxanov*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Növbədən xaric iclas**
*(keçən nömrədən mabəd)*

**Əbilov İbrahim** - (Sosialist) Möhtərəm məbuslar! Məhəmməd Əmin əfəndi həzrətləri nitqlərində buyurdular ki, "Ədüvv şəvəd səbəbi xeyr, əgər xuda xahəd".

Kənardan bizi təhdid edən, Rusiya hürriyyətini boğmaq istəyən Denikin hamımızın düşməni olduğu halda, iki qonşu milləti birləşdirməyə məcbur etdi və birləşdirməyə bilməzdi. Çünki bu millətlərin hürriyyəti və istiqlalı Rusiya inqilabi-kəbirinin [böyük Rusiya inqilabının] nəticəsi idi. Odur ki, bütün Rusiya və Qafqaziya hürriyyəti[ni] təhlükə altına alan bir qüvvə qarşısında Qafqaziya millətləri birləşmədən qalammazlardı, həm öylə də oldu. Denikin təcavüzü Qafqaziya millətlərini, Qafqaziya demokratiyasını birləşdirdi. Bu iki millətin həyatında öylə vaxtlar olmuşdur ki, ən səmimi dost olan gürcü və Azərbaycan demokratiyası arasında bəzi ixtilafa bais olmuşdur. Hətta bəlkə münaqişə belə çıxarmaq dərəcəsinə varmışdır. Lakin bu iki demokratiya arasında münaqişə olmamışdır. Bu surətlə həman şeir məfhumunca, Allah istədi, düşmən xeyirə səbəb olub demokratiya arasında dostluq əmələ gəldi. Fəqət əfsuslar olsun ki, böylə bir zəmanədə üçüncü demokratiya [xalq] iş başında duran hökumətin politikası sayəsində qəflətdən hələ ayılmayıb, ona görə də bu gün bu etilafnamənin [razılaşmanın] altında onların imzaları yoxdur. Amma bununla bərabər ümidvarız ki, erməni demokratiyası onların qonşularla birləşməsinə mane olan qüvvəni rədd edərək hökuməti öz əlinə alar və axırda əlimiz bir-birinə çatar. Erməni demokratiyası da bu ittifaqa daxil olar. Bu surətlə də ümum Zaqafqaziya demokratiyası birləşər.

Gürcü demokratiyası ilə Azərbaycan türk demokratiyasını bu gün bir təhlükə birləşdirdi. Bu gün bəziləri bəlkə güman edirlər ki, o təhlükə indi artıq zail olmuşdur [aradan qalxmışdır]. Öylə ümid edənlər ola bilər ki, guya o sərhəd ki, bizə vəd ediblər, həman xətti-hüdud təyini məsələni bitirib qurtarmışdır. Amma əqidəmizcə, o kağız, o vəd əhəmiyyətsiz şeylərdir. Çünki hamımız biliriz ki, Denikinin çalışdığı, Rusiyanı təzədən əvvəlki sərhədi daxilində həyata gətirməkdir. Bu fikrində, bu əməlində müvəffəq olub Rusiya hürriyyətini boğarsa, şübhəsizdir ki, Denikinin axırkı zərbəsi yenə Azərbaycan üzərinə endiriləcəkdir. Ona görə, o vədlərə inanmayıb, gərək şərtnaməmizi daha da möhkəmləşdirərək və nəinki böylə hərbi müdafiə etilafı əqd etmək, bəlkə gələcəkdə qonşu demokratiya ilə bilmərrə birləşək. Əgər bu etilafnamə möhkəmləşməsə, o halda təhlükə daha da artar. Binaənileyh [ona görə], Gürcüstan ilə aramızda bağlanmış əqdnaməni möhkəmləşdirməli və üçüncü demokratiyanın da bu ittifaqa daxil olmasına çalışmalıdır. Bilməlidir ki, bizim istiqlalımız paydar [əbədi] olar ancaq bu cür etilaflar ilə, dünya sülh və etilafı ilə. Şimdi bu iki demokratiyanın birləşməsi gələcəkdə sairləri ilə və bütün dünya demokratiyası ilə etilafa girişmək, birləşmək üçün bir müqəddimədir. Ona görə, yaşasın Azərbaycan demokratiyası! Yaşasın Gürcüstan demokratiyası! Yaşasın gələcəkdə bizimlə birləşəcək olan erməni demokratiyası! (Alqış)

**Əfəndizadə H[acı] H[üseyn] (Əhrar)** - Bugünkü günün bizim üçün tarixi əhəmiyyəti var. Çünki xaricdən vətənimizi təhdid edən bir təhlükə qarşısında qonşumuzla etilafa gəldik. Bu etilafnamə bizim daima bəsləməkdə olduğumuz arzunun birinci səmərəsidir. Ümidvaram ki, gələcəkdə aramızda daha geniş, daha böyük etilaflar, ittifaqlar əmələ gələcək və türk milləti ilə gürcü milləti hər bir barədə birləşəcəkdir. Bu etilafnamənin Xariciyyə Nəzarətimiz üçün daha başqa bir əhəmiyyəti də var ki, istiqlalımızı möhkəmləşdirmək, hər hala qarşı müdafiə etmək uğrunda çarələr düşünüldüyünü, tədbirlər görüldüyünü bildirir. Məlumdur ki, istiqlal elan etmiş olan ümum demokratiya və əlalxüsus Azərbaycan demokratiyası bu rəydədir ki, hürriyyət və istiqlalını hər vasitə ilə olur-olsun, hanki qüvvə müqabilinə olur-olsun müdafiə etməlidir. Məlumdur ki, bu da təklikdə çətin mümkün olar. Heç millət özünü təkbaşına müdafiə edə bilməz. Odur ki, istiqlal və hürriyyəti müdafiə edə bilmək üçün qonşularla etilafa girmək, birləşmək lazımdır. Natiqlərdən birisi Azərbaycandan bəhs edərkən "biz zəif bir millətik" dedi. Fəqət mən deyirəm, xayır! Öylə deyil, biz böyük bir millətik! Lakin gənc bir istiqlala malikiz. Bir qədər keçərsə, gələcəkdə istiqlalımız möhkəmləşər və o vaxt bizim böyük olduğumuz görülər. O gözəl və böyük istiqbala [gələcəyə] və istiqlala ərişmək uğrunda birinci qədəm olmaq üzrə biz bugünkü etilafnaməni səmimi-qəlbdən alqışlayaraq deyiriz: Yaşasın demokratiya birliyi! *(Alqış)*

**Bakradze** (Gürcü) - Xalq nümayəndələri vətəndaşlar! Bu gün təsdiq edilmək üçün bizə böyük tarixi əhəmiyyəti olan bir əqdnamə təqdim edilmişdir.

Tiflisdə Gürcüstan və Azərbaycan cümhuriyyətləri nümayəndələri tərəfindən iyunun 16-da əqd edilmiş olan siyasi-hərbi etilafnamənin hüsn-təsir və nəticələrini və əhəmiyyətini tamamilə təyin etmək hal-hazırda mümkün deyildir. Bu əmrə bəhəqq [layiqli] qiymət qoymaq gələcək nəslin, gələcək müvərrixin [tarixçinin] işidir. Fəqət indi də qəti aydın bir surətdə demək olar ki, iyunun 16-cı günü bundan böylə Zaqafqaziya cümhuriyyətləri tarixində yeni səhifə açan, yeni bab [fəsil] təşkil edən tarixi bir gün, məzkur [deyilən] millətlər həyatında yeni yollar qeyd edici bir tarixi rəhnüma [yol göstərən, rəhbər], Zaqafqaziya demokratiyasını, müqəddəratını qədərləyən yeni bir amil olacaqdır.

Vətəndaşlar! Müahidənamənin [sazişin] bütün maddələrində müşahidə olunan əsasi bir ideyanı məəlməmnuniyyə [məmnuniyyətlə] qeyd etməmək olmaz, o da müahidənamənin hər növ təcavüzkaranə qərəzdən və dövlətlər arasında adətən xalqdan bixəbər və camaat mənafeyi zərərinə olaraq əqd edilən köhnə müahidənamələrin həmişə əhatə edildiyi əsrardan [gizlilikdən] xali olmasıdır.

16 iyun müahidənaməsi isə xalqın gözünün qabağında əqd edilmişdir və nümayəndələri şəxsində xalq onu təsdiq də edə bilər, rədd də. Müahidənamənin böylə dərin demokratikliyi təmin edir ki, nəinki hər iki cümhuriyyətin hökumət başında duran dairələri, bəlkə iki məmləkətin arasında bir əlaqə, bir rabitə təşkil edəcəkdir və hər iki millət həqqi-hakimiyyəti və məsuniyyəti-mülkiyyəsini [torpaq toxunulmazlığını] müdafiə etmək üzrə müahidənamənin əsasına qoyulmuş olan ali prinsiplərin müdafiəsinə idrakla qalxışar. Fəqət bu müahidənamənin üzərində Zaqafqaziya millətlərinin birliyi, həmrəyliyi binası qurula biləcək möhkəm bir özül təşkil edə bilməsi üçün lazımdır ki, kəndi hüquqlarına sui-niyyət bəsləyən düşmənlərdən bu ittifaqı müdafiə etməyi millətlər özləri dərk etsinlər.

Bunun üçün yalnız bir siyasi-hərbi müqavilənamə əqdi kafi deyildir. Öylə şərait hasil etmək lazımdır ki, onun vücudu ilə millətlər təsdiqimizə vəz [təqdim] edilmiş və həman millətlərin mənafeyinin mücəssəməsi olan əqdnaməni müdafiə etmək lüzumunu bittəb [təbii olaraq] tarix və təbiət şövqü ilə dərk etsinlər. Hər iki cümhuriyyətin hökumət dairələrinin nəinki xarici, bəlkə daxili siyasətdə də əlbir olaraq müttəhidən [birgə] çalışması və öylə şərait hasil etməsi lazımdır ki, məzkur cümhuriyyətlərin demokratiyasına iqtisadi, mədəni və siyasi rifahi-halın son dərəcəsi təmin edilmiş olsun. O halda hər iki cümhuriyyətin demokratiyası ümumi bir təhlükə çıxdığı təqdirdə bundan böylə iki qardaş millətin sarsılmaz, möhkəm bünövrəsini təşkil edən mühaidənamənin əsaslarını bilatərəddüd [tərəddüd etmədən] səbatla müdafiə edər.

16 iyun əqdnaməsinin əhəmiyyətindən bəhs edərkən, mən Rəsulzadə Məhəmməd Əmin əfəndinin şimdi burada bəyan etdiyi bir fikri təkrar etmək istərdim.

Burada və Avropada bizim düşmənlərimiz qərəzkaranə bir surətdə şayiə buraxırlar ki, Zaqafqaziya millətləri öz aralarında sülh ilə yaşamağa müstəid [qabil] deyildirlər. Binaənileyh, qəyyuma möh-tacdırlar. ("Tayms" qəzetəsinin mütaliə-ləri).

Vətəndaşlar! Məclisi-Məbusanın bu-günkü təntənəli iclası bu yalanı təkzib etməzmi? Və barı şimdi yalançılar, iftiraçılar ağızlarını yummağa məcbur olmazlarmı?!..

Azərbaycan Cümhuriyyəti daxilində yaşayan və bu gün onun adından bu Ali Məclis hüzurunda danışmaqla şərəfyab olduğum gürcü demokratiyası bu əqdnaməni təbrik və təhniyət edir [qutlayır] və qardaşlıq ittifaqı sayəsində parlaq istiqbal və şərəfli gələcək ümidi verən yeni təriqə təvəssül etmiş [yeni yola addım at-mış] Zaqafqaziya millətləri üçün bu müahidənamədən xeyirli, səmərəli və hüsnnəticələr gözləyir. *(Şiddətli alqış)*

**Qarabəyli Qara bəy** - (İttihad) Əfən-dilər! Bu atılan qədəm məncə, elani-istiqlaldan qabaq atılmalı idi. Zira elani-istiqlal edən millətlər qabaqcadan hanki əsaslara istinad edəcəklərini və hanki qüvvə ilə istiqlallarını müdafiə edəcək və yaşadacaq olduqlarını o vaxtdan düşünməli idilər. Zaqafqaziya cümhuriyyətlərinin böyük xətasıdır ki, bunu o vaxt düşünməmişlərdir. Bu gün biz əgər nəzəri-tədqiqdən keçirsək görəriz ki, Zaqafqaziya millətləri o vaxt ittifaq yapmış olsaydılar və həman ittifaqa qonşu millətlərin həpsi iştirak etsəydi, heç indi bizi təlaşa salan və indi birləşməyə vadar edən amillər olmazdı.

Şübhəsiz ki, denikinlər və sairləri Qafqaziyada böylə bir ittifaq görsəydilər, indi başımıza gələn bəlalar heç başımıza gəlməzdi. Bu gün Şimali Qafqaziyanın başına gələn fəlakəti nəzərə alsaq – ki, heç fərqi yoxdur, bizim öz başımıza gəlmiş hesabdır – görəriz ki, əgər bu ittifaqı qabaqda əqd etmiş olsaydıq və Şimali Qafqaziya millətləri də buraya daxil olsaydılar, yəqin ki, Şimali Qafqaziya Cümhuriyyətinin də başına o fəlakət gəlməzdi.

Binaənileyh, biz bu əqdnamənin nə qədər nöqsanı olsa belə bu gün onu maddə-maddə tənqid etməyəcəyiz. Çünki is-tiqlalı müdafiə məsələsi gəldikdə, cüziyyata [xırdalıqlara] baxılmaz. Hazırda bizim üçün bu ittifaqın varlığı şərtdir. Bu gün bu ittifaqda iqtisadi və maddi mənfəət aramaq xətadır. Zira bizə ancaq o ülvi və müqəddəs məqsəd, bir ittifaq, bir müda-fiə yoldaşlığı lazımdır. Bu nöqteyi-nəzərdəndir ki, bağlanmış olan etilafnamə, qüsuru olsa belə, bizcə məqbuldur və onu tənqidə lüzum yoxdur.

Madam ki, əsrlərdən bəri qonşuluq etmiş, mehriban yaşamış, bir-birini tanımış olan iki millət birləşmək istəyir, biz bu fikri, bu təşəbbüsü təbrik ediriz. Hələ aramızda ittifaq olmayan zaman gürcü milləti ilə Azərbaycan türklərinin dostluqla yaşamış olduqları, bu iki millətin yekdigərinə [bir-birinə] qarşı hiss etdiyi rəfaqət [yoldaşlıq, dostluq] və bu üzdən hasil olan möhkəm zəminə bizi inandırır ki, bu iki millət həmişə müvəffəqiyyətlə müttəfiq olub ittifaqı yaşada bilər. Əqd olunmuş ittifaqı bütün qəlbimizlə təbrik ediriz. Ancaq ittifaqa daxil olmayan üçüncü millətə də tövsiyə ediriz, bir an əvvəl daxil olsun, çünki kənarda durmaqla o millət bizə deyil, özünə zərbə vurmuş olur, çünki ümum arasında bəhs edilən ittifaqimiləl ya Cəmiyyəti-Əqvam [Mil-lətlər İttifaqı] baş tutmaz bir puç şeydir. Avropanın əski çürük siyasəti həmişə baş-qalarının vətənini istila, xırda millətləri qəhr və məğlub etməkdən ibarət ikən, əmin olsunlar ki, avropalılar öz xoşuna yenə heç kəsə, heç millətə bir şey verməzlər, verməyəcəklərdir də. Bu vaxtadək təcrübə göstərir ki, ancaq elani-hüquq etmiş və onu müdafiəyə çalışmış olan millətlər haqq və hüquq almışlardır. Ümid etmək ki, avropalılar heç kəsə heç zad vermədikləri halda bəzilərinin qara gözünə aşiq olacaq, onların istədiklərini verəcəkdir, buna inanmaq, ümidvar olmaq böyük səhvdir. Avropalılar ancaq öz xeyirlərini, öz mənfəətlərini axtarırlar. Odur ki, onlara ümid bağlayanlar yanılırlar. Binaənileyh, yatanlar ayılmalı, aldananlar anlamalıdırlar. Bu gün Gürcüstan ilə Azərbaycan arasında etilafnamə əqd edilməsi göstərir ki, biz iki millət və bizim hökumətlərimiz öz mənfəətlərini dərk etmiş, dərdlərini və onun çarəsini anlamış, necə əlac etmək lazım gəldiyini bilmişlərdir. Ona görə, biz bu ittifaqı səmimi-qəlbdən təbriklə ümid ediriz ki, ən yaxın zamanda ümum demokratiyanın köməyi ilə Dağıstan dəxi yenidən istirdad [xilas] edilər. Şimdi biz daxili işlərimizi, mübahisələrimizi sonraya buraxalım da ümum cahana elan edəlim ki, Azərbaycan həmişə sülhcu [sülh istəyən] olmuş, asayiş və müsalimət [əmin-amanlıq] axtarmışdır və bu siyasətində də davam edir. Gürcüstan ilə bağlamış olduğumuz ittifaq məhz tədaföyi [müdafiə xarakterli], təcavüzdən uzaq bir demokratik ittifaqdır və buna daxil olmayanlar demokratik üsullara yanaşmaq istəməyənlərdir. *(Al-qış)*

Nitqlərdən sonra böylə bir təklif varid [daxil] olur:

*"Azərbaycan Məclisi-Məbusanı Tiflis-də iyun ayının 16-da Azərbaycan Höku-məti nümayəndələri ilə Gürcüstan Hökuməti nümayəndələri arasında bağlanmış olan siyasi və tədaföyi müahidənaməni təsvib [bəyənir] və təsdiq edir."*

Təklif müttəhidül-rəy [yekdilliklə] qəbul olunur. Məclis ayağa qalxaraq nəhayət dərəcə şiddətlə alqışlayır. "Bravo!" sədaları və gurultulu alqış salonu doldurur. Axırda rəis həzrətləri ayağa qalxaraq şu nitqləri ilə məclisə xitam verirlər.

**Ağayev Həsən bəy** - (Rəis) Möhtərəm məbuslar! Bu gün Azərbaycan-Gürcüstan etilafnaməsini bütün firqə və millətlər müttəhidül-rəy qəbul və təsdiq etməklə isbat etdilər ki, ümum Azərbaycan demokratiyası bilafərqi-din, dil və məsləki-siyasiyyə [din, dil və siyasi əqidə fərqi olmadan] Azərbaycanın müqəddəratını və qonşu millətlərin və ümum Məvərayi-Qafqaziyanın [Zaqafqaziyanın] müqəddə-ratını gürcü və ermənilərlə bərabər təyin və müdafiə etmək istəyirlər.

Burada natiqlərin hamısı söylədilər və mən bütün qəlbimlə bu rəyə iştirak edirəm ki, ümidvar olmalıdır üçüncü millət dəxi tək yaşaya bilməyəcəyini və hürriyyət və istiqlalını təklikdə müdafiə edəmməyəcəyini anlar, bu ittifaqa daxil olar. O vaxt bu millətlər müttəfiqən yaşar, lazım gördükləri müqavilənamə və ittifaqları əqd edib bu surətlə hürriyyət və istiqlallarını ümumi qüvvə ilə müdafiə edərlər.

Əlbəttə, bu vaxtadək gürcülərlə bizim aramızda ticarəti, iqtisadi əhəmiyyəti haiz [əhəmiyyət daşıyan] müqavilənamələr əqd edilmişdir. Məsələn, bu yaxınlarda əqd etmiş olduğumuz post-teleqraf müqavilənaməsi. Fəqət bu onlara bənzəməz. Biz həmişə öz səadət, hürriyyət və istiqlalımızı düşünərək bir an onları unutmadan, möhkəmləşməsi və müdafiəsi üçün hər tədbirlər görmüşüz, təşəbbüsatda bulunmuşuz. O cümlədən bu gün təsdiqinizə vəz edilən müqavilənamə əqd olunmuşdur. Bundan böylə də biz daima böylə təşəbbüsatda bulunacağız. Şimdi mən gürcü nümayəndələrinin Məclisi-Məbusanımızda isbati-vücud [iştirak] etmələrindən bilistifadə [istifadə edərək] ayağa durub dübarə təbrik etmənizi təklif edirəm.

*(Bütün heyət ayağa qalxır. Diplomasi lojaya mütəvəccihən [üz tutaraq] uzun-uzadı alqışlar gurultusu salonu doldurur. Gürcü nümayəndəsi ayağa qalxaraq kərratla [dəfələrlə] təzim edir. Alqış şiddətlənir və davam edir.)*

**Ağayev H[əsən] b[əy]** - Şimdi iclası qapanmış elan edirəm.

*(Yenə şiddətli alqışlar.)*

## TELEQRAF XƏBƏRLƏRİ

**Dabravol generalı Natiyevin qətli**

Batum - General Denikinə müavinət olmaq üzrə Batumda Dabrovol dəstəsi təşkil edən general Natiyev və onun acudanı [adyutantı] naməlum bir şəxs tərəfindən qətl edilmişdir. Qatil gizlənmişdir.

**Bolşevik kruvazerinin qərqi**

Novoçerkassk - Şura hökuməti radiosu xəbər verir ki, Tolbuxin dairəsində ingilis sualtı qayığı tərəfindən bolşeviklərin "Oleq" kruvazeri [kreyseri] qərq edilmiş-dir.

Yekaterinodar - Moskvadan xəbər ve-rilir ki, Şura iclasında Trotski bir nitq irad edərək [söyləyərək], Ukrayna ilə Krımın itirilməsi əhəmiyyətini heçə endirmək istəmişdir. Bir çox matrosların xəyanət etdiyini də bildirmişdir. Belə ki, bunlar ən böhranlı bir zamanda şimal tərəfə getmişlərdir. Matroslardan çoxusu inqilab ordusunu tərk etmişlərdir.

Lenin hərarətli bir nitq iradıyla demişdir ki, hiss edilməkdə olan fəlakətə göz yummaq olmaz. Edilən səhvləri etiraf etməklə bərabər, onları islah üçün tədbirlər aramalıdır. Biz əldən gəldiyi qədər çalışdıq. Təəssüf olsun ki, əhali bizi başa düşmədi. Törəmiş olan əhval barəsində ciddi fikirləşmək lazımdır və ondan çıxmaq üçün vasitə tapmalıdır.

İclasın axırında Rozenfeld də gəlmişdir. Bunun iştirakı ilə axşam saat 6-yadək örtülü iclas vaqe olmuşdur.

Şimali cəbhəyə yaxın dairələrdə söylənir ki, Skandinaviyada Rozenfeld vəzifəsinin ifasında müvəffəqiyyətsizliyə düçar olmuşdur.

- Omskdan xəbər verilir ki, Kolçak ordusunun Perm dəmiryolu şimal tərəfindən Vyatka üzərinə yürüşü müvəffəqiyyətli surətdə davam edir.

**Çində üsyan**

Kantonda Yaponiya əleyhinə olan üsyanı yatırtmaqdan ötrü Yaponiya hərbi gəmiləri Kantona əzimət eyləmişdir [yola düşmüşdür]. Orada olan üsyan ümumən əcnəbilərin əleyhinə çevrilmək üzrədir.

- Gündən-günə Kronştadtın süqutu gözlənmək üzrədir.

- Mançesterdə olan İşçilər Konfransı parça fabrikalarında zühuru gözlənilən tətilə qarşı bir şey yapa bilməmişlərdir. Əmələlər [fəhlələr] demişlər ki, işlərin dayandırılması müddəti sabah qurtarır. Bu gün günorta zamanı hamı parça fabrikalarında tətil elan edildi. 60 milyon maşın dayanmışdır. Mançesterdə həyat dayanmışdır. Fabrikaçılar yeni qiymət qoymaqdan imtina edirlər.

## SÜLH ƏTRAFINDA

Almanların sülh müahidənaməsini [sa-zişini] imza etmək qərarını Versalda fon-Haniel Müttəfiqlərə bildirmişdir. Londonda isə əhvalat axşam məlum olmuşdur. Həman gün orada bayram saxlamaq istəmişlərdir. Fəqət əksəriyyət bayram saxlamağı başlamağı rəsmi hökumətdən gözləmək tərəfdarı olmuşdur.

Vulviç cəbbəxanasından atılan toplar ümuma sülh müahidənaməsi imza edildiyini bildirmişdir. Zənn edilir ki, 1871-ci ildə Fransa tərəfindən imza edilən salonda şimdiki müahidənamə imza ediləcək-dir. Almaniya gəmilərinin qərq edilməsinə əmr verən Almaniya admiralı fon-Royter İnverness yaxınlığında olan Piqə gətirilmişdir. O, Hərbi Bəhri məhkəmə [Hərbi Donanma məhkəməsi] tərəfindən mühakimə ediləcəkdir. Səbəbi mütarikəni xələldar etdiyidir [atəşkəsi pozduğudur]. İngilis Ərkani-Bəhriyyəsi [Donanma Qərargahı] zənn edir ki, bütün günahlar fon-Royterdədir.

Berlindən mütarikənin xələldar edildiyini xəbər verirlər. Sülh maddələrinin birində denilir ki, 1870-ci ildə Alman-Fransız müharibəsində fransızlardan alınmış olan bayraqlar Fransaya qaytarılmalıdır. Dünən səhər bir neçə Almaniya studentləri [tələbələri] Berlin cəbbəxanasına gələrək həman bayraqları odlayıb yandırmışlardır.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 3 iyul (Cümə axşamı günü) tarixli 215-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Müttəfiqlərin Rusiya politikası**

London – İngiltərə Avam Kamerasında müstəqil liberallar lideri hökumətdən Müttəfiqlərin Rusiya siyasəti barəsində izahat tələb etdiyindən, Vinston Çörçill cavab verməşdir ki, Müttəfiqlərin Rusiya işlərinə müdaxilə etmələri ona əhəmiyyət verildiyi dərəcədə deyildir. Bundan sonra hərbi cəhətdən Rusiya işlərinə Müttəfiqlərin müdaxiləsi tərk ediləcəkdir. Qafqazda və Sibiriyada ingilis qoşunları bolşeviklərlə mübarizə etməyirlər. Admiral Kolçaka yalnız ləvazimi-hərbiyyə [hərbi ləvazimat] verməklə qənaət edilir. Kolçak hökuməti təşkilindən məqsəd Rusiyanın nemeslər əlinə keçməməsidir. Ona görə də, Kolçakı müavinəti - hərbiyyədən məhrum etməyi xəyala belə gətirmək olmaz. İngilislər Rusiyada 7 ayın müddətində 294 nəfər tələfat vermişlərdir. Rusiyada əməliyyat siyasi nöqteyi-nəzərlə icra edilir.

- Rəsmi surətdə xəbər verilir ki, Skapa-Flouda olan bütün Almaniya kruvazeri və zirehliləri, "Baden" zirehlisi müstəsna olmaq üzrə, qərq edilmişdir. Almaniya admiralı və nemeslərin əksəriyyəti ingilis gəmilərində həbsdədirlər. Bir neçə alman lodkaları ingilislərin əmrlərinə itaət etmədiklərindən, onlara atəş açılmışdır. Almanlardan ölən və yaralananların miqdarı azdır. Mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə, bu gəmilərdə bir qədər nemeslər qalmışlar imiş. Qərq edilən paroxodlar 70 milyon ingilis lirəsi qiymətindədir.

**Almaniya mətbuatı və sülh**

Almaniya qəzetələri sülh müahidənaməsinin [sazişinin] imza edilməsini tənqidlə bəyan edirlər ki, Veymarda Rəisi-vükəla [Baş nazir] [Qustav] Bauer tərəfindən bəyan edilən maddələrə onlar razıdırlar ki, biz köməksizik, lakin şərəfsiz deyilik. Qəzetələr ümumən deyirlər ki, indiki sülh müahidənaməsi gələcək Avropa müvazinəsi üçün çox xətrəlidir [təhlükəlidir].

"Kreysçaytunq" qəzetəsi yazır ki, inqilab, zənn edilirdi ki, Almaniya əhalisinə azadlıq verəcəkdir. Amma həqiqətdə isə Almaniya əhalisini əsarətə saldı.

"Forverts" qəzetəsi yazır: Almaniyanı sülhü imza etməyə vadar edən təcavüz bu əmri qiymətdən salır. Versal sülhü ancaq təcavüz üzərində əsaslanmışdır. Nə qədər ki, təcavüz davam edəcək, o vaxtadək də bu müahidənamə davam edəcəkdir. Heç şübhəsiz, Almaniya üçün nicat saatı yetişəcəkdir. Veymarda olan dünkü qətnamə Almaniya milləti üçün axırıncı bir şey deyildir.

## QƏZETƏLƏRDƏN

**İrlandiyada**

İtaliya qəzetəsinin London müxbiri xəbər verir ki, İrlandiya böyük hadisələr qarşısındadır. Bütün məmləkət mühasireyi-əsgəriyyə altına alınmışdır. Dublində hərbi gəmilər hərəkət etməkdədirlər. İngiltərə hərbi qüvvələri İrlandiya inqilabçıları tərəfindən işğal edilən İrlandiya limanlarına hərəkət edirlər. İrlandiya fəhlələri də bu hərəkata mülhəq olmaqdadırlar [qoşulmaqdadırlar].

**İtaliyada tətil**

İyun ayında çıxan İtaliya qəzetələri İtaliyanın bir çox şəhərlərində tətillər başlandığı xəbərini verirlər.

**İzmir işğalı əleyhinə protesto**

Bandırma şəhərinin müsəlmanları bu şəhərin 80 min müsəlman əhalisi namından İngiltərə kralına və Fransa rəisi-cümhuruna teleqrafla müraciət edib, İzmirin işğalı əleyhinə ciddi surətdə protesto etmişlərdir. Onlar İzmir şəhərində əhalinin əksəri müsəlman olduğunu göstərib izhar edirlər ki, yunanlılar tərəfindən icra edilən qətllər müsəlmanların narazılığına mövcib olub, bütün islam aləminin zalımlar əleyhinə qalxmasına səbəb olar. Onlar müəzzəm [böyük] dövlətlərə müraciət edib, İzmirin qəti surətdə işğalına imkan verməməyi xahiş edirlər.

**Belqorod alınmışdır**

Alınan xəbərlərə görə, Kursk quberniyasında Belqorod şəhəri Dabravol əsgərləri tərəfindən işğal edilmişdir. Bununla da, müharibəsiz təslim olan Xarkov şəhərinin müqəddəratı həll edilmişdir.

**Dvinskin alınması**

Kopenhaqdan [Kopenhagendən] xəbər verirlər ki, Dvinsk şəhəri latış və ağ qvardiya əsgərləri tərəfindən işğal edilmişdir.

**Polşa-Litva ittifaqı**

Varşavadan xəbər verirlər ki, Polşa-Litva əsgərləri dostanə ittifaq bağlamışlar ki, bolşeviklər əleyhinə bir yerdə müharibə hərəkatı aparsınlar.

**Albaniyada**

Duraççoda, Beratda, Elbasanda, Şkodrada və qeyri şəhərlərdə Albaniyanın vahid və müstəqil olması ilə Yunanıstan və Serbiya təhti-ixtiyarında [tabeçiliyində] olan milli yerlərin qaytarılması üçün böyük nümayişlər olmuşdur. Nümayişçilər Əsad paşanın hərəkətlərini ləkədar etmişlərdir. Sonninoya, rəisi-cümhur Vilsona və Turhan paşaya teleqraflar göndərilmişdir.

**Sosialistlər ictiması**

Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Amsterdamda bütün cahan beynəlmiləl sosialistlərinin təzə ictiması [yığıncağı] vaqe olacaqdır. Amerikalıların da iştirak edəcəyi gözlənir.

**Bib Dodanın qətli**

Valonidən alınan xəbərlərə görə, Əsad paşanın partizan dəstəsi tərəfindən Mirdit tayfasının məşhur başçısı və Albaniya istiqlaliyyətinin tərəfdarı Bib Doda qətl edilmişdir. Məqtulun [qətlə yetirilənin] axırıncı arzusu vətənin müstəqil və azad olması idi.

**Moskvadan axırıncı xəbərlər**

İyunun 22-də Baxmutdan teleqrafla xəbər verirlər ki, hal-hazırda Moskvada Şura hökumətinin axırıncı günləri olduğunu aşkara söyləyirlər. Şəhərdə əhval ciddidir. Hər yerdə Şura hökuməti hərəkatını tənqid edirlər. Moskva şəhəri bir müharibə meydanına oxşayır. Uca evlər üstünə pulemyotlar qoyulmuşdur ki, nümayiş edənlərə atsınlar. Meydanlarda toplar qoyulmuşdur. Kreml qala halına salınmışdır. Etibarsız əsgəri dəstələr Moskvadan cəbhəyə aparılırlar. Moskvaya etibarlı kommunist dəstələri gətirilir. Xalq Komissarları Şurasında təbəddülat [dəyişiklik] olacağı şayiələri artmışdır. Belə rəvayət edirlər ki, bütün Şura heyəti geniş vəkalətlə diktatura ilə əvəz ediləcəkdir.

## XARİCİ SİYASƏTİMİZ

**- 1-**
**Qüvvəli istiqlal**

Dünyada hər bir dövləti təşkil edən üç amildir: torpaq, millət və hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil bir məmləkətdir. Lakin məmləkətlər arasında fərqlər çoxdur. Məsələn, köhnə Avstriya-Macarıstan dövləti ilə Almaniyanı müqayisə edək. Tərzi-idarəsindən başqa, bu iki dövlətin əsl mahiyyətində böyük fərqlər görünür. Almaniyanın tam əksəriyyətini təşkil edən alman milləti olduğu halda, Avstriya-Macarıstanda cürəbəcürə millətlər yaşayırdı. Onun üçün səlamətimülkiyyə Almaniyada Avstriya-Macarıstandan çox idi.

Ola bilər ki, bir məmləkətdə daxili müsalimət [əmin-amanlıq] çox millətlərin vücudu ilə də təmin olunsun. Bu halı Şimali Amerika Cəmahiri-Müttəhidəsində [Birləşmiş Ştatlarında] görürük. Dürlü millətlər vətəni olan bu cümhuriyyət ən sağlam bir idarəyə istinadən xoşbəxt yaşayır və xalqının rahat və istirahətini təmin edərək rəğbətini qazanır. Bunun səbəbi isə uca bir idarə, gözəl bir qanundadır.

Bir tərəfdən ədalətli idarə, o biri tərəfdən qüvvətli bir mədəniyyət məmləkətdəki bütün millətləri yoğurub bir qəlibə salır. Hər kəs ümumi vətənini sevir və onun mədəniyyətini qeyri-məcburi bir halda alır.

Türk idarələrində ən qədimdən bəri istila olunmuş millətlərə qarşı bir ədalət yeridilmişdir. Heç bir millətin daxili işinə qarışılmamış. On ikinci əsrdə qərbə doğru axıb gələn tatar qüvvələrinə nə qədər vəhşilik istinad etmək istəmişlərsə də, bitərəf müvərrixlər [tarixçilər] tatarların da idarəsinin ədalətli olduğunu inkar etməyirlər. Neçə əsr Rusiyanı hökmü altında saxlayan tatar rus millətinin daxili işlərinə qarışmadı. Dini və milli məsələlər tatar hakimiyyətindən kənarda qaldı.

Eyni halı Osmanlı idarəsində də görürük. Ermənilər, bolqarlar, rumlar (qreklər), serblər və başqaları milli və dini məsələlərində asudə idilər. Ancaq Türkiyə Amerika kimi qəvi [güclü] bir mədəniyyətə malik olmadığı üçün əlinin altındakı millətləri yoğurub bir şəklə sala bilmədi. Türkiyədə sakin bütün millətlər ümumi məmləkət mədəniyyətindən ayrılıb, öz milli mədəniyyətinin inkişafına çalışdılar. Türkiyədən faydalanmaq istəyən avropalılar da bu millətləri tutmağa başladılar.

Avropa mədəniyyəti Türkiyəyə ən əvvəl məhkum millətlər vasitəsilə girdi. Müstəbid sultanlar, cahil "alimlər", hürufat müşkülatı [əlifba çətinliyi], Şərq tənbəlliyi Avropa mədəniyyətinə tərəfi-müqabil gəldisə də, yalqız müsəlmanlar bu mədəniyyətdən məhrum qaldılar. Xristianlar isə tərəqqi etdilər. İş bu yerə gəldi ki, xristianlar çürük türk idarəsindən bezməyə üz qoydular. Türkün münəvvər [ziyalı] qismi də bunlara qoşulub inqilab doğurdular.

Əski Rusiya dövləti də çox millətlərdən ibarət idi. Burada əksəriyyət təşkil edən velikoruslardan başqa, finlər, estonlar, latışlar, litvalılar, polyaklar, beloruslar, moldavanlar, ukraynalılar, gürcülər, ermənilər, türk-tatarlar və yəhudilər də var idi. Rusiya ən fəna bir idarəyə malik idi. Velikoruslar hakim millət sanılırdı. Başqalar isə məhkum idilər. Hakim millət öz din və milliyyətini məhkum millətlərə cəbrən [zorla], istibdad təriqi [yolu] ilə qəbul etdirmək istəyirdi. Məhkumlar da bunu duyaraq rus mədəniyyətinə alışmaqdan çəkinirdilər. Rus idarəsi öz mədəniyyətini sərf etməkdə də xəsislik edirdi. Məhkum millətləri həmişə qaranlıqda saxlamağa çalışırdı. Bunun üçün məhkumlarla hakim arasında daimi bir uçurum olduğu hiss olunurdu. Böyük inqilab rəsmi pərdəni qaldırdı və uçurumu bütün aləm gördü.

Uçurumun bir tayında bir Azərbaycan da meydana çıxdı. Bu məmləkət mövhum [xəyali] bir ölkə, süni bir qitə deyil, bura tarixdə ad qoymuş və istiqlaliyyətini neçə əsr əvvəl qaib etmiş bir dövlətdir.

On ikinci əsri-miladidə atabəy Şəmsəddin Eldəniz indiki Qafqaz və İran Azərbaycanını bitişdirdi, bir məmləkət şəklinə saldı. Atabəy Nəsrəddin Əbubəkr bin Cahan Pəhləvan Aranda, yəni indiki Qafqaz Azərbaycanında və əsl Azərbaycanda 20 il səltənət sürübdür.

Bugünkü Azərbaycan ən sağlam vücuda malikdir. Burada tam əksəriyyəti təşkil edən Azərbaycan türküdür. Bu millətin özünəməxsus bir mədəniyyəti var. Mədəniyyətimiz o qədər qüvvətlidir ki, bizdən başqa, qonşularımızı təsiri altında saxlayıb və saxlamadadır. Dilimiz Qafqazda, Xəzər arxasında və Şimali İranda ümumi bir dildir. Bu dildə Dağıstan qövmləri [xalqları], ermənilər, bir çox gürcülər və rus mühacirləri danışırlar. Musiqimizdən və teatromuzdan qonşularımız da faydalanırlar. Milli operalarımız vətəndən dişarıda da şöhrət tapmağa başladı.

Bu hallar mədəniyyətimizin qüvvətliliyinə dəlildir. İndiyə kimi biz məhkum idik, lakin mədəniyyətimiz hakim idi, yəni qeyri-məcburi olaraq qonşularımız arasında yayılırdı. Bundan sonra ehya olunmuş [dirildilmiş] istiqlaliyyətimiz sayəsində mədəniyyətimiz geniş meydan alacaqdır.

Böyük türk irqinə mənsub olduğumuz üçün türk idarəsinin ədalətini saxladıq. Bu gün vətənimizdəki xırda millətlər bizimlə bərabər yaşamadadırlar, bunların hüququ heç bir qanunla təhdid olunmayıb [məhdudlaşdırılmayıb] və olunmayacaqdır. Ədalət hökmranlığını daimi surətdə təmin etməyə çalışılacaqdır.

*(Mabədi var)*

*Yusif Vəzirov*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan sülh heyəti**

İtaliya paytaxtı Romadan mayısın 5-dən Azərbaycan sülh heyəti rəisi Əlimərdan bəy Topçubaşov həzrətlərindən bir məktub alınmışdır. Məktubda heyətin Parisə azimət etməsi [gedişi] təsvir edilmiş-dir.

Aprelin 22-də heyət İstanbuldan İtaliya vaporu [gəmisi] ilə Səlanik-Afina-Mesini təriqi [yolu] ilə aprelin 30-da Neapola gəlmişdir. Heyət mayısın 2-də Romanı ziyarət edərək, 4-də Parisə azimət etmişdir. Heyətin ruhu yüksək olduğu kimi, üzvlər də, ümumiyyətlə salamatdırlar. Heyət uzaq ölkədən sevgili Azərbaycana salam göndərməklə ən yaxın zamanda Avropanın qanuni hüquqlarını təsdiq xəbərini vətənə gətirəcəklərinə itminan [inam] bəsləyirlər.

**Məclisi-Məbusan üzvünün əziməti**

Dünən hökumət tərəfindən erməni qurultayında isbati-vücud [iştirak] etmək üçün Məclisi-Məbusan üzvü Şəfi bəy Rüstəmbəyov Qarabağa azim olmuşdur [yo-la düşmüşdür].

**Lənkəranda**

Bakıda alınmış xəbərlərə görə, Lənkəranda Muğan əhli və Ramazan dəstəsi ilə bolşeviklər miyanında [arasında] qanlı müharibələr davam etməkdədir. Müharibə şəhərin küçələrində olur. Bolşeviklər şəhərin şimal cəhəti – şəhər bağındadırlar.

**Tağıyev fabrikası**

Ticarət və Sənaye Nəzarəti mühəndis Pekarskiyə tapşırmışdır ki, Tağıyev fabrikasının fəaliyyətinin [dayanması] səbəbini məhəllində [yerində] təhqiq və təftiş etsin. Mühəndisə tapşırılmışdır ki, fəaliyyəti qalxızmaq üçün lazım olacaq vəsaitin bulunmasına da çalışsın.

**Sabunçuda "Təməddün" məktəbində**

Yekşənbə [bazar] günü iyun ayının 30-da Sabunçu "Təməddün" məktəbində eydi-fitr [Ramazan bayramı] münasibətilə görüş məclisi tərtib verilmişdi. Məclisə bir çox iranlılardan başqa, Hacı Şeyx Əbdüləhəd cənabları, pristav Qulam bəy cənabları, Ağdamski Əhməd bəy cənabları və bir qədər də sabunçululardan təşrif gətirmişdilər.

Abbas xan cənabları millətimizin istiqbalına [gələcəyinə] ümid bəslədiyini izhar edib, bu kimi təşəbbüsati-xeyriyyənin başlanıb tərəqqi etməsindən böyük faydalar görüləcəyinə əminəm, deyə təəssüsati-xeyriyyəyə camaatı tərğib və təhris buyurdular [xeyirli quruluşlara camaatı rəğbətləndirdi və təşviq etdi] və nifaqın məzərratından [zərərlərindən] və birlik mənafeyindən bəhs edərək, gələcəkdə milli ehtiyacatımıza müavinətdə bulunmağın lüzumundan və həmişə veriləsi ianənin məktəb mənfəətinə məxsus olmaq üzrə müavinət etmələrini təklif etdi.

Hazirun [orada olanlar] kamali-məmnuniyyətlə məzkurun [adı çəkilən şəxsin] təklifini qəbul edib, hər vaxt lazım olarsa ianə verəcəklərini vəd etdilər.

Abbas xan cənabları, dübarə gözlərini yaşla doldurub "Həzərat, sizi Allah, bir insaf edin o balalara ki, ata-anası başının ağrımasına razı olmazdı, indi insafdırmı o əziz olan balalar bir parça çörəkdən öt-rü küçə və bazarda səfil-sərgərdan dolanıb buna-ona əl açsınlar" dedi və bizə əvvəlbəəvvəl bir darüləcəzə [möhtaclar evi] açıb fəqir-füqəralarımızı himayət etmək lazım olduğunu bildirdi. Abbas xan cənablarının sözləri məclisdə olanlara öylə bir təsir etdi ki, kəsrəti-təsirdən [təsirin çoxluğundan] bəzilərinin gözlərində sirişk [yaş] zahir idi.

Xülasə, Hacı Şeyx Əbdüləhəd cənabları bir xütbeyi-bəliğ oxuyub [təsirli bir nitq söyləyib] və bir neçə kəlmə ayeyi-Qurani-məciddən tilavət buyurandan [oxu-yandan] sonra təfsir [şərh, izah] edib, camaatı elmə tərğib və təhris buyurub, məclis saat 12 tamamda xətm oldu.

*Heyəti-idareyi - "Təməddün"*

## AZƏRBAYCANDA

**Xaxolların hərəkəti**

Cavad qəzası Biləsuvar nahiyəsinin Bəylərbəyi qəryəsi [kəndi] əhli Poladxan Lütfulla oğlu qubernatora bir ərizə verərək xaxollar tərəfindən qarət edilib və qardaşının öldürülməsindən şikayət və xaxolların böylə hərəkatına hədd qoyulmasını ciddən rica və arzu etmişdir.

**Quldur dəstəsi**

Qaziyan kəndi camaatı öz vəkilləri vasitəsi ilə Bakı qubernatoruna bir ərizə verərək Göyçay uyezdində axır vaxtlar qətl-qarət şiddət etməsindən şikayətdə bulunmuşdur. Məzkur uyezddə [deyilən qəzada] Mürsəl Tağı bəy oğlu bir quldur dəstəsi təşkil edib əhaliyə nəhayət dərəcədə əziyyət və azar edir. Qaziyan yüz-başısı Məhəmmədəli bəy Ələkbər bəy oğlu dəxi quldur dəstəsinə və onun rəisinə kömək edir.

**İvanovka camaatının ricası**

Göyçay uyezdi İvanovka kəndi əhalisi xristianlar Bakı qubernatoruna ərizə ilə müraciətən Dövləti Müdafiə Komitəsinin qərardadı mövcibincə [qərardadına əsa-sən] onlardan silah alınmasını məlum edərək, məzkur kəndin müsəlman və er-məni kəndləri arasında olduğundan daima xof və xətrə [təhlükə] altında olub və özlərinin bu vaxta qədər Azərbaycan Hökumətinə sadiq qalaraq və lazım olarsa kömək edəcəklərini göstərməklə, onlardan silah alınması binagüzarlığının [sərəncamının] ləğv edilməsini rica etmişlərdir. Qubernator məzkur qərardadın bir tək onlara aid olmadığını bəyanla, böylə xahişin qəbul edilməyəcəyini məlum etmişdir.

**Gilandakı azərbaycanlıların nüma-yəndələri**

Gilanda sükunət edən [yaşayan] Azər-baycan təbəələrinin üç nəfərdən ibarət nümayəndələr heyəti Bakıya varid olub [gəlib], hökumət hüzurunda Gilandakı azərbaycanlıların mülk, əmlak və heysiyyətlərini mühafizə etmək üçün oraya bir nəfər nümayəndə təyin edilməsi xüsusunda iqdamatda [təşəbbüsdə] bulunmuş-lardır. Heyətə Rəhim xan Xəlilov, Kərbəlayı Məhəmmədbağır Əliyev və Ağabala Əlizadə daxil olub, azərbaycanlıların ümumi iclası tərəfindən intixab edilmişlərdir [seçilmişlər].

**Gədəbəy əmələlərinin tətili**

Gəncə quberniyasında olan Gədəbəy mis mədənlərinin əmələləri [fəhlələri] iqtisadi tələbatının idarə tərəfindən qəbul edilmədiyindən naşi [ötrü] tətil etmişlərdir. Əmələlər öz tələblərində Bakı mədən dairəsi əmələləri ilə müsavi [bərabər olduqlarını] və onlar qədər məvacib təyin edilməsini təkid edirlər.

## GÜRCÜSTANDA

**Fəhlə Vəkilləri Syezdi**

Tiflisdən teleqrafla xəbər verirlər ki, Zaqafqaziyada Fəhlə Vəkilləri Syezdi dəvət edilməsi məsələsinə baxmaqdan öt-rü iyunun 26-da Tiflis Əmələ Vəkilləri Şurasının ictiması [yığıncağı] olmuşdur. İctima dəvət edilməsi fikrini Bakı Fəhlə Konfransı nümayəndələri müdafiə edirmişlər. Uzun müzakiratdan sonra iclas Zaqafqaziya Vəkillər Şurası dəvət etməməyi qərara almışdır.

**Qafqaziya Konfransı**

Ermənistan hökuməti Zaqafqaziya Konfransı məşğuliyyətlərinin yenidən başlanması təklifini etmişdir. Bu münasibətlə Ermənistan Xariciyyə naziri [Sirakan] Tiqranyanın Tiflisə gəlməsi gözlənir. Ümid olunur ki, yaxında Azərbaycanla Gürcüstan arasında əqd edilmiş etilafnaməni ermənilər dəxi qəbul edərək, onlar da ittifaqa daxil olacaqlardır.

**Firqə konfransı**

Tiflisdə iyulun 5-nə Firqə konfransı təyin edilmişdir. Alınan xəbərlərə görə, bu konfransdan məqsəd nasional-demokrat, radikal-demokrat və bitərəflər ittifaqını birləşdirməkdir. Konfransın birinci işi ümumi məramnamə hazırlamaq olacaqdır.

**Tiflis Darülfünunu və Yekaterinodar**

Yekaterinodar şəhəri öz vəkilləri vasitəsilə xəbər vermişdir ki, Rus Darülfünunu Tiflis şəhərində saxlanarsa, Tiflisə 2 milyon yarım təxsisat [pul] verməyə ha-zırdır.

**Gürcüstanla Azərbaycan etilafnamə-sinin təsdiqi**

İyunun 22-də vaqe olan Gürcüstan Məclisi-Müəssisanının fövqəladə iclası müttəhidül-qövl [yekdilliklə] böylə bir qətnamə qəbul etmişdir:

*"Gürcüstan ilə Azərbaycan arasında əqd edilən etilafnamə təsdiq edilir."*

Qətnamə elan edildiyi zaman sürəkli və şiddətli alqışlar olmuşdur. Azərbaycan və İnquşistan nümayəndələri alqışlarla təbrik edilmişlərdir.

## TEATRO VƏ MUSİQİ

**Suraxanıda teatro**

İyulun 4-də, cümə günü Suraxanı kəndində Benkendorfun şkolasında [məktəbində] Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın nəfinə [xeyrinə] olaraq təntənəli surətdə mövqeyi tamaşaya qoyulacaqdır:

**"Köhnə Türkiyə"**
və
**"Molla Nəsrəddin"**

Biletlər satılır hər gün "Müsavat"ın Suraxanı şöbəsində və oyun günü teatronun kassasında. Tamaşa başlanacaq axşam saat 8 tamamda.

*İtibdir*

Ağ it, belində boz ləkə, qulaqları və quyruğundan başqa hər yeri qırxılmış. Şamaxı yolunun dalında itibdir. Tapan şəxsə 300 manat bəxşiş. Bu adresə gətirməli: Gimnaziçeski küçədə tupik [dalan] nömrə 9, ev nömrə 2. İtin adı "Pubsik".

*10266*

**Bəhri-Xəzər dənizində passajir və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çahar-şənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cü-mə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodla-rın gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**İtibdir**

Mirvat Mustafazadənin 2-ci polis idarəsindən aldığı pasportu, "Vastoçnı" Cəmiyyətinin 22-ci körpüsündən 520 pud 20 girvənkə dəmir kuporos (38 boçkada) üçün verilən 322251 nömrəli qəbzi itibdir. Etibardan sa-qitdir [etibarsızdır].

*10260*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olu-nur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

Xırda Neft Mədənçiləri İttifaqı İdarəsi

Bununla İttifaqın üzvlərinə elan edir ki, ittifaqın kontoru Birinci Kannıtepinski və Vorontsovski küçələrinin küncündə (Mərkəzi həbsxana ilə qarşı Atababayevin dəyirmanı ilə bərabər) vaqe olur.

Telefon nömrələri: 9-12 və 28-50.

*10264*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"Ədüvv şəvəd səbəbi xeyr, əgər xuda xahəd": "Əgər Tanrı istəsə, düşmən xeyirə səbəb olar." (Farsca)

***Sülh ətrafında***

"1871-ci ildə Fransa tərəfindən imza edilən salonda": 18 yanvar 1871-ci ildə Versal sarayının Güzgülü qalereyasında imzalanan sənədlə Almaniya imperiyası elan edilmişdi.

"Avam Kamerası": ikipalatalı Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

"Kreysçaytunq" [Kreuzzeitung]: 1848-1939-cu illərdə Prussiya və Almaniyada nəşr edilmiş qəzet.

"Forverts" [Vorwärts] ("İrəli"): Almaniya Sosial-Demokrat Partiyasının orqanı olan qəzet. Əsası 1876-cı ildə qoyulmuşdur. Təqiblərə görə müxtəlif dövrlərdə Leypsiq, Berlin, Praqa və Parisdə nəşr edilmişdir.

***Qəzetələrdən***

"Duraçço": Adriatik dənizi sahilində, Albaniyaya məxsus Duratso (yaxud Durres) şəhəri nəzərdə tutulur.

***Bəhri-Xəzər dənizində pasajjir və yük gəmilərinin yola düşmələri***

"Şahsavar": İranın Mazandaran əyalətində, Xəzər dənizi sahilində şəhər; indiki Tənkəbun şəhəri.

"Məşhədsər": İranın Mazandaran əyalətində, Xəzər dənizi sahilində şəhər; indiki Babülsər şəhəri.

"Bəndər Gəz": İranın Gülüstan ostanında, Xəzər dənizi sahilində şəhər.

"Həsənqulı": Türkmənistanın Balkan vilayətində, Xəzər dənizi sahilində şəhər; indiki Əsənqulı şəhəri.

"Fort-Aleksandrovsk" (yaxud Aleksandrovsk): İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.



# Dünya Çempionatı -2026

## FIFA Xorvatiyanın qolu ilə bağlı bəyanat yaydı

**FIFA 1/16 finalda keçirilən Portuqaliya - Xorvatiya matçında (2:1) Xorvatiya millisinin 90+13-cü dəqiqədə vurduğu qolun ləğvi ilə bağlı bəyanat verib. Qurumun bəyanatında VAR-ın qərarının düzgün olduğu bildirilib.**



Məlumata görə, matçın rəsmi topu olan "Trionda"ya quraşdırılmış "Connected Ball Technology" sistemi müəyyən edib ki, hücum zamanı İqor Matanoviç topa toxunub. Bundan sonra top Mario Paşaliçin önünə düşüb. Paşaliç isə həmin anda ofsayd vəziyyətində olduğundan qol haqlı olaraq qeydə alınmayıb.

FIFA vurğulayıb ki, topun daxilində yerləşdirilən IMU sensorları ən kiçik təması belə qeydə almaq imkanına malikdirlər. Bu texnologiya hakimlərə daha sürətli və dəqiq qərar qəbul etmək üçün əlavə məlumat təqdim edir.

## Ronaldodan unikal nəticə

**Portuqaliya millisinin kapitanı Kriştianu Ronaldo futbol tarixində unikal nəticəyə imza atıb. Bu barədə "Squawka" məlumat yayıb.**

41 yaşlı hücumçu dünya və Avropa çempionatlarında ümumilikdə ən azı 25 qol vuran ilk oyunçu olub. O, bunu DÇ-2026-nın 1/16 finalında Xorvatiya ilə matçda fərqlənməklə bacarıb.



Ronaldonun dünya və Avropa çempionatlarındakı qolları:

- AÇ-2004 - 2 qol;
- DÇ-2006 - 1 qol;
- AÇ-2008 - 1 qol;
- DÇ-2010 - 1 qol;
- AÇ-2012 - 3 qol;
- DÇ-2014 - 1 qol;
- AÇ-2016 - 3 qol;
- DÇ-2018 - 4 qol;
- AÇ-2020 - 5 qol;
- DÇ-2022 - 1 qol;
- DÇ-2026 - 3 qol (hazırkı vəziyyətə görə).

## Fransa yığmasında Rayan Şerki problemi

**Dünya çempionatında pley-off həyəcanı yaşandığı bir vaxtda Fransa millisinin düşərgəsindən daxili nizam-intizamı və komanda ovqatını sarsıdacaq xəbərlər gəlməkdədir.**



Fransanın nüfuzlu "L'Equipe" nəşri xəbər verir ki, "üçrənglilər"in gənc və istedadlı yarımmüdafiəçisi Rayan Şerki meydandan kənarda olduqca ağır psixoloji dövr keçirir. Keçən həftənin sonundan etibarən emosional tükənmə yaşayan və hətta yuxusuzluq problemindən əziyyət çəkən gənc oyunçunun bu vəziyyəti Fransa məşqçilər heyətinin də ciddi narahatlığına səbəb olub.

İsveç üzərində qazanılan qələbədən sonra Şerkinin baş məşqçi Didye Deşama qarşı soyuq davranışı və onu görməzdən gəlməsi ölkə mətbuatında böyük rezonans doğurub. Futbolçuya yaxın dairələr bu reaksiyanın təcrübəli mütəxəssislə deyil, ulduzun sırf öz oyunundan narazı qalaraq fərdi aqressiya nümayiş etdirməsi ilə əlaqələndirsələr də, pərdəarxası gərginlik gizlədilə bilmir.

Hazırda heyətdə Kilian Mbappe, Usman Dembele və Maykl Olise kimi ulduzların parlaq forması fonunda Şerkinin əsas heyətə düşmək şansının minimal olması gənc oyunçunun depressiyasını daha da dərinləşdirir. Komanda yoldaşlarının ona mənəvi dəstək nümayiş etdirməsinə baxmayaraq, turnirin bu həlledici mərhələsində baş verən bu daxili böhranın Fransa millisinə necə təsir edəcəyini zaman göstərəcək.

## İngiltərə millisinin üzvü ən bahalı transfer oldu

**İngiltərə millisinin yarımmüdafiəçisi Elliot Andersonun "Nottinqem Forest"dən "Mançester Siti"yə keçidi Britaniya futbolu tarixinin ən bahalı transferi olub. Bu barədə "Daily Mail" məlumat yayıb.**



Transferin məbləği 135 milyon avro təşkil edib. Əvvəlki rekord Cud Bellinqemə məxsus idi. O, 2023-cü ildə "Borussiya Dortmund"dan ""Real"a 130 milyon avroya transfer edilmişdi. Bununla yanaşı, Anderson futbol tarixinin ən bahalı 5 transferi sırasına da daxil olub. Siyahıya Neymarın 2017-ci ildə "Barselona"dan PSJ-yə 222 milyon avroya keçidi liderlik edir.

Anderson Nyukasl Akademiyasının yetirməsidir. O, ötən mövsüm İngiltərə Premyer Liqasında 38 oyuna çıxıb, 4 qol vurub və 4 məhsuldar ötürmə edib.

## Nagelsmann da yola salındı



**Almaniya millisinin baş məşqçisi Yulian Nagelsmann vəzifəsindən ayrılıb. Bu barədə "Bild" nəşri məlumat yayıb.**

Mənbənin iddiasına görə, qərar DÇ-2026-da uğursuz çıxışdan sonra verilib. Almaniya yığması 1/16 finalda Paraqvaya 1:1 hesabı ilə başa çatan oyunun penaltilər seriyasında 3:4 hesabı ilə uduzaraq mübarizəni dayandırıb.

Bildirilir ki, "Liverpul"un sabiq baş məşqçisi Yurgen Klopp Almaniya Futbol İttifaqından təklif gələcəyi halda millini çalışdırmağa hazırdır.

Qeyd edək ki, 38 yaşlı Nagelsmann Almaniya millisini 2023-cü ildən çalışdırırdı. O, daha əvvəl "Bavariya", "Leyptsiq" və "Hoffenhaym" klublarının baş məşqçisi olub.

## "Təbrik edirəm, Luka"

**Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldo DÇ-2026-nın 1/16 final mərhələsində Xorvatiya üzərində qazanılan 2:1 hesablı qələbədən sonra rəqib komandanın yarımmüdafiəçisi Luka Modriçlə arasındakı söhbətdən danışıb.**



Uzun illər Modriçlə birlikdə "Real"da çıxış edən Ronaldo sabiq komanda yoldaşına uğurlar arzuladığını deyib: "Mən uzun illər Modriçlə birlikdə oynamışam. Onun hələ də belə yüksək səviyyədə çıxış etməsini görmək çox xoşdur. Oyundan sonra Modriçə dedim: "Təbrik edirəm, Luka. Karyeranın davamında uğurlar".

## Afrikalılar üçün 86-cı dəqiqə uğursuzluğu



**1/16 finalda 86-cı dəqiqə Afrika təmsilçiləri üçün uğursuzluqla yadda qalıb. Seneqal, Kot-d'İvuar və Konqo Demokratik Respublikası məhz bu dəqiqədə həlledici qolları buraxaraq turnirlə vidalaşıblar.**

Seneqal 86-cı dəqiqəyədək Belçika üzərində 2:1 hesabı ilə öndə olsa da, sonradan ardıcıl 3 qol buraxıb. Kot-d'İvuar 86-cı dəqiqədə Norveçdən (1:2), Konqo DR isə eyni dəqiqədə İngiltərədən (1:2) həlledici qolu buraxıb.

Beləliklə, DÇ-2026-da çıxış edən 5 Afrika millisindən yalnız Mərakeş 1/8 finala yüksələ bilib.

## "Məğlub olmağa layiq deyildik"



**Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç Portuqaliyaya məğlub olduqları oyunla bağlı fikirlərini bildirib.**

O, 1:2 hesabı ilə bağlı uduzduqları görüşdə məğlubiyyətə layiq olmadıqlarını deyib: "Xüsusilə ikinci hissədə daha yaxşı idik. Çoxlu qol şansları yaratdıq və yaxşı oynadıq, amma iki qol buraxdıq. Emosiyalar çox yüksəkdir, bununla belə şikayət edəcək nəsə yoxdur. Uşaqlar çox mübarizə apardılar, çox çalışdılar, amma... Çətindir, məğlub olmağa layiq deyildik. Portuqaliya ilə bərabər səviyyədə idik".

## Unai Simondan mütləq rekord



**İspaniya millisinin qapıçısı Unai Simon dünya çempionatları tarixinin mütləq rekordunu qırıb.**

Avstriya ilə oyunda (3:0) qapısını toxunulmaz saxlayan 29 yaşlı qolkiper mundialdakı "quru oyunlar" seriyasını uzadıb. Bununla da dünya çempionatlarında 519 dəqiqə qapısından qol buraxmayan Simon əfsanəvi italyan qapıçı Valter Dzenqanın 36 illik (517 dəqiqə) rekordunu geridə qoyaraq turnir tarixinin ən yaxşı göstəricisinə imza atıb.

## Riyad Mahrez millidən getdi

**Əlcəzair millisinin kapitanı Riyad Mahrez yığmadakı karyerasını başa vurduğunu açıqlayıb. Bu barədə jurnalist Fabritsio Romano məlumat yayıb.**



35 yaşlı vinger qərarını DÇ-2026-da Əlcəzair millisinin mübarizəni dayandırmasından sonra verib.

Mahrez 2014-cü ildən Əlcəzair yığmasının formasını geyinirdi. O, milli komandada keçirdiyi 119 oyunda 40 qol vurub, 45 məhsuldar ötürmə edib. Təcrübəli futbolçu Əlcəzair millisinin heyətində 2019-cu ildə Afrika Millətlər Kubokunun qalibi olub.

Qeyd edək ki, Əlcəzair DÇ-2026-nın 1/16 finalında İsveçrəyə 0:2 hesabı ilə uduzaraq turnirlə vidalaşıb.

## Belçikaya FIFA-dan forma qadağası

**1/16 final mərhələsində Seneqala qarşı keçirilən matçda Belçika millisi turnir ərzində ilk dəfə olaraq sürrealist rəssam Rene Maqrittin yaradıcılığından ilhamlanaraq hazırlanmış səfər formasında meydana çıxıb.**



Belçikalı Maqrittin yaradıcılığından təsirlənərək hazırlanmış açıq mavi rəngli bu forma ilk dəfə 2026-cı ilin martında Atlantada ABŞ-yə qarşı keçirilən yoldaşlıq oyununda təqdim olunub. Həmin matçda belçikalılar amerikalıları 5:2 hesabı ilə məğlub etmişdilər.

Futbol köynəyinin arxa hissəsində ilkin olaraq "Obrazların xəyanəti" tablosuna istinadən "Ceci n'est pas un maillot" ("Bu, futbol köynəyi deyil") ifadəsi yer alıb. Lakin FIFA-nın tələbindən sonra orijinal dizaynda dəyişiklik edilməsi zərurəti yaranıb.

FIFA qaydaları rəsmi oyun formalarında texniki xüsusiyyətlər və ya turnirin sponsorları ilə bağlı olmayan hər hansı yazının yerləşdirilməsini qadağan edir - təşkilat bu mesajı kommersiya reqlamentinin pozulması kimi qiymətləndirib. Federasiya yazının geyimin xarici tərəfindən çıxarılmasını tələb edib. Qadağadan yan keçmək üçün formanın istehsalçısı cümləni formanın daxili hissəsinə - yaxanın altına keçirib. Beləliklə, yazı geyimin üzərində qalsa da, kameralar və tamaşaçılar üçün görünməz olub.

## Perişiç Xorvatiya millisinin bombardiri oldu

**Xorvatiya millisinin yarımmüdafiəçisi İvan Perişiç dünya çempionatları tarixinə düşüb. 37 yaşlı futbolçu 1/16 finalda Portuqaliyaya 1:2 hesabı ilə uduzduqları matçda fərqlənib.**

Perişiç ən azı 4 fərqli dünya çempionatında qol vuran 6-cı futbolçu olub. O, daha əvvəl 2014-cü, 2018-ci və 2022-ci illərdə keçirilən mundiallarda da qol sevinci yaşamışdı. Xorvatiyalı yarımmüdafiəçi bu göstəricidə almaniyalı Miroslav Kloze və Uve Zeeler həmçinin braziliyalı Pele ilə eyni nəticəyə çatıb. Siyahıda birinci yerdə 6 fərqli dünya çempionatında qol vuran Kriştianu Ronaldo qərarlaşıb. Lionel Messi isə 5 mundialda fərqlənməklə ikinci pillədədir.



Qeyd edək ki, Perişiç həm də Xorvatiya millisinin dünya çempionatlarında qol vuran ən yaşlı futbolçusu olub. O, 37 yaş 150 günlüyündə fərqlənərək rekorda imza atıb. Bundan başqa, Perişiç mundiallarda 7-ci qolunu vuraraq Xorvatiya millisinin dünya çempionatları tarixində ən yaxşı bombardiri olub. O, bu göstəricidə Davor Şukeri geridə qoyub.

## "Hamı kimi biz də həyəcanlıyıq"



**Argentina millisinin baş məşqçisi Lionel Skaloni dünya çempionatının 1/16 final mərhələsində bu gecə qarşılaşdıqları Kabo Verde ilə oyundan gözləntilərini bildirib.**

48 yaşlı mütəxəssis oyunöncəsi mətbuat konfransında ehtiyatlı danışıb. "NDTV Sports" onun dediklərini belə təqdim edib: "Hamı kimi biz də həyəcanlıyıq. Qarşımızda hörmətə layiq, çox yaxşı oynayan bir rəqib var. Pley-off mərhəsində komandalar arasında fərq azdır. Düşünürəm ki, bizə asan olmayacaq. Reallıq budur.

Kabo Verde debütant olsa da, dünya çempionatında hələ uduzmayıb. Hətta bəzi matçlarda daha çoxuna layiq idilər. Səudiyyə Ərəbistanına qalib gəlməli olduqlarını düşünürəm. İspaniya və Uruqvaya qarşı bəlkə də əziyyət çəkdilər, amma yaxşı müdafiə olundular. Onlar ara ötürmələrini yaxşı bloklayırlar, əks-hücuma çox yaxşı çıxırlar. Kabo Verde bura təsadüfən gəlməyib".

## UEFA FIFA-nın qaydası ilə razılaşmır



**UEFA münaqişəli vəziyyət zamanı ağzını əli, çiyni və ya forması ilə örtən futbolçunun birbaşa meydandan qovulmasını nəzərdə tutan qaydanı tətbiq etməyəcək. Bu barədə "The Athletic" portalı məlumat yayıb.**

Xatırladaq ki, dünya çempionatı başlamazdan əvvəl FIFA futbol qaydalarına bir sıra dəyişikliklər edib. Yeni qaydalara əsasən, münaqişəli epizod zamanı ağzını əli, çiyni və ya forması ilə örtən istənilən futbolçu birbaşa qırmızı vərəqə ala bilər. Bu cür davranış danışığın məzmununu televiziya kameralarından gizlətmək cəhdi kimi qiymətləndirilir.

*Hazırladı:*
*Dönməz ABBASOV*

# Birinci Qarabağ müharibəsində itkin düşmüş şəhidlər torpağa tapşırılıb






Ucar

Füzuli

Kəlbəcər

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Dəyanət Salik oğlu Musayev bu gün Ucar rayonunda dəfn olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə rayonun Boyat kəndində itkin şəhidlə vida mərasimi keçirilib. Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, qazilər, kənd sakinləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimdə cənazə namazı qılınıb.

Vida mərasimindən sonra itkin şəhid Boyat kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub. Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

Qeyd edək ki, Dəyanət Musayev 1973-cü ildə Ucarın Boyat kəndində anadan olub. O, 1993-cü ildə Kəlbəcər rayonunun Murovdağ silsiləsi ərazisində gedən döyüşlərdə itkin düşüb.

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Möysüm Murad oğlu Əliyev bu gün Füzuli rayonunun İkinci Mahmudlu kənd qəbiristanlığında dəfn olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə itkin şəhidlə vida mərasimi olub, cənazə namazı qılınıb. Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra itkin şəhid hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.

Qeyd edək ki, Möysüm Əliyev 1973-cü ildə Füzuli rayonunda anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1994-cü il Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

Möysüm Əliyev Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək bu gün dəfn olunan şəhidlərdən biridir.

**Goranboy**

Birinci Qarabağ müharibəsində itkin düşmüş və nəşinin qalıqları sonradan tapılmış şəhid Rauf Əjdər oğlu Əhmədov Goranboy rayonunun Sarov kəndində torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, Sarov kənd qəbiristanlığında keçirilən dəfn mərasimində şəhidin ailə üzvləri, dövlət rəsmiləri, hərbçilər, şəhidin döyüş yoldaşları, müharibə veteranları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Mərasimdə cənazə namazı qılınıb.

Şəhid Rauf Əhmədov Birinci Qarabağ müharibəsi başlayandan sonra könüllü olaraq orduya yazılıb, Murov, Kəlbəcər, Ağdam və Ağdərə istiqamətlərində döyüşüb. O, 1993-cü ildə Ağdərə istiqamətində döyüşlərdə itkin düşüb.

**Kəlbəcər**

Birinci Qarabağ müharibəsində itkin düşdüyü hesab edilən və şəxsiyyəti müəyyənləşdirilən Kamalov Bahadur Məhəmməd oğlu Kəlbəcər rayonunda dəfn olunub.

AZƏRTAC xəbər verir ki, Zar kəndində keçirilən vida mərasimində şəhidin ailə üzvləri, yaxınları, Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı və əməkdaşları, ictimaiyyət nümayəndələri və rayon sakinləri iştirak ediblər.

Cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub.

Şəhidin nəşi yaylım atəşi altında torpağa tapşırılıb.

Qeyd edək ki, şəhid Bahadur Kamalov 1937-ci ildə Kəlbəcər rayonunun Zar kəndində anadan olub. O, 1993-cü il aprelin 5-də Murovdağ silsiləsində itkin düşüb.

# "AzerGold" ilk dəfə yerli bazara gümüş külçələr təqdim edib

**"AzerGold" QSC ölkədə gümüş külçələrə olan tələbatın yerli məhsullar hesabına qarşılanması və investisiya imkanlarının genişləndirilməsi məqsədilə ilk dəfə olaraq yerli xammal əsasında istehsal edilmiş 999,9 əyarlı gümüş külçələrin satışına başlayıb.**




Son illər "yaşıl enerji" texnologiyalarının sürətli inkişafı və elektronika sənayesində gümüşdən istifadənin əhəmiyyətli dərəcədə artması bu qiymətli metalın qlobal bazardakı strateji rolunu daha da gücləndirib. Eyni zamanda beynəlxalq bazarlarda gümüşə artan tələb onun investisiya aktivləri sırasında daha cəlbedici mövqe tutmasına əlverişli şərait yaradıb.

Gümüş külçələrin bazara çıxarılması dəyər zəncirinin genişləndirilməsinə töhfə verməklə yanaşı, vətəndaşlar üçün alternativ investisiya alətinin formalaşdırılmasını hədəfləyir. İlkin mərhələdə istehlakçılara 250, 500 və 1000 qramlıq çəkilərdə təqdim edilən məhsulların növbəti mərhələdə bazar tələbatı, investor marağı və istehlakçı seçimləri nəzərə alınmaqla müxtəlif çəki kateqoriyalarında yeni çeşidlərinin istehsalı planlaşdırılır.

Qeyd edək ki, gümüş külçələrin Satış və Mübadilə Mərkəzində milli valyuta ilə geri alışı da həyata keçiriləcək. Sözügedən məhsullar istehlakçılardan Azərbaycan Respublikası Mərkəzi Bankının gündəlik rəsmi məzənnəsi əsas götürülməklə, külçənin metal dəyərinə 10 faiz əlavə ödəniş tətbiq olunmaqla geri alınacaq.

Gümüş külçələr Bakı şəhəri, Bülbül prospekti, 3 ünvanında yerləşən Satış və Mübadilə Mərkəzində, həmçinin www.azergold.gift onlayn satış platforması vasitəsilə alıcılara təqdim edilir.

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 07.07.2026-cı il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklər yarana bilər. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcək.

# Bilmək istəyirəm

*- Kirayədə yaşayıram. Ev sahibi ilə müəyyən problemlər yaranıb. Bilmək istəyirəm, mənzil sahibi kirayəçiyə xəbərdarlıq etmədən evə daxil ola bilərmi? Bir də mülkiyyətçinin kirayəçinin evə qonaq qəbul etməsinə qadağa qoyması nə dərəcədə doğrudur?*

*Səxavət FƏRZƏLİYEV, Masazır qəsəbəsi*

- Sualınıza cavab olaraq bildiririk ki, məsələyə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin və mənzil qanunvericiliyinin fundamental prinsipləri, xüsusən də mülkiyyət hüququ ilə istifadə (kirayə) hüququnun balansı çərçivəsində yanaşmaq zəruridir.

Təcrübədə mənzil sahibləri (mülkiyyətçilər) çox vaxt elə hesab edirlər ki, mülkiyyət sənədi (çıxarış) onlardadırsa, evə istədikləri vaxt daxil ola və ya istədikləri qaydanı qoya bilərlər. Lakin hüquqi baxımdan bu, tamamilə yanlış yanaşmadır.

Nəzərə almaq lazımdır ki, mənzil kirayə müqaviləsi bağlandığı andan etibarən, mülkiyyətçi həmin mənzili sahiblik və istifadə hüququ ilə birlikdə kirayəçiyə ötürür. Bu andan etibarən həmin mənzil kirayəçinin toxunulmaz yaşayış sahəsi hesab olunur. Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsinə əsasən, hər kəsin yaşayış sahəsinin toxunulmazlığı hüququ vardır. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kim yaşayış sahəsinə orada yaşayanların iradəsi ziddinə daxil ola bilməz. Həmçinin kirayə müqaviləsi qüvvədə olduğu müddətdə mülkiyyətçi mənzilə yalnız kirayəçinin razılığı və öncədən xəbərdar edilməsi şərtilə, özü də ağlabatan vaxtlarda (məsələn, mənzilin vəziyyətinə baxış keçirmək üçün) daxil ola bilər.

Unutmaq olmaz ki, ev sahibinin kirayəçi evdə olmadığı vaxt qapını öz açarı ilə açıb içəri girməsi həm mülki-hüquqi öhdəliklərin pozulmasıdır, həm də müvafiq hüquqi məsuliyyət yarada bilən amildir.

Mülkiyyətçinin "evə qonaq qəbul etməyə qadağa qoyması" hüquqi baxımdan əsassız və şəxsi həyata müdaxilə hesab oluna bilər. Belə ki, kirayəçi mənzili, sadəcə, gecələmək üçün deyil, faktiki olaraq yaşamaq üçün kirayələyir. Yaşamaq isə sosial həyatın tərkib hissəsidir. Nəzərə almaq lazımdır ki, Konstitusiyanın 32-ci maddəsi hər kəsin şəxsi və ailə həyatının sirrini qorumaq hüququnu təsbit edir. Kirayəçinin öz mənzilinə yaxınlarını, dostlarını və ya ailə üzvlərini qonaq qəbul etməsi onun şəxsi həyat hüququnun tərkib hissəsidir. Mülkiyyətçi bu hüququ məhdudlaşdıra bilməz.

Bundan başqa, tərəflər arasında bağlanmış kirayə müqaviləsinə bəzən ev sahibləri "qonaq gələ bilməz" kimi bəndlər daxil etmək niyyətinə düşə bilərlər. Lakin mülki hüququn əsas prinsiplərinə görə, insan hüquq və azadlıqlarını kökündən məhdudlaşdıran və ya qanunun imperativ normalarına zidd olan müqavilə şərtləri əhəmiyyətsiz (etibarsız) sayılır.

Gələcəkdə bu növ xoşagəlməz mübahisələrin qarşısını almaq üçün kirayə müqaviləsi bağlanarkən bəzi bəndlərin dəqiq yazılması hər iki tərəf üçün faydalıdır. Məsələn, ilk növbədə baxış hüququnu qeyd etmək olar və tərəflər belə bir müddəanı müqavilə şərtlərinə daxil edə bilərlər: "Mülkiyyətçi mənzilin texniki vəziyyətinə nəzarət etmək üçün ayda 1 (və ya 2 ayda 1) dəfədən çox olmayaraq, ən azı 1 gün öncədən kirayəçiyə xəbərdarlıq etməklə və onun iştirakı ilə mənzilə baxış keçirə bilər". Yaxud toxunulmazlıqla bağlı: "Kirayəçinin icazəsi və xəbəri olmadan mülkiyyətçinin mənzilə daxil olması qadağandır" bəndi, eləcə də istifadə qaydası ilə bağlı zəruri hesab edilən halları, o cümlədən "Mənzildə yalnız müqavilədə adları qeyd olunan şəxslərin daimi yaşayacağı" xüsusi olaraq qeyd edilməlidir.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# "Azərenerji" Xankəndi və Ağdərədə 110 kV-luq yarımstansiyalar tikir




**2023-cü ildə keçirilən antiterror tədbirlərindən sonra azad olunmuş ərazilərdə enerji infrastrukturunun bərpası və müasirləşdirilməsi istiqamətində həyata keçirilən layihələr davam edir. Bu çərçivədə "Azərenerji" ASC tərəfindən Xankəndi şəhərində 110/35/10 kV-luq "Xankəndi-2" və Ağdərə rayonunda 110/35/10 kV-luq "Həsənriz" yarımstansiyaları sökülərək ən müasir rəqəmsal texnologiyalar əsasında yenidən inşa edilir.**

"Xankəndi-2" yarımstansiyasının tikintisi Xankəndi şəhərinin, ətraf yaşayış məntəqələrinin və bütün mühüm infrastruktur obyektlərinin daha etibarlı, dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatına imkan verəcək. Ağdərə rayonunda tikilən "Həsənriz" yarımstansiyası isə rayonun istehlakçılarının, o cümlədən sənaye müəssisələrinin enerji təchizatının etibarlılığını artırmaqla yanaşı, "Sərsəng" və bölgədə fəaliyyət göstərən digər su elektrik stansiyalarında istehsal olunan enerjinin ölkənin enerji sisteminə təhlükəsiz və fasiləsiz ötürülməsini təmin edəcək.

"Azərenerji"nin İctimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayevin sözlərinə görə, "Xankəndi-2" və "Həsənriz" yarımstansiyalarında kommutasiya avadanlıqlarının məsafədən idarə olunması və texnoloji göstəricilərin real vaxt rejimində ötürülməsi üçün yerli mikro SCADA dispetçer idarəetmə sistemi qurulacaq. Bu sistemlər "Azərenerji"nin Mərkəzi SCADA idarəetmə platformasına inteqrasiya ediləcək.

Qeyd edək ki, bundan əvvəl "Azərenerji" tərəfindən "Xankəndi-1" yarımstansiyası tamamilə yenidən qurularaq qapalı tipli yarımstansiya kimi ötən ilin dekabr ayında istismara verilib. Yeni layihələrin tamamlanması ilə "Azərenerji"nin azad edilmiş ərazilərdə inşa etdiyi yarımstansiyaların sayı 16-ya çatacaq.

Bölgədə artıq 38 su-elektrik stansiyası tikilərək istismara verilib, hazırda isə əlavə 8 su-elektrik stansiyasının tikintisi davam edir.

*Bəhmən MİRZƏYEV, "Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

# Hava yağıntılı olacaq



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 30-34° isti olacaq. Nisbi rütubət gecə 75-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 31-36° isti, dağlarda gecə 10-15°, gündüz 20-25°, bəzi yerlərdə 27-32° isti olacağı ehtimal edilir.

*15 aprel 1999-cu il tarixdə Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları Baş İdarəsi tərəfindən Nəbiyev Babək Əli oğluna verilmiş 1007 nömrəli Müharibə Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayev və akademiyanın kollektivi Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyevə bacısı

**RAYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyevə bacısı

**RAYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3008
Sifariş 837

Qiyməti 60 qəpik